Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 2 (6095) 17 yanvar 2025-ci il | Qiyməti 40 qəpik

## DTX-dən əməliyyat




**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycanda fəaliyyət göstərən dini icmalardan birinin üzvünə qarşı terror aktı planlaşdırmış Gürcüstan vətəndaşı Aslanov Aqil Göycə oğlu və Azərbaycan Respublikasının vətəndaşı İsmayılov Ceyhun Şahin oğlu saxlanılıblar.**

**Adalet.az xəbər verir ki, narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan Aqil Aslanov 2024-cü ilin sentyabr ayında üçüncü ölkədə səfərdə olarkən, tanışı vasitəsilə həmin ölkənin xüsusi xidmət orqanının əməkdaşları ilə görüşüb və həmin şəxslər Azərbaycanda olan dini icma üzvünün fotoşəkillərini Aqil Aslanova göstərib barəsində məlumat verərək, 200.000 ABŞ dolları müqabilində ona sui-qəsd edilməsini təklif ediblər. Qarşılıqlı razılıq əsasında Aqil Aslanova ilkin olaraq icma üzvü və onun iş yeri barədə zəruri kəşfiyyat məlumatlarının toplanılaraq onlara ötürülməsi tapşırılıb, bunun üçün isə 2.000 ABŞ dolları məbləğində avans təqdim edilib. Tapşırığın icrası ilə bağlı Bakı şəhərinə gələn Aqil Aslanov maddi maraq müqabilində cinayət əməllərində iştiraka cəlb etdiyi Ceyhun İsmayılovla birgə dini icma üzvü barədə məlumatların toplanılması istiqamətində işlər görüblər, onun yaşayış və iş yerinin məkan göstəricilərini müvafiq mobil telefon tətbiqi vasitəsilə xarici xüsusi xidmət orqanı nümayəndəsinə göndəriblər.**

**Faktla əlaqədar DTX-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 274, 276 və digər maddələri ilə istintaqı aparılan cinayət işi üzrə məhkəmə tərəfindən Aqil Aslanov və Ceyhun İsmayılov barəsində həbs qətimkan tədbiri seçilib.**

## Ərdoğan: Hər kəs əlini Suriyadan çəksin



**Həm İŞİD-i, həm də YPG-ni ən qısa zamanda darmadağın edəcək gücümüz var.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəp Tayyip Ərdoğan deyib.

"Hər kəs əlini Suriyadan çəksin. Suriyalı qardaşlarımızla birlikdə İŞİD, YPG və digər terror təşkilatlarının başçılarını qısa zamanda əzəcəyik", - Ərdoğan deyib.

## Ayxan Hacızadədən ABŞ səfirliyinə cavab



**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə ABŞ-nin Bakıdakı səfirliyinin iddialarına cavab verib.**

Adalet.az xəbər verir ki, XİN rəsmisi bu barədə "X" hesabında yazıb. "Bəxtiyar Hacıyevə qarşı qanuni məhkəmə qərarı işdəki çoxsaylı sübutlara əsaslanır və məhkəmə prosedurlarına xarici müdaxilə qəbuledilməzdir. Maraqlıdır ki, eyni növ vergi fırıldaqçılığı və maliyyə cinayətləri Amerika Birləşmiş Ştatlarında dəfələrlə ciddi şəkildə cəzalandırılır və həbs müddəti 30 ilə qədər çata bilər, nə üçün bu ölkə digər ölkələrdə belə cinayətlərə qarşı verilən cəzadan narazıdır. Görünür ki, belə bir yanaşma qanunun aliliyinin əhəmiyyətinin artırılmasından daha çox siyasi maraqlara əsaslanır", - diplomat vurğulayıb.

AQİL ABBAS

## TRAMP PUTİNİN YOLUNU AÇACAQ

Bax:səh-3

## YAZIQ ZELENSKİ



**Deyirlər Ukrayna boyda ölkənin prezidentinin aylıq maaşı 643 dollardı. İndi Ukraynada da bahalıqdı, bəs, bu, ailəsini nəylə dolandırır?**

Hər gün Ukraynaya milyardlarla dollar və ya avro yardım edənlər heç olmasa bu yazığın maaşını bir az qaldırsınlar, ayıbdı.

## HƏKİMİ TƏBRİK ETMƏDİLƏR EY, TORBA TİKDİLƏR

**"German" hospitalın həkim-ginekoloqu Ləman Əliyevanın ad günü müzakirələrə səbəb olub. Həkim əməliyyatdakı tibb bacıları əməliyyat otağına girib onun ad gününü təbrik ediblər.**

Əslində isə bu ad günü təbriki deyil, yazıq həkimə torba tikiblər. Hospitalın direktor müavini Səftər Əliyev deyib ki, araşdırmalar aparılıb və kiçik tibb bacılarına töhmət verilib, həkim isə hələlik işdən kənarlaşdırılıb.

Əsas araşdırılmalı məsələ onu lentə alıb paylaşanın kimliyidi, cəzalanan o olmalıdır, yəni həkimə torba tikən.

## ARTIQ UCUN QOYUBLAR



**Avstraliyada böyük yanğın oldu, ondan sonra Covid-19 adlı bir pandemiya kəşf edib dünyaya yaydılar, nə qədər insan öldü.**

Şükürlər olsun ki, Azərbaycan bu bəlanı dövlətin və hökumətin hesabına yüngül atlatdı.

İndi də ABŞ-ın Kaliforniya ştatında hələ də söndürülə bilməyən böyük bir yanğın tüğyan edir, şəhərlər külə dönür, yüz minlərlə insan yanğın ərazisindən təxliyyə edilib, məcburi köçkün gününə düşüblər.

Yəqin ki, bu yanğından da sonra daha bir pandemiya kəşf edib dünyaya yayacaqlar. Diqqət etsəniz, indidən ucunu qoyublar. Deyəsən, yenə Çindən başlayıb, artıq Qazaxıstana, Özbəkistana da keçib, day bilmirəm hara.

**Allah köməyimiz olsun, bu bəla bizdən uzaq olsun.**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## BİRCƏ ÇUMAK VƏ KAŞPİROVSKİMİZ ÇATMIR



***İndiki cavanlar bilməz, amma köhnələrin yəqin ki yadından çıxmayıb. 90-cı ilin əvvəlində Moskvanın əsas kanallarında Çumak və Kaşpirovski adında iki nəfər peyda olmuşdu. Biri baxışlarıyla camaatı yatızdırırdı, biri də əlləriylə müxtəlif hərəkətlər edib guya insanları sağaldırdı. O, Kaşpirovski idi. Sonuncu verilişində də iki əlini birləşdirib tamaşaçılara bir "aley" verdi.***

***İndi bizim televiziya kanallarında bir-birini təkrar edən verilişlər, demək olar ki, hamısı da arvad hamamı, bir tərəfdən də uroloq, ufoloq, ginekoloq, plastik əməliyyat aparan cərrahlar və sairə və ilaxır, at gəldi örkən apardı, it gəldi çarıq, məsləhətlər verirlər.***

***Allaha şükür, day həkimə getmək lazım deyil. Başın ağrıyır filan dərman at, ürəyin ağrıyır filan dərman at, ayağında varikoz var filan maz, filan dərman, gözün görmür televiziyaya az bax, özünü pis hiss edirsənsə yüz qram tut arağı iç və sair və ilaxır.***

Bax: səh-2

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı hər gün yaxınlıqdakı kafeyə gəlib 3-dənə yüz qramlıq rumkada araq sifariş verirmiş.

Bir gün ofisant:

**-Şair, siz hər gün gəlirsiniz və 3 rumka araq içib gedirsiz, bunun sirri nədir?**

Vəli:

- Qardaş, heç bir sirr yoxdur. Mənim iki dostum var idi, biz hər gün kafedə adama yüz qram araq içib gedirdik evə. İndi onlar başqa şəhərlərə köçüblər. Söz vermişdik ki, harda içsək 3 rumka araq sifariş edək və göstərək ki, biz hər gün bir yerdəyik.

Bir müddətdən sonra, Vəli yenə kafeyə gəlir və bu dəfə 2 dənə yüzqramlıq sifariş edir.

Ofisant:

**- Şair, Allah rəhmət eləsin, yəqin dostlarından biri dünyasını dəyişib, ona görə bu dəfə 2 dənə yüzqramlıq sifariş edirsiniz?**

Vəli:

**- Yox, qağa, Allaha şükür dostlarım sağ-salamatdılar, sadəcə mən araq içməyi tərgitmişəm, ancaq onların əvəzinə içirəm...**

# Prezident İlham Əliyev "Rəqəmsal İnkişaf Konsepsiyası"nı təsdiqlədi



**"Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" təsdiq edilib.**

Bu barədə Prezident İlham Əliyev fərman imzalayıb. Sənədə əsasən, müəyyən edilib ki, bu Fərmanla təsdiq edilən Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

Konsepsiyada nəzərdə tutulmuş Rəqəmsal İnkişaf Operatorunun funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət orqanları (qurumları) tərəfindən dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin (büdcədənkənar dövlət fondlarının vəsaitləri hesabına həyata keçirilən layihələr istisna olmaqla) maliyyələşdirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəyi (Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla) əsasında təmin edilir.

Nazirlər Kabineti dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi ilə bağlı təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli;

Konsepsiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etməli;

- dövlət orqanları (qurumları) tərəfindən (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri, eləcə də Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən formalaşdırılan dövlət müəssisələri istisna olmaqla) bu Fərmanda nəzərdə tutulmuş illik planın icrasına nəzarəti həyata keçirməli;

- rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarlarını beş ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli;

- ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi qaydalarını, o cümlədən meyarlarını beş ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli;

- bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmana uyğun olaraq əldə etdiyi rüblük statistik məlumatların, fərdi məlumatların mühafizəsi ilə bağlı tələblər nəzərə alınmaqla, hər rübdən sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmasını təmin etməli;

Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarında nəzərdə tutulan hallarda data əsaslı qərarların qəbul edilməsi və süni intellekt həllərinin tətbiqi istiqamətində aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə tədbirlər görməli;

Konsepsiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən rəqəmsallaşdırmanın əlaqələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etməlidir.

Dövlət orqanlarına (qurumlarına) tapşırılıb, Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilib ki, Konsepsiyadan irəli gələn vəzifələrin icrası ilə bağlı görülən işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat təqdim etsinlər;

elektron xidmətlərdən istifadə ilə bağlı rüblük statistik məlumatların hər rübdən sonrakı ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim olunmasını təmin etsinlər;

ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin icrasına dair illik planın hazırlanmasını, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəyi alınmaqla təsdiq olunmasını və yenilənməsini təmin etsinlər;

informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə son istifadəçi kompüterlərini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən qurulmuş, mərkəzləşdirilmiş antivirus mühafizə vasitəsi ilə, habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təqdim olunan lisenziyalı əməliyyat sistemləri və ofis proqramları ilə təmin etsinlər.

# Yoxsulluq, vətəndaş müharibəsi: AİI-dən çıxacağı təqdirdə Ermənistanı nə gözləyir

**Yanvarın 9-da Ermənistan Nazirlər Kabineti Avropa İttifaqına (Aİ) qoşulma prosesinin başlanması ilə bağlı qanun layihəsini təsdiqləyərək parlamentə göndərib.**

Hökumətin iclasında çıxış edən ölkənin xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, bu sənədin hazırlanmasının əsasında son illər Aİ ilə əlaqələrin dinamik və intensiv inkişafı dayanır. Onun sözlərinə görə, Aİ dəfələrlə Ermənistan hökumətinə siyasi dəstəyini ifadə edib və həmçinin Azərbaycanla sərhəddə yerləşdirilən Aİ monitorinq missiyasına istinad edərək regionda təhlükəsizliyin təmin olunmasında iştirak edib.

Adalet.az xəbər verir ki, bu barədə "NEWS.ru"da dərc olunan " Yoxsulluq, vətəndaş müharibəsi: AİI-dən çıxacağı təqdirdə Ermənistanı nə gözləyir?" sərlövhəli məqalədə qeyd olunub.

"Ölkənin xarici işlər naziri Ararat Mirzoyan bildirib ki, bu sənədin hazırlanmasının əsasında rəsmi İrəvanın son illər Aİ ilə əlaqələrin dinamik və intensiv inkişafı ilə əlaqədar qəbul edilib.

Onun sözlərinə görə, Aİ dəfələrlə Ermənistan hökumətinə siyasi dəstəyini ifadə edib və həmçinin Azərbaycanla sərhəddə yerləşdirilən Aİ monitorinq missiyasına istinad edərək regionda təhlükəsizliyin təmin olunmasında" iştirak edib. Baş nazir Nikol Paşinyan isə öz növbəsində qeyd edib ki, əsas məqsəd Ermənistanın Aİ ilə yaxınlaşma üzrə əməli işə hazır olduğunu göstərməkdir. Göründüyü kimi, bəyanatlarının əsassız olmadığını nümayiş etdirmək əzmində olan Ermənistanın baş naziri elə həmin gün İrəvanda Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüş keçirib. Yanvarın 9-da Rusiya hökumətinin baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, Ermənistan hakimiyyətinin Aİ-yə qoşulma prosesinə başlamaq qərarı "Titanik"ə bilet almağa bərabərdir. O, qeyd edib ki, İrəvan Avropa İqtisadi İttifaqından (AİI) çıxacağı təqdirdə çox şey itirəcək. Çünki o, Rusiyanın və ittifaqın digər üzvlərinin bazarına sərbəst çıxış imkanlarını itirəcək və bu, ciddi iqtisadi böhrana səbəb ola bilər", - məqalədə bildirilib.

Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin sədr müavini Andrey Klimov "NEWS.ru"ya bildirib ki, Ermənistan Aİ-yə daxil olsa, onda MDB-dən çıxmalı olacaq. Kremlin sözçüsü Dmitri Peskov Ermənistanın Aİ-yə daxil olmasının onun suveren hüququ olduğunu deyib, lakin əlavə edib ki, eyni zamanda həm Aİ, həm də AİI üzvü olmaq mümkün deyil. "İki fərqli təşkilatın üzvü olmaq, hipotetik olaraq, sadəcə mümkün deyil. Burada bir gömrük sahəsi var, mal və xidmətlərin, insanların və kapitalın sərbəst hərəkəti zonası, müxtəlif normalar var", - Peskov deyib. "Vahid Rusiya" fraksiyasının üzvü, Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Viktor Vodoletskinin sözlərinə görə, AİI sayəsində Ermənistan bu illər ərzində iqtisadiyyatını 15-17 % artıra bilib: "Ermənistan rəsmiləri dərk etməlidirlər ki, Aİ AİI-nin hazırda təklif etdiyi imkanları təmin etməyəcək. Təbii ki, iqtisadiyyat dağılacaq, insanlar yoxsullaşacaq, iğtişaşlar başlayacaq, vətəndaş müharibəsi baş verəcək. İnsanların yeməyə heç nələri olmayacaq və əhalinin axını, ilk növbədə, təbii ki, Ermənistan vətəndaşlarının ən çox yaşadığı ölkələrə - Rusiyaya olacaq". Maliyyə Analitikləri və Risk Menecerləri Gildiyasının Müşahidə Şurasının üzvü, iqtisadçı Aleksandr Razuvaev isə "NEWS.ru"ya bildirib ki, Aİ-yə daxil olandan sonra Ermənistan ümumiyyətlə dövlət kimi yaşaya bilməz. Onun fikrincə, respublikanın sağ qalması üçün yeganə şans Rusiya ilə yaxşı münasibətlər saxlamaqdır./report

# BQXK əməkdaşları Azərbaycanda saxlanılan separatçılara baş çəkdi

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları yanvar ayında Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkmişlər. Saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib.

"Mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir.

BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir",-məlumatda qeyd edilib.

AQİL ABBAS

# BİRCƏ ÇUMAK VƏ KAŞPİROVSKİMİZ ÇATMIR

*İndiki cavanlar bilməz, amma köhnələrin yəqin ki yadından çıxmayıb. 90-cı ilin əvvəlində Moskvanın əsas kanallarında Çumak və Kaşpirovski adında iki nəfər peyda olmuşdu. Biri baxışlarıyla camaatı yatızdırırdı, biri də əlləriylə müxtəlif hərəkətlər edib guya insanları sağaldırdı. O, Kaşpirovski idi. Sonuncu verilişində də iki əlini birləşdirib tamaşaçılara bir "aley" verdi.*

*İndi bizim televiziya kanallarında bir-birini təkrar edən verilişlər, demək olar ki, hamısı da arvad hamamı, bir tərəfdən də uroloq, ufoloq, ginekoloq, plastik əməliyyat aparan cərrahlar və sairə və ilaxır, at gəldi örkən apardı, it gəldi çarıq, məsləhətlər verirlər.*

*Allaha şükür, day həkimə getmək lazım deyil. Başın ağrıyır filan dərman at, ürəyin ağrıyır filan dərman at, ayağında varikoz var filan maz, filan dərman, gözün görmür televiziyaya az bax, özünü pis hiss edirsənsə yüz qram tut arağı iç və sair və ilaxır.*

*Əclaf Sovet hökumətində həkimlərin və dərmanların reklamı qadağan idi. Hətta hansısa bir qəzetdə hansısa bir həkim haqqında məqalə yazmağa da yasaq qoymuşdular.*

*Yaxşı oldu ki, dağıldı.*

*İndi televiziyalarımızda özəl hospitalların, özəl xəstəxanaların və onların özəl həkimlərinin 24 saat reklamı gedir.*

*Filan hospitalda sol ayağınızın əvəzinə sağ ayağınızı kəsəcəklər, bəşməkan hospitalda ölmək istəyirsizsə gedin burnunuzu əməliyyat etdirin, başqa bir hospitalda gedin doğun, doğuş zamanı sizə tort gətirəcəklər, üstündə də şamlar, filan hospitalda gedin mədənizi kiçildin, Allah qoysa o qədər arıqlayacaqsınız ki, əriniz məcbur olub sizə xəyanət edəcək.*

*Sağ olsun həkimlərimiz, maşallah, o qədər pullanıblar ki, hətta mənasız kinolara sponsorluq edirlər. Bircə qalır futbola sponsorluq etmək. Yəqin tezliklə onu da görəcəyik.*

*Hamısı da gedib qardaş Türkiyədə uzmanlıq diplomu alırlar.*

*Bir dəfə Ağcabədidə su idarəsinə getmişdim. Müdirin kabinetinə girəndə məəttəl qaldım. Divardan o qədər diplomlar asılmışdı: "İti qələm" mükafatı, "Qızıl qələm" mükafatı, "İlin adamı" diplomu, "XX əsrin görkəmli şəxsiyyəti" diplomu. Bəlkə divarda müxtəlif qəzetlərin təsis etdiyi 30-dan çox diplom vardı. Müdir gülüb mənə dedi:*

*- Heç sənin bir belə diplomun var?*

*Bu gün həkimlərin də otaqlarına girəndə 20-30 diplom və sertifikat görərsən.*

*İndi televiziyalarımızda bircə Çumak və Kaşpirovski çatmır. Allaha şükür, indi ölkəmizdə fala baxanların və ekstrasenslərin sayı həkimlərdən də çoxdur, onları da kanallara dəvət edib millətin falına baxdırsaydılar və ya ekstrasensləri dəvət edib Kaşpirovski kimi milləti yatızdırsaydılar kef eləyərdik.*

*Düzdür, siyasi fala baxanlar ekranlardan düşmürlər, amma onların da falları 90 faiz səhv çıxır.*

*Və sonda. Dövlət xəstəxanaları və bu xəstəxanalarda işləyən həkimlər niyə reklam olunmur, bunu başa düşmürəm.*

*Yeri gəlmişkən, dünyanın bir nömrəli avtomobili olan "Mersedes"in reklamına rast gəlmisiniz?*

*Yadımdan çıxmışdı, muştuluğum sizdə, dərmanların qiyməti də babat qalxıb.*

# KTMT-dən Ermənistan-ABŞ strateji tərəfdaşlığına reaksiya



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Katibliyi Ermənistanla ABŞ arasında imzalanacaq strateji tərəfdaşlıq sənədi ilə bağlı məlumatı şərh edib.**

Adalet.az xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Qeyd olunub ki, strateji tərəfdaşlıq sənədini qiymətləndirmək üçün müvafiq sənədlərin məzmunu ilə tanış olmaq lazımdır.

"Vaşinqtonla belə tərəfdaşlığın yaradılması ikitərəfli münasibətlərin inkişafı çərçivəsində Ermənistan Respublikasının suveren hüququdur. Lakin bərabər və bölünməz təhlükəsizlik prinsipinin əsas götürülməsi vacibdir, yəni bu tərəfdaşlıq digər dövlətlər və beynəlxalq birliklər üçün təhlükəsizlik təhdidləri yaratmamalıdır", - deyə KTMT Katibliyi əlavə edib.

# ABŞ sazişində "anti-türk" plan: "Erməniləşdirmək" və "qədimləşdirmək"

**Xəbər verdiyimiz kimi, yanvarın 14-də Vaşinqtonda ABŞ Dövlət Departamentində ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq haqqında xartiya imzalanıb.**

Adalet.az xəbər verir ki, xartiyanın 4-cü bəndində belə plan nəzərdə tutulub: "Hər iki ölkənin gələcəyi üçün innovasiya və mobilliyə ehtiyac olduğunu vurğulayan Ermənistan və ABŞ ali təhsil, biznes və tədqiqat sahələrində əməkdaşlığın artırılmasını stimullaşdırmağı planlaşdırır.

Mədəni, təhsil, biznes və elmi fəaliyyətlə məşğul olan ixtisaslı şəxslərə girişi təmin etmək üçün, ABŞ qanunlarına və prosedurlarına uyğun olaraq, ABŞ viza müraciəti prosesini sadələşdirməyi planlaşdırır.

Ermənistan və ABŞ Ermənistanın akademik şəhərinin potensialını təhsil və tədqiqatda ortaq məqsədləri irəli sürən akademik əməkdaşlıq və innovasiya mərkəzi kimi qiymətləndirir.

Ermənistan və ABŞ Ermənistanda mədəni irsin qorunmasına yönəlmiş birgə təşəbbüsləri dəstəkləmək niyyətindədir".

Təbii ki, bu bəndlə ABŞ Ermənistanın "qədim erməni abidələrinin təmiri" adı altında qədim türk və Alban tarixinə məxsus tikililəri erməniləşdirməkdə ermənilərə köməyi nəzərdə tutur.

ABŞ hökümətinin Qafqaza gəlməhayların burada özlərinə qədim tarix yaratmasına köməkliyini, bu yöndə israrını hələ bir neçə ay əvvəl şahid olmuşduq.

Ermənistan ərazisində qədim və orta əsirləri əhatə edən qala, körpü, monastr, kilsə, türbə və bir sıra tikililərin böyük bir hissəsi "təmir" adı altında sonuncu türk izlərindən də təmizlənib. İyun ayında ABŞ hökuməti işləri sürətləndirmək məqsədi ilə vəsaitindən də keçib. Bələki, 2024-cü ilin əvvəlindən IV-V əsrlərə aid Yerəruyk bazilika məbədinin tikintisi davam edir. Həmin vaxt erməni mediayası yazdı ki, ABŞ-ın Ermənistandakı səfirinin Mədəni Dəyərlərin Qorunması Fondu məbədin bəzi hissələrində bərpa işlərinə, digər hissələrində isə gücləndirmə işlərinə 175 min dollar ayırıb. Əvvəlcə kilsənin texniki vəziyyəti öyrənilib və bir qrup memar unikal bazilikanın daha da xarab olmasının və dağılmasının qarşısını almaq üçün həll yolları tapıb. İşlər oktyabrın 20-dək başa çatdırılması nəzərdə tutulsa da başa çatdığı ilə bağlı məlumatlar hələ ki, yayılmayıb.



Xatırladaq ki, Yerəruyk məbədi - Qərbi Azərbaycanda (indiki Ermənistan respublikasıərazisində), Şörəyel mahalının Agin rayonu ərazisində, Arpaçayın sol sahilində qədim türk məbədidir.

Məbədin bütün yan divarları salamat qalmış, lakin tavanı, üçnefli zalın arakəsmələri və s. tikililər uçub dağılıb. Tədqiqatçılar yekdil olaraq məbədin bölgədə xristianlığın ilk çağlarına aid olması və onun IV - V yüzillərdə tikilməsi qənaətindədirlər. Bildirilir ki, məbəd erkən orta əsrlər alban bazilikaları, xüsusilə Azərbaycan respublikasının Qax rayonu ərazisindəki Qum bazilikası ilə xeyli oxşar xüsusiyyətlərə malikdir. Yerəruyk monastırının yerləşdiyi ərazi tarixən türk boylarının anayurdu olub Şörəyel - Şirək - el adı da bu yerlərin qədim sakinləri olan şirak türk tayfasının adı ilə bağlıdır. Məbədin yerləşdiyi əraziyə ermənilərin ilk kütləvi axını XIX yüzilin əvvəllərində bölgənin Çar Rusiyası tərəfindən işğalından sonra başlamışdır.

Abidə 25 avqust 1995-ci ildə Ermənistandakı xristian abidəsi kimi UNESCO-nun Ümumdünya İrsinin Sınaq Siyahısına salınıb.

Milli Məclisin Əmək və sosial müdafiə və Mədəniyyət Komitələrinin və Toponomiya komissiyasının üzvü. Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərlinin 1994-cü ildə işıq üzü görmüş "Qədim Türk-Oğuz yurdu - "Ermənistan" adlı kitabda Yerəruyk haqqında məlumat var.

Qeyd edək ki, 19 may 2012 ABŞ Konqresi 1998-ci ildə qəbul etdiyi qərara əsasən 1999-cu ildən etibarən Dağlıq Qarabağ rejiminə birbaşa maliyyə yardımı ayıran yeganə dövlətdir. ABŞ-ın bu lazımsız dəstəyi sayəsində Azərbaycan hər zaman əziyyət çəkib .

**Birinci Qarabağ Müharibəsindən (1988-1994) əvvəl Azərbaycanın Qarabağ bölgəsində 706 tarixi və mədəniyyət abidələri mövcud olub. Onlardan 11-i beynəlxalq (6-sı memarlıq, 5-i arxeoloji), 240-ı dövlət (119-u memarlıq, 121-i arxeoloji), 455-i yerli (393-ü memarlıq, 22-si arxeoloji, 23-ü parklar və xatirə abidələri, 17-si dekorativ sənət işləri) əhəmiyyət daşıyıb.**

**Əntiqə Rəşid**

---

*AQİL ABBAS*

# TRAMP PUTİNİN YOLUNU AÇACAQ

***Bir neçə gündən sonra Tramp oturacaq Ağ Evdəki "ovalnı" kabinetdə. Və bununla da yenidən 4 il müddətində dünyanın bir nömrəli "vor zakon" dövlətinin prezident səlahiyyətlərini yerinə yetirəcək. Amma hələ hakimiyyətə gələr-gəlməz elə bəyanatlar verdi ki, hamını çaşdırdı. Birincisi, Kanadaya təklif etdi ki, ABŞ-ın 51-ci ştatı olsun. Danimarkaya deyir ki, Qrenlandiyanı sat mənə. Bir tərəfdən də Panama kanalını istəyib.***

***Ağdamlılarda belə bir söz var, biri çox yekə-yekə danışanda dostlar lağla deyir ki, elə danışır ki, guya Gəncəni satın alıb, Bakının da behin verib.***

***Bizdə olan dəqiq məlumata görə, Tramp ağdamlı deyil, o, yekə-yekə danışmır. Deyibsə, sözünə də əməl edəcək. Danimarka Qrenlandiyanı ona satmaq istəməsə iki batalyon çıxaracaq adaya və Qrenlandiya olacaq ABŞ-ın, Danimarka da çığıra-çığıra qalacaq. Kanadanı da 51-ci ştat eləmək onun əlində su içim kimi bir şeydi. Qaldı Panama kanalı, burda Çinlə bir balaca mübahisələri düşə bilər, bu da hər iki ölkə üçün acınacaqlı nəticələr verər.***

***Necə ki Bakıda dövlət lazım olanda kiminsə mülkünü satın alır və halallığını da verir. Amma mülk sahibi dirənir, elə qiymət deyir ki, onda dövlət buldozerləri tökülb həmin mülkü sökür və heç halallıq da vermir və mülk sahibinə deyir ki, indi get oyna.***

***İndi Danimarka Qrenlandiyanı satmaq istəməsə, yuxarıda qeyd elədiyim kimi, ABŞ iki batalyon göndərəcək və Danimarkaya da halallıq verməyəcək.***

***Tramp bu bəyanatları ilə Putinin yolunu açır. Bu yaxınlarda görüşləri gözlənilir. Tramp bəyan edib ki, Rusiya-Ukrayna müharibəsini dayandıracaq. Yəqin ki, Putin Trampın qabağında şərt qoyacaq: sən Kanadanı, Qrenlandiyanı, Panama kanalını istəyirsənsə onda mən niyə Ukraynanı istəməyim? Putin: "Bölüşürüksə, dünya böyükdür və onu dədə malı kimi bölək".***

***Və bu bölgüdə çox güman ki, Tramp Ukraynanın üstündə Ermənistanı da Rusiyaya cehiz verəcək, Makron da qalacaq çığıra-çığıra.***

***İnşallah, biz də Zəngəzur dəhlizini ya açacağıq, ya açacağıq!***

***Deyirlər, iki qoçun başı bir qazanda qaynamaz. Əgər qazan dünya boydadırsa, elə qəşəng qaynayar ki. Və o qazanı qoçlar özü qaynadırsa!***

---

# Litva Prezidenti: "Kalininqrad Litvanın tarixi şəhəridir"

**Litva prezidenti Kalininqradı Litvanın tarixi şəhəri adlandırıb.**

Adalet.az xəbər verir ki, Litva Prezidenti Gitanas Nauseda X sosial şəbəkəsində Rusiyanın Kalininqrad vilayətindəki şair Kristionas Donalaitisin xatirə muzeyinin adının dəyişdirilməsi ilə bağlı qərarını şərh edib və regionda Litva mədəniyyətinin qalıqlarını qorumağa çağırıb. Dövlət başçısı Kalininqrad vilayətinin özünü Kiçik Litvanın bir hissəsi adlandırıb: "Hazırda Kalininqrad vilayətinin bir hissəsi olan Kiçik Litvanın köhnə sakinlərinin çoxdan yox olmasına baxmayaraq, Litva mədəniyyətinin son əlamətlərini qorumaq lazımdır. Rusiya nə qədər çalışsa da, Karalyauçyus heç vaxt Kalininqrad olmayacaq", - Nauseda yazıb.

Xatırladırıq ki, 1949-cu ilədək Kalininqrad Almaniyanın ərazisi olub. İkinci Düya müharibəsində məğlub olan nasist Almaniyası bu ərazini təzminat olaraq Rusiyaya verib.Məhz bu səbəbə görə, 2021-ci ildə almanlar Rusiyanın Kalininqrad vilayətini Almaniyanın ərazisi kimi təqdim edən plakatlar paylaşmışdı.

Yerli mətbuat bildirib ki, bu Merkelin liderlik etdiyi xristian demokratların seçkiöncəsi təbliğat kampaniyası zamanı yaydığı plakatın surətidir. Baş verən hadisə Almaniya prokurorluğu tərəfindən araşdırıldığı yazılsa da ortaya bir nəticə çıxmadı. Kalininqradın Almaniya ərazisi kimi göstərilməsi də Kreml tərəfindən kəskin etirazla qarşılandı.RF prezidentinin mətbuat katibi Dmitriy Peskov bunu mənfi qarşılasa da, rəsmi Berlinin yürütdüyü siyasət kimi qəbul etmdəyini elan etdi: "Rəsmi Berlin Rusiyanın ərazi bütövlüyünü şübhə altına almır".

Yadınızdadırsa, əvvəlki yazılarımızda sizə Kalininqrad haqqında bilgilər vermişdik. Həmin yazımızda xəbər vermişdik ki, Polşanın Quru Qoşunlarının sabiq komandanı general Valdemar Skşipçakın dediyinə görə, Rusiyanın Kalininqrad şəhəri əslində polyakların qədim yaşayış məntəqəsidir:"Bu şəhərin Rusiyadan alınmasının vaxtı çatıb. Fikrimcə, əzəli Polşa ərazisi olan Kalininqradla bağlı məsələnin həlli yollarının aranmasının vaxtı çatıb. Şəhər 1945-ci ildən bəri Rusiyanın işğalı altındadır. Halbuki həmin ərazilər tarixən Prussiya və Polşa torpaqları olub. Bu səbəbdən də Polşanın Kalinqradla iddia etməsinin qanuni əsasları var". Generalın dediyinə görə, Kalininqrad şəhəri Baltika dənizinə və Polşa ovalığına aparan qapıdır: "Bu yerlərdən Mərkəzi və Qərbi Avropaya yol keçdiyindən Rusiyanın hərbi və siyasi strategiyasında Kalininqradın xüsusi yeri var".

Əzəli pruss kəndi Tvanqste olmuş bu məkanda 1255-ci ildə Tevton Ordeninin cəngavərləri çex kralı 2-ci Prjemısl Otakarın şərəfinə Köniqsberq (almanca "Kral Dağı") qalası inşa etmişdilər. Qala sonradan böyüyərək şəhərə çevrilmişdi.Yeri gəlmişkən polyaklar bu şəhəri Korolevets adlandırırdılar.



Bu açıqlamadan bir müddət sonra 2023-cu ildə Litva xarici işlər naziri Qabrielius Landsberqis Kalininqradla bağlı açıqlama verdi. O bildirdi ki, Litva öz ərazisindən Kalininqrada tranzit keçidini aprel ayından, AB-nin müvafiq sanksiyasından sonra bağlayıb:" Putin bu məhdudiyyətə iyunda reaksiya göstərib, bu isə Kremlin hansısa oyunlarından xəbər verir:.Bəzilərinin fikrincə, bu, Ukraynada müharibənin "yaxşı getmədiyinə" görədir və diqqəti yayındırmaq məqsədi daşıyır. Halbuki dördüncü sanksiya paketi apreldə qəbul olunub. Bütün izahat orada idi. Və biz tranzitin həcminin azaldığını gördük. Ona görə də indi müşahidə etdiklərimiz oyundur"

Onu da qeyd etmişdik ki, Litvada martın 3-də Rusiya Səfirliyi binasının yerləşdiyi küçəyə "Ukrayna qəhrəmanları küçəsi" adı veriləcəyi barədə məlumat yayılmışdı. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Litvanın Rusiyanın Vilnüsdəki səfirinin ölkəni tərk etməsini istəməsi qərarına cavab verəcəklərini bildirdi. Zaxarova yazılı açıqlamasında Litvanın bu gün "Rusiya ilə diplomatik əlaqələrin səviyyəsini aşağı salmaq" qərarına gəldiyini bildirdi:"Litva administrasiyasının bu son dərəcə düşmənçəsinə hərəkətləri ikitərəfli münasibətləri məhv etmək məqsədi daşıyır. Litva tərəfi buna görə tam məsuliyyət daşıyır. Buna qarşı tədbirlər ən qısa zamanda elan ediləcək".

***P.S.*** ***Beləliklə, Litva Prezidenti Gitanas Nausedanın bu günkü paylaşımı Zaxarovanın ötən il yaydığı fikirləri təsdiqləyir.***

**Əntiqə Aslan**

---

# Azərbaycana nifrət edən, qəzada ölən erməni deputat: Meyidi Kərki kəndində tapıldı

**Ermənistan parlamentinin deputatı Mher Saakyan avtomobil qəzasında ölüb.**



Adalet.az xəbər verir ki, bu barədə Ermənistan Daxili İşlər Nazirliyinin sözçüsü Narek Sarkisyan öz Facebook səhifəsində yazıb. Məlumata görə, parlamentari bazar günündən axtarışda idi. Onun meyiti dünənTiqranaşen yəni bizim işğalda olan Kərki kəndinin yaxınlığında avtomobildə tapılıb. Avtomobilin yoldan çıxaraq kanala yuvarlandığı məlum olub.

Deməli, 2016-cı ildə Aprel və 2020 44 günlük müharibənin iştirakçısı olan bu Saakyan haqqında Ermənistan parlamenti başsağlığı mətnində yazıb ki, "Vətənpərvər, prinsipial, fədakar vətəndaş və həmkarımızı itirdik".

Halbuki, 2023-cü il aprelin 10-da Ermənistan Baş prokuroru Anna Vardapetyan qanunvericiliyin tələblərinə uyğun olaraq, parlamentin sədri Alen Simonyana deputat Mher Saakyana qarşı istintaqın başlanması ilə bağlı vəsatət yollayıb. Deputata qarşı qaldırılan cinayət işi üzrə əldə edilmiş faktiki məlumatlara görə, o, 2023-cü il martın 31-də saat 11:15 radələrində qapalı işçi müzakirəsi zamanı cinayət əməlinə yol verib. Belə ki, deputat Saakyan həmin iclasda parlamentin dövlət-hüquq məsələləri daimi komissiyasının sədri Vladimir Vardanyanı yumruqla vurub. Prokurorluq onun əməlində cinayət tərkibi olduğunu əsas gətirərək parlament qarşısında deputatın toxunulmazlıq hüququnun aradan qaldırılması barədə vəsatət qaldırılmışdı.

Qeyd edək ki, Ermənistan parlamentinin müxalifət "Hayastan" fraksiyası deputat olan Mher Saakyan Azərbaycana qarşı münasibətdə eyni partiyadaşları Vardan Oskanyan,İşxan Saqatelyan kimi nifrətli olub.

**Ə. Rəşid**



*Səxavət Məmməd*

# Türkiyənin terrora qarşı savaşı

## *Döyüşlər hansı istiqamətdə və necə baş verəcək?*

**Suriyada proseslər göründüyü kimi tamamilə yekunlaşmayıb. Türkiyə terror problemini kökündən həll etmək niyyətindədir. Reallıq onu deyir ki, Türkiyə PKK problemini indiki mərhələdə həll edə bilməsə, gələcəkdə o problemdən başı indikindən daha çox ağrıyacaq. Ona görə də Türkiyənin hazırkı siyasətini anlamaq çətin deyil.**

**Rəsmi Ankara açıq şəkildə bəyan edir ki, silahı yerə qoymasalar, həbi əməliyyata start verəcəklər. Məsələ ondadır ki, Türkiyə əməliyyatları heç dayandırmayıb da. Havadan yəni, aviasiya və PUA-lar vasitəsi ilə zərbələr endirməkdə davam edir.**

**Bundan əlavə, Türkiyə Suriya ərazisinə kifayət qədər qoşun yerləşdirə bilib. Yəni PKK və PYD silahı yerə qoymasa, Türkiyənin atacağı addım məlumdur.**

**Hətta həbsdəki Abdullah Öcalanın belə bu məsələdə müsbət mesajları Türkiyənin nə qədər ciddi olması ilə bağlıdır. Kürd qrupların təslim olacağı o qədər də inandırıcı deyil.**

**Birincisi, ABŞ və İsrail faktoru var. Hər iki ölkə bu günə qədər həm böyük maliyyə ayırıb, həm də silahlandırıb.**

**İkincisi isə kürd probleminin aradan qalxması Türkiyənin əl-qolunu açmış olacaq. Türkiyə regionda və qlobal aləmdəki proseslərə daha çox qoşula biləcək. Ona görə də Türkiyənin işi asan olmayacaq. Ancaq Türkiyə azad olmaq istəyirsə, bu problemi kökündən həll etmək məcburiyyətindədir.**

**Kürdüstanın yaranması layihəsi təkcə Türkiyəni yox, həm də Suriya, İraq və İranı da narahat edir. İran Suriyadakı proseslərdən sonra qınına çəkilmiş kimi görünsə də, maraqlıdır ki, PKK və PYD-yə silah yardımı etmək iddialar var.**

**İranı da anlamaq mümkündür. Çünki bu günə qədər proksilərinə milyardlarla dollar vəsait xərcləyib. Bir anda bundan asanlıqla imtina edə bilməz. İran həm də tamamilə qınına çəkilmiş olsa, düşmənləri sərhədində peyda olacaq.**

**İran maksimum çalışacaq ki, sərhədlərinə gələnə qədər bir çox məsələləri həll etsin. Trampın İranla bağlı səsləndirdiyi fikirlərə gəldikdə, ABŞ üçün İranın hədəfdə olduğunu görə bilərik. Yəni İran özünü qorumaq üçün ağla gələn və gəlməyən bütün variantlardan istifadə etməyə çalışacaq.**

**İran nədənsə elə düşünür ki, ona təhlükə Azərbaycan və Türkiyədən gələcək. Ona görə də hər iki ölkəni hədəf alır, ən azı informasiya sahəsində hücumlar həyata keçirir.**

**İranla Azərbaycan bəlkə də ən dəyişkən qonşuluq münasibətində olan ölkələrdir. İki ölkə arasında münasibətlər zaman-zaman kəskinləşir, yaxud hamar olur. İranın Azərbaycan siyasəti həmişə ona qarşı təhdid olanda dəyişir.**

**Misal üçün İsraillə, ABŞ ilə münasibətlər kəskinləşən kimi, İran Azərbaycanı hədəf alır. Azərbaycan İran üçün İsrail və ABŞ-ni şantaj etmək üçün bir vasitədir. Azərbaycan hər nə qədər Qərblə siyasi baxımdan məsafəli olsa da, iqtisadi baxımdan Azərbaycanın Qərblə münasibətlərində problem yoxdur. Azərbaycan siyasi baxımdan Rusiya ilə yaxın görünsə də, əslində, dövlət büdcəsini Qərbə satdığı enerji daşıyıcılarının hesabına doldurur. Yəni İranın Azərbaycanı Qərbə görə hədələmələri məntiqlidir.**

**Rəsmi Bakı İranla münasibətlərdə, siyasi gərginliklərdə, demək olar, müstəqillikdən bu günə qədər heç vaxt geri addım atmayıb. Ən zəif dönəmlərdə belə İranın təhdidləri qarşısında hansısa güzəştə gedilməyib. İndi də bunun olacağını düşünmürəm.**

**İranın Cənubi Qafqazla bağlı planlarını həyata keçirə bilməməsinin başlıca səbəbkarı Rusiya faktorudur. Ümumiyyətlə, İranın Cənubi Qafqazla bağlı Rusiya ilə razılaşdırmadan hər hansısa addım atdığını düşünmürəm. Hətta deyərdim ki, bu imkansızdır.**

**Məlum Azərbaycan təyyarəsinin Rusiya tərəfindən vurulmasından sonra Azərbaycanla Rusiya münasibətləri də diqqət mərkəzindədir. Qərb ölkələri hətta Rusiya ilə Azərbaycan münasibətlərinin kəskinləşə biləcəyini ön görür.**

**Məsələ ondadır ki, rəsmi Bakının Rusiya ilə siyasi gərginliyə gedəcəyini düşünmürəm. Təyyarənin vurulması məsələsində Azərbaycan tərəfinin mövqeyi kifayət qədər sərt və aydın idi. Ancaq prosesin bundan o yana gedəcəyi inandırıcı deyil. Çünki siyasi gərginlik nə Rusiyanın işinə yarayar, nə də Azərbaycanın. Bu Rusiyadan yararlanmaq varkən qarşına almaq fayda verməz.**

---

**Dünən Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) Gömrük Xidməti Rəhbərlərinin X İclası keçirilib.**

Tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov bildirib ki, Azərbaycanın strateji-coğrafi mövqeyi onu vacib tranzit və logistika mərkəzinə çevirir: ”Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tərkib hissəsi olduğu Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), eləcə də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi kimi layihələr Azərbaycanın tranzit potensialını artırır, TDT ölkələrinin iqtisadi inteqrasiyasının dərinləşməsində mühüm rol oynayır”.

Komitə sədri bildirib ki, ”Bir pəncərə” prinsipi Orta Dəhliz boyunca ticarət prosesinin daha səmərəli və şəffaf təşkil edilməsinə şərait yaradır: ”Mühüm layihələrdən biri ”Sadələşdirilmiş gömrük dəhlizi”dir. Bu təşəbüs regionda ticarətin genişlənməsi, iqtisadi əlaqələrin möhkəmlənməsi üçün strateji əhəmiyyət daşıyır. Dəhlizin genişlənməsi mal və nəqliy-



# Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərləri Bakıda toplandı

yat daşımalarının daha qısa müddətdə həyata keçirilməsinə şərait yaradır. Tətbiq etdiyimiz ”bir pəncərə” prinsipi isə mal və nəqliyyat vasitələrinin bir bəyannamə əsasında bir dəhliz boyunca hərəkət etməsinə, məlumatların elektron qaydada mübadiləsinə və əvvəlcədən təqdim edilən bəyannamənin tranzit səbəd kimi istifadəsinə şərait yaradır. Bu, regionda logistika potensialının artırılması kimi mühüm məqsədlərə xidmət edəcək”.

Şahin Bağırov bildirib ki, dünyada baş verən son hadisələr, qlobal reallıqlar fonunda Orta Dəhliz təkcə regionumuzda deyil, həm də qlobal ticarət və nəqliyyat sistemlərinin diqqət mərkəzinə çevirib. Onun sözlərinə görə, bu dəhlizin əhəmiyyəti ticari xərclərin diverfikasiyası və daha etibarlı nəqliyyat marşrutları təqdim etməsidir: ”Orta dəhlizlə daşımaların həcmi əhəmiyyətli dərəcədə artıb. Bu da dəhlizin funksionallığını və cəlbediciliyini artırdığının sübutudur. Orta Dəhliz TDT arasında mövcud və gələcək əməkdaşlıqda əsas və təkanverici rol oynayır”.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubaniçbek Omuraliyev isə bildirib ki, Qlobal çağırışlar fonunda sərhədlərarası ticarət artan nəqliyyat xərcləri, uzun məsafələr, geniş sənəd yoxlamaları, gömrük və tranzit prosedurlarında gecikmələr daxil olmaqla artan çətinliklərlə üzləşir: ”Bu çağırışların həlli regionumuzun iqtisadi dayanıqlılığı və inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Türk Dünyasına Baxış 2040 strateji sənədimizə uyğun olaraq, TDT üzv dövlətlər arasında və Orta Dəhliz boyunca gömrük və ticarət proseslərini asanlaşdırmağa sadiqdir. Ötən dövr ərzində TDT regionunda üzv dövlətlərin dəstəyi ilə ölkələrimiz arasında gömrük əməkdaşlığının gücləndirilməsi istiqamətində səylər göstərmişik. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı ilə əməkdaşlıq çərçivəsində Özbəkistan, Qazaxıstan və Qırğızıstan arasında mərhələli rəqəmsallaşdırılmasının başladılması ilə nəqliyyat və tranzit prosedurlarının rəqəmsallaşdırılması öhdəliyini yerinə yetirəcəyik”.

Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan gömrük xidmətləri rəhbərlərinin qatıldığı iclasda BMT-nin, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının, Gürcüstan və Macarıstan gömrük xidmətlərinin nümayəndələri də iştirak ediblər. Tədbirdə 9-cu iclasda qəbul edilən qərarlarının icrası, Sadələşdirilmiş Gömrük Dəhlizinin Yaradılması, ”Transxəzər Gömrük Tranzit Portalı”, Elektron möhür və müasir izləmə texnologiyaları, Səlahiyyətli İqtisadi Operator mövzularında müzakirələr aparılıb.

Tədbirin sonunda Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin X İclasının Protokolu, 11 noyabr 2022-ci il tarixində Səmərqənd şəhərində imzalanmış Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Saziş çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Gömrük Administrasiyaları arasında Məlumat Mübadiləsinin Texniki Şərtləri və Türk Dövlətləri Təşkilatı çərçivəsində BYD Konvensiyasına (1975, Cenevrə) uyğun olaraq e-BYD prosedurunun tətbiqi üzrə Fəaliyyət Planı sənədləri imzalanıb.

**Sənədləri Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubançibek Omuraliyev, Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədr müavini Kairat Cumaqulov, Qırğızıstan Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin sədri Samat İsabekov, Türkiyə ticarət nazirinin müavini və Gömrük Administrasiyasının rəhbəri Sezai Uçarmak, Özbəkistan İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsinin sədri Akmalxuca Mavlonov imzalayıblar.**

**Nicat Novruzoğlu**

---

*Rüstəm Hacıyev*



# ”Özgə işığına ümid olan şamsız qalar”... Donald

## *Donald Tramp: "Ukrayna ağ bayraq qaldırmalı və Rüsiyadan üzr istəməlidir"*

*ABŞ Mərkəzi Kəşfiyyart İdarəsinin (MKİ) eks-analitiki Larri Conson, "Daniel Davis" YouTube kanalının efirində bəyan edib ki, Ukrayna düşmənlərinin sayı getdikcə artmaqdadır.*

*"Ukrayna Avropa ilə münasibətləri genişləndirmək əvəzinə, onları dəstəkləyənlərin hisləri ilə oynamaqla, Kiyevə qarşı düşmənlərinin siyahısını artırır"- deyə Conson bildirir.*

*Ekspertin sözlərinə görə, hətta Ukraynanın ən qəti tərəfdarları da etiraf edirlər ki,  Kiyevin Krım və Donbası geri qaytarmaq şansları yoxdur.*

*Əslində, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın da, son çıxışlarından görmək olar ki, Ukrayna təkcə Aropanın deyil, okeanın o tayının da maraq dairəsindən kənarda qalmağa doğru gedir.*

*ABŞ-ın yeni prezidrnti, artıq seçkilər ərəfəsində "Prezident seçilən gün, 24 saata Ukrayna müharibəsini bitirəcəm" sözündən imtina edib. Trampın yeni adminidtrasiyası məsələnin həllinin ən azı altı ay çəkəcəyini bildirir. Necə və hansı yolla, hansı planlarla bu münaqişə öz həllini tapacaq? Bax sual budur.*

*Yeni prezidentin özü isə, "Mən həmin vaxt prezident olsaydım, bu müharibənin qarşısını alardlm" deməklə, Rusiya -Ukrayna müharibəsinin başlamasında, artıq bir həftədən sonra prezident kürsüsündən ayrılacaq Co Baydeni və onun konandasını  günahlandırmaqla, sanki işini bitmiş hesab edir.*

*"Moskvanın münasibətini başa düşmək olar. Hələ Vladimir Putin Rusiya prezidenti olmamışdan əvvəl də, Rusiya Ukraynanın  hərbi bloka qoşulmamasını təkid edirdi. Bu sanki daşa həkk olunmuş  tələb idi"- deyə bildirən  Tramp bir daha göstərir ki,  getməyə hazırlaşan hazırki  hakimiyyətin Ukrayna ilə bağlı siyasətini davam etdirmək niyyətində deyil.*

*Əvvəla, qərb analitikləridə qeyd edirlər ki, Respublikaçıların lideri prezidentliyi dövründə çətin ki, Ukraynanın NATO-ya qəbul olunmasına razılıq versin. Avropalı həmkarları ilə keçirdiyi şəxsi görüşlərdə də onun administrasiyasının  üzvləri, Trampın bununla bağll mövqeyini  açıq şəkildə həmkarlarının diqqətinə çatdırıblar.*

*Blomberg agentliyinin  məlumatına görə, Tramp Ukraynanın taleyinə biganə münasibət göstərir. "Belə görünür ki, O, Ukraynanın gələcək taleyi ilə bağlı çox da maraqlanmır  və ya, bu müharibənin ABŞ üçün nə qədər strateji vacib məsələ oldudunu  anlamır"-deyə agentlik yazır.*

*Və nəhayət, Donald Tramp elə dünənki çıxışında  məsələyə şəxsən özü aydınlıq gətirib: "Ukrayna ağ bayraq qaldırmalıdır , Zelenski  törətdiyi cinayətlərə görə cavab verməlidir və Rusiyadan üzr istəməlidir. Zelenski Baydenlə birlikdə amerikan xalqını qarət ediblər. O, buna görə cavab verməlidir. Mən onun dostu deyiləm".  Qısa və konkret.*

*Bəli nə az, nə də çox. Çox güman ki, ABŞ -ın yeni seçilmiş prezidenti bu bəyənatı ilə artıq əsl niyyətini ortaya qoyur, Ukrayna məsələsinin üstündən qara xətt çəkir. Yəqin ki, Avropa dövlətləri də, tezliklə müxtəlif bəhanələrlə Ukraynadan üz çevirəcəklər və Kiyevi bu müharibədə ağ bayraq qaldırıb təslim olmağa məhkum edəcəklər.*

*Kimsə düşünür ki, Tramp bilmir ki, baş verən bu faciənin günahkarı təkcə Zelenski və Bayden klanı deyil, yanılır. Tramp yaxşı bilir ki, 50-yə yaxın ölkə bu zəncirin həlqələridir.  Bəli ABŞ-ın yeni seçilən prezidenti onu da yaxşı anlayır  ki, qarşıda, kriminal dillə desək "böyük razborka" gözlənilir və onlarln hamısı "strelkaya", "sxodkaya" çağrılacaqlar. Tramp onu da bilir ki, Zelenski bu işləri təkbaşına görməyib, onun arxasında Böyük Britaniya kəşfiyyatı dayanır və hələ prezident seçilərkən o, Britaniya kəşfiyyatının peşəkar əməkdaşlarının "nəzarəti" altında mühavizə olunub.*

*ABŞ və Qərb artıq açıq şəkildə  etiraf edirlər ki, əslində maraqları naminə Ukraynanı bu tələyə salan da elə  onlar özləridi. Ukraya və ukrayna xalqının taleyi onları heç əvvəldən də qətiyyən maraqlandırmaylb. Daha əvvəllərdə dəfələrlə yazdığımız kimi, Ukrayna ABŞ-ın və Qərbin strateji maraqlarının həyata keçirilməsi üçün qurbanlıq seçilən bir vasitəydi.*

*Bəs bu "qumar ouununda"  kim udacaq?  ABŞ-ın maraqları, yoxsa Rusiya qazanacaq?  Xeyir,  məhşur  "Blef" italyan filmimində, məhşur müğənni-aktyor Andreanao Çelentanonun da dediyi kimi, ""Kazinoda"  fərqi yoxdur, fişkalarını istər qaraya  qoy,  istər qırmızıya, sonda yenə "Kazino" udur".  Bəli , qalib "Kazeno"nun  sahibi, ruletinin düyməsini əvvəldən barmağında saxlayan Böyük Britaniya  olacaq və "cek-potu"da o qazanacaq. Qalanları isə özlərinə yeni ,  "qanlı sərgüzəştlər" axtarmağa başlayacaqlar.*

*Görünən odur ki, artıq qapılar bağlanıb, qatar isə çox uzağa gedib. Nə vaxt, harada dayanacağı isə naməlum olaraq qalmaqdadlr.*

*Təəssüflər olsun ki, bu dəfə "qurban" Ukrayna oldu.  Allah özü Ukraynaya və ukraynalılara yardımçı olsun...*

*Doğrudan da ,  "Özgə işığına ümid olan, sonda şamsız qalar" atalar sözü boş yerə deyilməyibmiş...*

# "Ana Hayastan" partiyası: "Bu xartiya ölkənin "ukraynalaşdırılması"dır, ölümcül qərardır"

**Yanvarın 14-də Vaşinqtonda ABŞ Dövlət Departamentində ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq haqqında xartiya imzalanıb. ABŞ və Ermənistan münasibətlərini başqa səviyyəyə qaldırdı.**

İmzalanma mərasimi zamanı dövlət Entoni Blinken jurnalistlərə açıqlamasında bildirdi ki, bu, Birləşmiş Ştatlar və Ermənistan arasında münasibətlərdə mühüm mərhələdir: Biz iqtisadi, təhlükəsizlik və müdafiə, demokratiya, inklüzivlik və şəxsiyyətlərarası münasibətlər sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan strateji tərəfdaşlıq komissiyası yaradırıq".




Ermənistan XİN rəhbəri Ararat Mirzoyan isə vurğulayıb ki, Bu gün imzaladığımız Ermənistan-ABŞ strateji tərəfdaşlıq xartiyası möhkəm çərçivə yaradır və əməkdaşlığımıza daha böyük ambisiyalar qoyur.

Erməni nazir dövlət katibi Blinkenə və onun komandasına Ermənistan-Amerika münasibətlərinin səviyyəsinin yüksəldilməsinə töhfə verən səylərə və rateji tərəfdaşlıq sənədində irəli sürülən iddialı məqsədlərə görə minnətdarlığını bildirib .

ABŞ ilə Ermənistan arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyasının ən mühüm nüansı odur ki, ABŞ Ermənistanın təhlükəsizliyinin artırılmasını təmin edəcək. Yəni ABŞ Ermənistana göndərəcəyi gömrük və sərhəd mühafizəsi xüsusən Azərbaycanla sərhəddə yerləşdiriləcəyi dəqiqdir.

Artıq Azərbaycana qarşı ABŞ ordusunun döyüşəcəyini düşünərək bundan ruhlanan iranşünas Vardan Oskanyan öz sosial şəbəkə hesabında paylaşım da edib.

O paylaşımında bildirir ki, Ermənistanın suveren ərazisinin işğal olunmuş hissəsində(Qarabağ nəzərdə tutulur-red-Ə.R) Azərbaycanın mövcudluğu hələ də ağrılı şəkildə davam edir: Onları oradan qovmaq məsuliyyəti və şərəfi bizim olmalıdır, ABŞ Kanzas Qvardiyası, İHPK bölmələri, Rusiya ordusunun çeçen bölmələri və ya Texas kovboyları deyil".

Əslində ermənilər ABŞ Dövlət Departamentində ABŞ və Ermənistan arasında strateji tərəfdaşlıq haqqında xartiyanı birmənalı qarşılamayıblar. "Ana Ermənistan" partiyası Ermənistan Respublikasının hakimiyyət orqanları tərəfindən ölkəmizin xarici siyasətinin "ukraynalaşdırılmasını" pisləyir.

**1.** Nikol Paşinyanın Ermənistan xarici siyasətində kəskin dəyişiklik etməsi ölkəmizin varlığına təhlükədir. Erməni xalqı indi ontoloji problemlə üz-üzədir.

İctimai və parlament müzakirələri olmadan ölümcül qərarların qəbul edilməsi qınaq doğurur.

**2.** Ermənistan hökumətinin Aİ-yə qoşulma prosesinə başlamaq qərarı, eləcə də ABŞ-la strateji tərəfdaşlıq xartiyasının imzalanması ölkəmizi Qərb-Rusiya, Qərb-İran münaqişəsi səhnəsinə çevirib, bizi geosiyasi proseslərə cəlb edir ,bu müttəfiqlərimizlə münasibətləri təhdid edir və bundan sonrakı bütün faciəli nəticələrə gətirib çıxaracaq.

Aİ-yə inteqrasiyanın yalançı gündəliyi Ermənistanın "ukraynalaşmasına" aparan birbaşa yoldur.

**3.** Aİ-yə qoşulma prosesinin başlanması ölkəmizi dərin iqtisadi, sosial, enerji və humanitar böhranla təhdid edən Ermənistanın AİI-yə üzvlük məsələsini sual altına qoyur.

Ermənistan əvvəlki əsrin 90-cı illərinə atom elektrik stansiyası olmadan qayıda bilər. Qazın qiyməti indiki qiymətdən üç dəfə baha ola bilər. İqtisadi tənəzzül son dərəcə yüksək ikirəqəmli faizlərlə ölçüləcək, xüsusən Ermənistan və Rusiya arasında 10 milyard dollardan çox ticarət dövriyyəsinin hazırkı həcminin proqnozlaşdırılan şəkildə kəskin şəkildə azalacağını nəzərə alsaq.

Aİ və Ermənistan bir-birinə uyğun gəlməyən, bir-birini istisna edən strukturlardır və eyni zamanda hər iki stulda oturmaq mümkün deyil.

**4.** Ermənistan hakimiyyətinin qərbyönlü adlandırılan xarici siyasəti Paşinyan və onun komanda yoldaşları kimi "sülh yollarının kəsişməsi"nin formalaşmasına töhfə vermək əvəzinə, faktiki olaraq ölkəmizi Qərb-Rusiya münasibətlərində xırda bir yerə çevirəcək. Ermənistan vətəndaşlarını çaşdırmağa çalışır.

**5.** Biz Qərblə tərəfdaşlıq münasibətlərinin inkişafının tərəfdarıyıq, lakin Ermənistan-Rusiya münasibətlərinin hesabına deyil.

**6.** Biz Ermənistanın gələcəyi ilə bağlı narahat olan bütün ictimai və siyasi qüvvələri Nikol Paşinyanın apardığı destruktiv xarici siyasətə aydın qiymət verməyə və onun razılaşdırılmış şəkildə qarşısını almağa çağırırıq.

**Əntiqə Rəşid**

# *Ermənilərin qazanc yeri: "Yerablur"dakı məzarların üzərindən oğurlanan və satılan güllər*

**Ermənistanın İrəvan şəhərinin kənarındakı təpənin başında hərbi qəbiristanlıq yerləşir ki, ermənilər onun adına Yerablur deyirlər. 1988-ci ildən Yerablurda Qarabağ münaqişəsi zamanı həlak olmuş erməni əsgərlərini dəfn edirdilər, yaxud da quylayırdılar. Ermənilərin " müqəddəs" məkanına və ziyarətgahına çevrilmiş bu qəbiristanlıqdan ermənilərin iç üzünü ortaya qoyan bir hadisə baş verib.**

Adalet.az xəbər verir ki, 04 yanvar 2025-ci il tarixdə Ermənistan İstintaq Komitəsinin başlanmış cinayət işi üzrə ibtidai istintaq zamanı faktiki məlumatlar əldə edil ki, Yerablurdakı hərbçi qəbirlərinin üzərindən gül oğurlanıb.

Beləki, 2 yanvar 2025-ci il tarixində bir qrup şəxs "Yerablur" panteonunda dəfn edilmiş iki hərbçinin məzarlarından valideynləri tərəfindən qoyulmuş gülləri oğurlayıb.

Bundan sonra oğurlanan güllər İrəvanın Şimal prospektində bir ədədi 500-dən (1.24664 ABŞ dolları) 1000 AMD-yə qədər satılıb.

Oğrulardan cəmi ikisi tutulub və barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, iki dəfə İrəvanın müxtəlif səmtlərində, müxtəlif şəxslər tərəfindən Qarabağda ölmüş hərbçilərin foto və barelyefləri təhqir olunub.

**Ə. Rəşid**

**Elxan Şükürlü**



# Azərbaycanda məmur əxlaqı və "Siyasətnamə"!

**Bugünlərdə ölkə mətbuatı Naxçıvan Gömrük Komitəsinin sabiq sədri Səhhət Həbibbəylinin 2018-ci ildə vəzifəyə təyin olunduqdan sonra 4 il ərzində milyonlarla dollar dövlət vəsaitini hər ay necə çırpışdırıb, mərkəzləşmiş qaydada Talıbovlara verdiyi haqda istintaqa ifadəsini yayıb.**

**Xatırladaq ki, S.Həbibbəyli gömrük xidməti general-leytenanatı olmaqla yanaşı, həm də AMEA prezidenti, 20 il Naxçıvandan deputat olmuş və naxçıvanlıların da çox yaxşı tanıdığı İsa Həbibbəylinin oğlu, Nazirlər Kabineti Aparatının şöbə müdiri Ərəstü Həbibbəylinin qardaşıdır.**

**Bu ata-oğulun vaxtilə xidmətində, indi isə üzünə durduqları Vasif Talıbov isə, nə az-nə çox, düz 27 il Naxçıvanda hüdudsuz səlahiyyət və nəzarətsiz hakimiyyət sahibi olub. İndi özünüz bu talanın, yağmalanmanın və toplanan varidatın miqyasını rahatca hesablayın!**

**Əlbəttə, hüququn və əxlaqın üstün olduğu, qanunun və abırhəyanın gözlənildiyi dövlətlərdə və cəmiyyətlərdə bu faktların aşkarlanması siyasi təlatüm və inqilabi situasiya yaradar, kütləvi həbslər həyata keçirilər, ölkəni istefalar dalğası bürüyərdi...**

**Ancaq nə yazıq ki, istər "Rabitə işi, istərsə də "MTN işi"ndə olduğu kimi, elə bu "Naxçıvan işi"ndə də hüquqa tüpürüldüyü, qanunların ayaqlar altına atıldığı göz önündədir və əsas təqsirkarlar da dövləti şantaj edərək, zərrə qədər abır-həya gözləmədən, peyin dənləyən xoruzlartək, sinələrini önə verib, arsız-arsız hələ bir taladıqları, qanını sorduqları xalqa da rişxənd edirlər...**

**Təəssüf ki, nə dövlət üzərinə düşəni sonadək edir, nə cəmiyyət...**

**Dövlətin çəkingənliyi və cəmiyyətin laqeydliyi isə "məmur harınlığı" deyilən bir xəstəliyin - davranış nümunəsinin epidemiya, xərçəng şişi kimi yayılmasına təkan verərək, bütün idarətmə aparatını da, cəmiyyəti də içdən sarır, çürüdür, şikəst və yarımcan hala salır!**

**Artıq Azərbaycan cəmiyyətində bu düşüncə hakimdir ki, qanun yalnız acizlər, kimsəsizlər, yoxsullar üçündür və "böyük oğrular"a dövlətin ya gücü yetmir, ya da niyəsə onların həbslərini istəmirlər: aşkarlanmış yeyintilərdə bir-iki nəfər yetimçəni tapıb, hər şeyi onların belinə yükləyəcək, milyardlarl talayıb ölkədən xaricə qaçıranlarısa bir bəhanə ilə aradan çıxaracaq, qoruyacaqlar...**

**İndi 4 ildir Ermənistan üzərindəki tarixi qələbəmizdən nə qədər ağızdolusu danışıb, öyünsək də, bir gerçəyi hamımız bilməli, dərk etməliyik: əgər bu ölkənin içərisində tezliklə səliqə-sahman yarada, ədaləti idarətməni təmin edə və xalqın rifahını yaxşılaşdıra bilməyəcəyiksə, daha danışmağa dilimiz olmayacaq, o müqəddəs qələbəmizə də ləkə salacaq, cənnətə çevirmək istədiyimiz Qarabağ isə özü boyda qara bir daşa çevrilərək, başımıza düşəcək, bizi altında xıncım-xıncım əzəcək!**

**Biz Əmir Teymurdan daha qüdrətli fateh deyilik! O fatehlər fatehi Əmir Teymur belə, öz əyan-əşrəfinə tez-tez bu hikməti xatırladardı: "Məmləkətlər qılıncla fəth edilər, ancaq yalnız ədalətlə idarə olunar"!**

**Ədalətli idarəetmə isə, hər şeydən əvvəl, məmur əxlaqından, məmur davranışından, məmur nümunəsindən başlar!**

**Əgər məmur yüksək dövlət vəzifəsinə xalqa xidmət imkanı yox, varlanmaq mənbəyi və fürsəti kimi baxacaqsa, dövlətin verdiyi səlahiyyətləri sərvəttoplama və eyş-işrət vasitəsinə çevirəcəksə, məmur aparatı yüsək imtiyazlı quldur dəstəsindən başqa heç nə sayılmayacaq!**

**Heç olmasa, qoca tarixdən öyrənək, yaşanmışlardan ibrət alaq!**

**Qədim dönəmlərdə ağıllı padşahları xaricdəki düşmənlərindən daha çox, ona xidmət edən məmurların harınlığı, acgözlüyü narahat edərdi. Çünki o padşahlar hesab edərdi ki, onun təmsilçiləri varlanmaq üçün xalqı incidərsə, bu, xalqı narazı salmaqla düşmənin işinə yarayar, xalq hökmdarından üz çevirər, fitnəyə alət olar və ona qarşı qiyama təhrik edilər!**

**Elə bu səbəbdən də adil padşahlar xalqın haqlı şikayət etdiyi məmurunu, bütün xidmətlərinə baxmayaraq, elə xalqın gözləri önündəcə nümayişkaranə şəkildə dərhal ən ağır cəzaya məhkum edərdi!**

**Günümüzün mövzusuna ən ibrətamiz misallardan biri Səlcuq hökmdarlarının vəziri Nizamülmülkün "Siyasətnamə"sində yer alıb.**

**Olduqca diqqətçəkən haldır ki, vəzirlər vəziri Nizamülmülk o boyda kitabında "harın, görməmiş və zalım əmir" obrazında məhz hökmdarın Azərbaycan valisini və ona qarşı da mübarizədən usanmayan, qorxmayan bir azərbaycanlı ananı göstərib!**

**Yəni, daha konkret desək, Azərbaycanda məmur görməmişliyinin də, ona qarşı mübarizədə ana dirənişinin də çox uzun və qədim tarixi, həm də ibrətamiz aqibəti mövcuddur.**

**Hekayətin qısa və bizim də bəzi yekəbaş, yekəqarın və zırrama məmurlarımızı xatırladan məzmunu isə belədir:**

**"Qubad şah öldükdən sonra onun 18 yaşlı oğlu Ənuşirəvan taxta keçir. Ənuşirəvan daxilən nə qədər ədalətsevər və Allahdan qorxan olsa da, atasının vəzifələrə təyin etdiyi əyanlardan çox asılı idi. O, bir neçə dəfə məmurların rəiyyətlə xoş rəftar etməyə, camaatı incitməməyə, vergilərdən başqa haqq almamağa çağırsa da, əyanları onun çağırışlarını qulaqardına vururdular. Hətta bəzi əyanlar hesab edirdi ki, Ənuşirəvanı taxta elə onlar çıxarıblar, istədikləri vaxt taxtdan da sala bilərlər və bu səbəbdən padşah onların bütün cinayətlərinə göz yummağa məhkumdur...**

**Ənuşirəvan isə səbrlə dözür. Beləcə, 5 il keçir və Ənuşirəvan artıq idarəçilik təcrübəsi toplamaqla yanaşı, özünə sadiq əmirlərin də sarayda mövqeyini gücləndirir, əyanlarına növbəti və son çağırışını edir ki, xalqı incitməsinlər, şikayət olunan məmuru mütləq cəzalandıracaq.**

**Ancaq Ənuşirəvanın atasına xidmətdə ən məşhur, var-dövlətdə ən üstün sərkərdələrindən biri sayılan Azərbaycan valisi bu çağırışa məhəl qoymur, yenə də vilayəti öz bildiyi kimi idarə edir.**

**Vilayətin hər yerində özünə dəbdəbəli malikanələr tikdirən Azərbaycan valisi oturduğu şəhərin kənarında gözəl bir yerdə də saray inşasına qərar verir. Malikanə tikiləcək ərazi isə qoca və tək-tənha bir qarının torpağı olur. Onu nə qədər dilə tutsalar da, qarı deyir ki, bu yer onun ölmüş ərindən və övladlarından miras qalıb, satmır, elə buradaca da ömrünü başa vurmaq istəyir. Qarının inadını görən valinin adamları axırda zorla torpağı onun əlindən alırlar. Qarı da etməyib tənbəllik, validən şikayət etmək üçün Azərbaycandan düz Bağdadadək gəlib çıxır. Saraya buraxmasalar da, bir gün ovda qəfildən padşahın qarşısına çıxır və ona əmirlərindən şikayətçi olduğunu çatdırır.**

**Ədalətinə görə "Adil" adlandırılan Nuşirəvan sakitcə qarını dinləyir, onu qorumağı öz etibarlı əyanlarından birinə tapşırır, qarının şikayətinin əsaslı olub-olmadığını araşdırmaq üçünsə gizlicə Azərbaycana bir qulam göndərir.**

**Qulam 20 gün içərisində hər şeyi yerli-yataqlı öyrənib, gəlib, padşaha çatdırır. Azərbaycan əmirinin azğınlığı və harınlığı padşahı o qədər qəzəbləndirir ki, yuxusu ərşə çəkilir və elə səhərin gözü açılar-açılmaz həm Azərbaycan valisini, həm də bütün əyanları saraya çağırtdırır.**

**Azərbaycan valisini qapısının ağzındaca gözlətdirən Ənuşirəvan digər əyanlarla toplantıda, əvvəlcə, valinin var-dövlətini hesablatdırır. Bəlli olur ki, içlərində ən varlısıdır. Sonra da qarıya qarşı etdiyi zülmü xatırladır və ibrəti-aləm üçün fərmanını elan edir: "İndi istəyirəm, bunun dərisini soyub, içinə saman təpib saray qapısından asasınız, ətini itlərə yedirəsiniz və düz 7 gün də camaata car çəkəsiniz ki, bundan sonra bir məmur zülmlə birindən bir torba dən, bir cücə, bir dəstə göyərdi belə alsa, ondan şikayət edilsə, eyni aqibəti yaşayacaq!"**

**Ardınca da sarayın önünə səsi uzaqdan eşidiləcək bir zəng asdırır ki, məmurlardan şikayəti olan rəiyyət bundan sonra o zəngi çalmaqla, padşaha şikayətinin olduğunu birbaşa çatdıra bilsin.**

**Beləcə, Ənuşirəvan padşah bircə qətiyyətli addımıyla bütün əyanlarının canına qorxu salır və o gündən ölkədə məmur harınlığına və özbaşınılığına son qoyulur, xalq da adil padşah kimi, Ənuşirəvanı sevir, onun arxasında durur, hakimiyyətinin əbədi olması üçün dua edir"...**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Həkim, mənə dərman yaz!..

*....Elə bir adam yoxdur ki, xəstəxanaya gedib, həkimə özünü müayinə və müalicə etdirməsin! Və bizim də millət həkimə o vaxt gedir ki, ya ağır vəziyyətdə olur, ya da can verir. Bax hələ də biz öz sağlamlığımız üçün yetərincə düşünmürük. Bir yerimiz ağrıyanda günü-günə satırıq və gözləyirik ki, hansısa qohumumuz bizi xəstəxanaya aparacaq...*

*Sözü çox uzatdım və kimlərinsə, babalını yudum. Görünən odur ki, bəzilərimiz elə bilirik, həkim nə qədər çox dərman yazsa, bir o qədər tez sağalarıq. Amma bu, heç də belə deyil. Çoxlu dərman yazan həkim sadəcə olaraq görür ki, ondan əl çəkmir və axırda da xəstənin istədiyi dərmanları yazır. Bəzi həkimlər isə lazım oldu-olmadı, çoxlu sayda dava-dərman yazır. Nə isə...*

*Bir dəfə Füzulidə tanınmış həkim Soltan Əliyevin yanında idim. Gördüm ki, xəstə ondan əl çəkmir, elə hey deyir ki, Soltan həkim, mənə çoxlu dərman yaz! Axı, Soltan həkim də savadlı, vətənpərvər insandı. O, xəstəyə dedi ki, ana, sənin heç bir dərmana ehtiyacın yoxdur. Bir az meyvədən, göy-göyərtidən yeyərsən, zəifliyin aradan qalxar. Həkimin bu sözləri xəstəni razı salmadı. Soltan həkim gördü ki, pasiyent ondan narazı gedir, narahat oldu. Dedi ki, xanım, yaxşı, dərman yazıram, amma Allaha and olsun, sənin bu dərmanlara ehtiyacın yoxdur. Əlacı kəsilən həkim o xəstəyə vitaminlər toplusu yazdı. Resepti əlinə alan qadının üzü güldü və həkimin otağından razı çıxdı...*

*Mən dəfələrlə tibb elmləri namizədi, kardioloq Rafiq Yusiflinin də bir dost kimi yanında olmuşam. Rafiq həkimin qəbuluna gələn pasiyentlər də çoxlu dərman yazmasını xahiş edirlər. Amma Rafiq həkim öncə həmin xəstələrə hər mətləbi incəliyinə qədər izah edir və pasiyentlər də onun səmimi söhbətindən nəticə çıxarırlar. Yəni, həkim xəstəni inandıranda istər-istəməz onunla razılaşmalı olur. Rafiq həkim pasiyentə iki-üç dərman yazar. Və bir də Rafiq həkimin xəstələri ona çox inanır. Ən azından ona görə ki, bu həkim öz xəstələrinin ürəyini fəth edib.*

*Bax, bu səmimiyyəti görənlər xəstələr Rafiq həkimə demirlər ki, həkim, mənə çoxlu dərman yaz! Və bir də hər bir insan özünün həkimi olmalı, sağlamlığının qədrini bilməlidir!!!*

## Bakının tələb etdiyi “konstitusiya dəyişikliyi”

**Xatırladırıq ki, Azərbaycan prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistanla sülh sazişinin əsas şərti ölkəsinə qarşı ərazi iddialarını özündə əks etdirən Ermənistan konstitusiyasının dəyişdirilməsidir: ”Ermənistanla Azərbaycan arasında sülh sazişi olmazsa, heç bir ölkə regiondakı fəallıq səviyyəsini müəyyə edə bilməz.**

İşğal dövründə bəzi dövlətlər Ermənistanın istilası ilə bağlı səssiz qaldı və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmədi. İndi biz işğalçı Ermənistan ordusunu döyüş meydanında məğlub edib torpaqlarımızdan qovduqdan sonra bu dövlətlərdən bizim ərazi bütövlüyümüzü dəstəklədikləri barədə bəyanatlar eşidirik. Artıq kiminsə ərazi bütövlüyümüzü tanıyıb-tanımamasının bizim üçün əhəmiyyəti yoxdur. Bu bəyanatlar torpaqlarımız işğal altında olanda vacib idi. Hal-hazırda Ermənistanla sülh prosesi vaxt aparacaq. Sülh sazişinin əsas şərti Ermənistan konstitusiyasına dəyişiklik edilməsidir. Çünki orada Azərbaycana qarşı ərazi iddiaları var və sülh sazişi konstitusiya dəyişikliyi olmadan imzalana bilməz. Əsas prinsiplər üzərində isə indidən razılaşmaq və saziş mətni üzərində işləmək mümkündür”. Hətta Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman da açıqlamarında Azərbaycan Prezidentinin Ermənistanın öz konstitusiyasına dəyişikliklər etməli olması ilə bağlı mövqeyini düzgün və ədalətli hesab etmişdir. Ümumiyyətlə bu dəyişikliyin olması region ölkələrində də müsbət qarşılanır. Təssüf ki, Ermənistanın baş naziri Nikol Paşinyanın ilin əvvəlində elan etdiyi Konstitusiya islahatı ölkədə şiddətli müqavimətlə üzləşir. Hətta erməni mediası yazdı ki, Ermənistanın xüsusi təyinatlı səfiri Edmon Marukyanın bu yaxınlarda istefaya getməsinə, özünün dediyi kimi, ölkənin Müstəqillik Bəyannaməsi ilə bağlı olan Konstitusiyaya təklif edilən dəyişikliklərlə razılaşmaması səbəb olub. Ümumiyyətlə Ermənistanda bu mövzuda gərginlik hələ də var. Hətta dəyişiklik haqqında danışan dövlət rəsmisini düşmən adlandırmaq erməni toplumu üçün adi bir işdir.

Adalet.az xəbər verir ki, Ermənistanın ədliyyə naziri Sirbuhi Qalyan bu gün mətbuat konfransında dediyi sözlərə görə, ”Hraparak” nəşri az qala onu ”düşmən” çıxarıb.

Nəşr yazıb: ”Azərbaycan Prezidenti İlham Əliyev də Qarabağa qarşı iddiaları nəhayət rədd etmək məqsədi ilə Ermənistan Konstitusiyasına dəyişiklik edilməsi ilə bağlı tələblər və təhdidlər səsləndirdi. Ekspertlər və müxalif siyasətçilər hesab edirlər ki, Ermənistan hakimiyyəti Ermənistan Konstitusiyasına dəyişiklik etməklə Əliyevin növbəti tələbini yerinə yetirir”.

Qeyd edək ki, hüquq elmləri namizədi, dosent Anahit Manasyanın ”Konstitusiyanın mətni ayrı-ayrı siyasi qüvvələrin maraqları və üstünlükləri əsasında dəyişdirilə bilməz” çağrısından sonra Ermənistanda gərginlik daha da artıb.

**Əntiqə Rəşid**

## Bir ayda iki dəfə qazpulu gəlir...



**Bütün xidmət sahələri hər ay bir dəfə abonentlərə ödənişlə bağlı qəbz göndərir.**

Yeganə xidmət sahəsi ” Azəriqaz” dır ki, ayda iki dəfə abonentlərə borcla bağlı qəbz göndərir. Bir neçə dəfə də bizim əraziyə xidmət edən nəzarətçi Qardaşov bir ayda iki dəfə borcla bağlı qəbz verib. Onsuz da biz hər ay vaxtında tez olaraq bu borcu ödəmişik. Və bir mövcud qanunla borc bir ay müddətində ödənilməlidir. Biz isə bir aydan tez ödəyirik. İradımızı nəzarətçi Qardaşova bildirəndə o dedi ki, bunu mənə rəisimiz deyir və mən də rəisin tapşırığın yerinə yetirirəm.

Ona qayıdıb bildirdik ki, qanun rəisin göztərişindən üstündür və ona deyin ki,ayda iki dəfə qəbzin verilməsinə görə, abonentlər narazılıq edir. Bizim narazılığımızdan sonra tay nəzarətçi Qardaşov ayda bir dəfə borcla bağlı qəbz verir.Axır ki, deyəsən, rəis bizi başa düşdü. Min şükür! ” Azəriqaz”ın əhali ilə digər problemi smart-kart cihazlarının mexaniki sayğaclarla əvəzlənməsidir. Məsələn, smart - kart sayğaclar olanda ayda beş manat ödəyirdik.

Bir ildir ki, mexaniki sayğaclara keçilib, hər ay 8 manat ödəyirik. Niyə? Əhalini bu qədər də aldatmaq olarmı? Hər adamdan ayda uç manat artıq pul alınsa, bu, milyonlarla pul eləyir. Və bu əməliyyatın özü ən böyük iqtisadi cinayətdir. Bunun qarşısınsa , hələlik , alan yoxdu!

## Bəhmənlinin şagirdləri...



**Mən istedadlı şagird, istedadlı tələbə görəndə çox sevinirəm.**

Düşünürəm ki, bu uşaqlar vətənin ən qiymətli sərvətidir! Bundan gözəl nə ola bilər?! Füzuli rayonunun Ehtiram Piriyev adına Böyük Bəhmənli tam orta məktəbində də belə istedadlı şagirdlər çoxdur. Belə ki, məktəbin onlarla məzunu ən yüksək nəticə qazanaraq müxtəlif ali məktəblərə qəbul olub. İndi isə məktəbin şagirdləri Fənn Olimpiadasında böyük uğurlara imza ataraq yarımfinala yüksəliblər.

Heç şübhəsiz, onların arasında finala çıxan və birinci yerə çıxanlar da olacaq. Əsas odur ki, Fənn Olimpiadasında iştirak edən şagirdlər elmin yollarında inamla addımlayırlar. Əlbəttə, təhsildəki uğurların əldə edilməsində şagirdlərlə yanaşı, müəllimlərin əziyyəti böyükdür! Məktəbin direktoru Solmaz Qənimətli gənc olmasına baxmayaraq, çox istedadlı, savadlı və yaradıcı bir ziyalıdır.

O, az bir zaman kəsiyində kollektivdə sağlam mühit yaradıb və yüksək nizam-intizam bərpa edib. Elə məktəbin də təhsildə uğurla bu dəyərlərlə bağlıdır! Daim yeniliyə can atan, ən müasir texnologiya və metodu məktəbə gətirən məktəbin uğurları bundan sonra da bol olacaq!!!

## Təzə çörəyə köhnə çörək qatırlar...



**Uzun müddətdir ki, biz Sumqayıt şəhəri , Sülh küçəsi, 76-çı məhəllə, 10 D ünvanda yerləşən Çörək Zavodunun istehsal etdiyi 700 qramlıq və 1 manat 5 qəpiyə satılan kömbə çovdarlı çörəkdən istifadə edirik.**

İnsaf naminə deyək ki, digər qara çörəklərlə müqayisədə bu çörəklər daha keyfiyyətlidir. Amma təəssüflər olsun ki, həmişə belə olmur. Belə ki, yanvarın 10- da Yeni Günəşlidə ” Ballı market” dən aldığımız çörək keyfiyyətli çıxmadı. Çörəyə istehsal zamanı köhnə çörək qatılıb.

Qatqının şəklini də çəkdik ki, qoy, əlimizdə faktımız olsun! Təbii ki, bu cür qanun pozuntusu istehsalçının nüfuzuna xələl gətirməklə, istehlakçıları da narazı salır. Burdan belə bir məntiqi nəticə çıxır ki, bu müəssisədə tapşırılan işə laqeyd yanaşan, məsuliyyətsiz işçilər var.

Bəs onda zavodun rəhbərliyi,texnoloqlar və ayrı- ayrı mütəxəssislər hara baxırlar?! Qoy, bu suala da onlar özləri cavab versinlər ki, təzə çörəyə köhnə çörəyi nə görə qatıblar! Hansı ki, mövcud qanunla köhnə çörək mağazalardan qaytarılandan sonra istehsaldan da çıxarılmalıdır!

## Daşı-daş üstə qoyanda...

**Bu gün Bakıda həyət evi tikmək, daşı - daş üstə qoymaq çox çətin işdir.**

Əvvəl- əvvəl bir iş görən kimi, yəni ev inşa edəndə o dəqiqə aid oldu, olmadı müxtəlif qurumların nümayəndələri tökülüşüb gəlir ki, bəs ev tikirsən, bizim ”şirinliyimizi” ver? Və sən də onların dedikləri o” şirinliyi” verirsən. Bundan sonra hamısı çıxıb gedir və oturur yerində. Elə ki, ev tikilib başa çatdı və yenidən gəlib deyirlər ki, bu evi qanunsuz tikmisən, əgər lazımi sənəd yoxdursa, evi uçuracağıq.



O” lazımı sənədi” almaq üçün İcra Hakimiyyətinə bir ətək pul verməlisən. Pulu verdin ”lazımı sənədi” düzəldib sənə verirlər. Amma pul onlara çatmasa, evdə köçüb yaşasan da, onu başına uçuracaqlar! Tay baxmayacaqlar ki, sənin bu vətən yolunda nə xidmətin, əziyyətin var! Bir gün də gəlib görəcəksən ki, yaşadığın evi bulduzerin qabağına verib ucurublar.

Qarğış eləməkdən və dizini yerə qoyub hönkür- hönkür ağlamaqdan başqa əlindən bir iş gəlməyəcək. Yazdığımız bu hadisə nağıl deyil, günümüzün reallığıdır!

## Yeraltı keçidi qoyub...



**Gəlin bir fikirlə razılaşaq ki, bu gün əksər piyadalar yeraltı və yerüstü keçidi qoyub, nəqliyyat vasitələrinin sürətlə hərəkət etdiyi yoldan keçirlər.**

Bu isə hər an ölüm deməkdir! Çünki hərəkətin intensiv olduğu yerdə yolun hərəkət hissəsinə çıxan piyadanı hər an avtomobil vura bilər. Təsadüfi deyil ki, ötən il onlarla piyadanı təyin olunmamış yerdən keçdiyinə görə, avtomobil vurub, onların arasında ölənlər və xəsarət alanlar olub. Ümumiyyətlə, bir çox hərəkət iştirakçıları ya bilərəkdən, ya da bilməyərəkdən yol hərəkəti qaydalarını pozur, nəticədə ağır faciələr baş verir! Ona görə də birmənalı olaraq bütün hərəkət iştirakçıları qaydalara əməl etməli, hər an, hər dəqiqə olmalıdır. Bu, hər bir insanın təhlükəsizliyinə xidmət etmiş olur!!!

## Sahibkarlara gün verib, işıq vermirlər



**Ölkəmizdə sahibkarlığın inkişafına həmişə dövlət səviyyəsində böyük qayğı göstərilir.**

Ölkə Prezidenti cənab İlham Əliyev respublikamızda sahibkarlığın tərəqqisi üçün hər cür şəraitin yaradılmasını təmin edir. Amma di gəl ki, bəzi qurumlar kiçik sahbkarlığın inkişafına maneçilik törədir, el dilində demiş olsaq, onlara badalaq atırlar. Xüsusilə də kənd rayonlarında belə sahibkarları gözüm çıxdıya salır, onlara gün verib , işıq vermirlər. Məsələn, heyvandarlıqla məşğul olan kiçik sahibkarlar deyirlər ki, artıq onların bir çox bu işdən əl çəkib. Çünki onlar mal-qaranı otarmaq üçün örüş sahəsi tapa bilmirlər. Amma böyük sahibkarlar var ki, onların min hektarlarla torpaq sahəsi var. Belə sahibkarlar həmin yerdə həm taxıl əkir, həm də heyvan saxlayır. Üstəlik də yerli icra orqanları kiçik sahibkarlara lazımi şərait yaratmırlar. Belə də olanda istər- istəməz onların hüquqları pozulur və narazılıq yaranır. Bunula yanaşı, onları aidiyyatı olmayan işlərin görülməsi tapşırıqları verilir. Əgər ölkəmizdə məhsul istehsalı sahəsində bolluq yaratmaq istəyiriksə, onda kiçik sahibkarlığın inkişafına şərait yaratmalı, bu işə maneçilik törədən amilləri aradan qaldırmalıyıq. Heç şübhəsiz, bu addımların atılması həmin insanların ürəyincə olardı!

## “Azercell” 60 konturumu oğurladı...




**Bir çox abonentlər bu gün ” Azercell” ölkəmizdəki fəaliyyətindən narazıdırlar.**

Onlar deyirlər ki, əvvəllər kiminləsə, bir neçə saniyə ərzində danışanda 9 konturumuz gedirdi, indi isə bu danışığa görə , bizdən 10 kontur çıxırlar. Elə biz də ” Azercell” dən narazıyıq. Soruşa bilərsiniz ki, niyə? Ona görə, narazıyıq ki, yanvarın 11-də heç kiminlə danışmadığımız halda bizdən 60 kontur oğurlandı. Axırda da məlumat gəldi ki, əməliyyat uğurla alındı. Yəqin özlərinin oğurluq” əməliyyatın” deyirlər. Əgər ” Azercell” hər abonentdən gündə yox , həftədə bir dəfə 60 kontur oğurlasa, onda görün, bu, nə qədər pul eləyir.Və bu, milyonlarla pul deməkdir. Xalqın cibinə girib milyonlar oğurlayan ” Azercell” cinayətinin qarşısın kim almalıdır və bu əmələ aidiyyatı dövlət qurumları niyə göz yumurlar???

**EMİL FAİQOĞLU**



# "Şələ qoy": "Gürcülərin bizdən oğurladıqları ermənilərin oğurladıqlarından az deyil"

*Oğurluq ermənilər genetikasın da mühüm bir xüsusiyyət olduğunu bilməyən yoxdur. Ən peşəkar oğrular isə ermənilərin "istedad" deyib, fəxr etdikləri məşhur ermənilərdir. Məsələn, əsl adı Soqomon Soqomonyan olan, keşiş Komitas adı ilə məşhurlaşaniri var. Ermənilər onu ilk bəstəkarı olaraq hər il təmtəraqla doğum və anım gününü qeyd edilər. Bu peşəkar yalançı 1890-cı illərdə kənd yerlərini qarış-qarış gəzərək 3000-ə qədər erməni, Azərbaycan, Anadolu, Türk, Kürd və Fars xalq mahnısını toplayaraq nota köçürür, kolleksiya yaradır. Bu səbəbdən də ermənilər bir çox mahnı və musiqilərimizi öz dədəsinin malı kimi mənimsəyib.*

*Daha sonra isə "peşəkar erməni milli musiqinin əsasını" qoyanlardan biri bəstəkar -plagiat-oğru Aram Xaçaturyan Azərbaycanın "Vağzalı", "Uzundərə", "Mirzəyi" və "Muşlu oğlan" kimi xalq mahnı və rəqslərini ermənilərinki kimi qələmə verdi.*

*Onun "Qayane" baletində erməniləşdirilmiş "Şalaxo" Azərbaycan rəqsindən də geniş istifadə olunub. Ötən gün sosial şəbəkələrdə böyük oğruların oğurladığı əsəri kiçik oğrular- sosial şəbəkə üzvü olan ermənilər yenə də öz rəqsləri kimi müdafiə edir, hətta Azərbaycanlı istifadəçiləri onların "qədim erməni irsini oğurlamaqda" suçlayırdılar. Ermənilərin həyasızlığının bu həddi təəccüblü olmasa da , hər halda əsəbləşdirici haldır.*

*Odur ki, bu "Şoloxo" rəqsinin tarixi ilə bağlı bilgilənmək üçün üz tutdum siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevə...*

**- Zaur müəllim, Şoloxo"nu Qafqazın 3 xalqı öz arasında bölüşə bilmir. Bu rəqsin kökü hara aparıb çıxarır.**

- Azərbaycan Qafqazın qədim bir coğrafiyası olmaqla yanaşı Şərqin aparıcı mədəniyyət mərkəzlərindən biri olub. Ölkəmizin ərazisində karvanasaray tipli qonaqlama yerlərinin çoxğluğu göstərir ki, tarixin bütün dövrlərinə baxsaq burada çoxsaylı səyyahların və ticarət məqsədli səfər edən insanların sayı çox olub.

Coğrafiyamıza sonradan köçən xalqlar yerli xalqların adətlərini, mahnılarını, folklorunu, mətbəxini və maddi və qeyri maddi irsə məxsuluqlarını özününküləşdiriblər. Ermənilər bəlidir, qaraçılar olaraq oğurluq onların genindən gəlir, bəs gürcülər niyə belə edir? Sualın sadə cavabı var, şanlı tarixi və coğrafiya ilə aborigen bağlılığı olmayan gürcülər Qafqaza köçüb gələndən sonra özlərinə bir mədəniyyət və tarix yaratmalı idilər, bu isə əlbətdə, Azərbaycan coğrafiyasında olan hazır məhsulu götürüb özününkü etmək daha rahat oldu.

**- Deməli , hələ erməni oğruları gəlməmiş, artıq gürcü oğruları vardı...?!**

- Təəssüf ki, fakt budur...Yüzlərlə bizə məxsus maddi və qeyri maddi irsimiz hazırda əksər torpaqlarımız kimi gürcülər tərəfindən işğal edilib. Məsələn, "Gürcüstanın tarixi ərazisi" kimi göstərilən Lori əslində azərbaycanlılara məxsusdur. Adı Dağ Borçalı olub və qədim Borçalı vilayətinin yüksək dağlıq zonasıdır. Borçalının əsasən Ermənistan SSR-in tərkibində qalan hissəsi bu gün Loru (Lori) adlanır. Rusiya tərəfindən işğal edildikdən sonra 12 sentyabr 1801-ci ildə Gürcüstan quberniyası daxilində Borçalı distansiyası yaradılır. 1880-ci ildə Tiflis quberniyası daxilində Borçalı qəzası təşkil edilir və onun ən böyük nahiyəsi də Loru olur. Loru Borçalının dağlıq hissəsini təşkil etdiyindən ona "Dağ Borçalısı" da deyirlər.

Bu ərazidə bir vaxtlar Loru şəhərinin mövcudluğu və həmin şəhərin 1236-cı ildə monqollar tərəfindən dağıdıldığı, XIV-XV əsrlərdə yenidən bərpa olunduğu, XV-XVIII əsrlərdə Osmanlı və Səfəvi hücumlarına məruz qaldığı yazılır.Paradoksa baxın, bizim torpaqlarımız üzərində "mənimdir" davası edənlərin heç biri yerli əhali deyil. Hər iki gəlmə toplum anlayır ki, heç birinin Qafqazda "qədim izləri" yoxdur. Anlayırlar və qədim izi olanlara psixoloji olaraq nifrətlə yanaşırlar.

1139-cu ilin sentyabrında güclü zəlzələ şəhəri dağıdıb və bundan istifadə edən Gürcü çarı Demetre hücum edib şəhəri talayıb, qənimətlər arasında Gəncə qapısını da aparıb. Bu gün Gürcüstan məktəblilərinin bəzilərini Gürcüstanın Kutaisi rayonundakı Helat monastırına aparanda onların "tarix müəllimləri" əsrlərdi orda saxlanılan Gəncə qapılarını şagirdlərə göstərib deyirlər: "Baxın, bu qapılar böyük gürcü xalqı tərəfindən tatarların Gəncə şəhərini almasından sonra zəfər rəmzi kimi gətirdiyi tarixi abidədir".

Sərhəddimizdə yerləşən, Qafqaz Albaniyası dövrünə aid olan "Keşikçidağ" monastrımızı Gürcüstan "David Qareci" etmək istəməsi indiyə qədər mənimsədiklərinin






məntiqi davamı deyilmi?

**- Hər iki toplumun bizdən oğurladıqları bəs deyil, hələ bizi də az qala Qafqazdan çıxaralar...Əlacları olsa, bizi bir qaşıq suda boğarlar...**

-Bəlkə də xatırlayarsınız, 2018-ci ildə Gürcüstanda yerli mətbuatda orada satılan fincanın üzərindəki xəritədə gürcüstanlı həmyerlilərimizin təhqir olunması haqda xəbərlər yayılmışdı. Sözügedən xəritədə eşşək təsviri olan hissənin azərbaycanlılar yaşayan ərazi olduğunu bildirmişdim. Həmyerlilərimizin yaşadığı əraziyə eşşək şəkli çəkilib və başının üstündə yekəqarın gürcü kişisi yumruğunu sıxıb, eşşək isə müti halda başını aşağı salıb. Bu əlbəttə ki, "gələnlər"in yerlilərə qarşı qısqanclığı, nifrətidir.

**- Oğurluq, mənimsəmə torpaqdan sonra onun üzərində olan maddi-mənəvi irsə də yönəlir. Gürcülər Qafqaza yerləşdikdən sonra təbii ki, Qafqazın ən qədim xalqı olan türklərin maddi-mənəvi bazasından qidalanaraq özlərinə "qədim tarix yarada bildilər. Şalaxo"nun oğurlanmasının da tarixi keçmişi uzaqlara gedib çıxır deyə, gürcülər artıq bu rəqsi tam mənimsəyiblər.**

- Mənimsənilən mədəni irsimizdən biri də, qədim tərəkəmə-oğuz rəqsi olan ŞƏLƏ-QOYdur.Azərbaycanda qədimdə əhalinin əsas işi maldarlıq və heyvandarlıqla yanaşı şax, odun, taxıl, yonca və digərləri daşımaq idi. Buna biz el arasında "Şələ bağlamaq" deyirik. Şələni çiyinlərinə alanlar onun tez daşınması üçün yallı rəqsində olduğu kimi sıra-sıra dururdular və onu bir birinə ötürüdülər. Bu zaman isə ritmik musiq sədaları ifa olunurdu ki, ney, nağara və sazda işçilər motivasiya olsunlar. Buna qədim yazılarda "Şələ qoy" rəqsi deyirlər.

Azərbaycanda Atabəylər dövründən başlayaraq xalq arasında toylarda və el şənliklərində ifa olunan bu rəqs zamanla bütün Qafqaza yayılmışdır.

**- Amma gürcülər rəqsə tam sahibdirlər...**

-Gürcü dilində və tarixində ŞƏLƏ sözü ilə bağlı bir ifadə belə yoxdur. Yox olduğu üçün də onlar bu sözü özününkləşdirib Şalaxo ediblər. Məhz 1970-ci illərdə AZTV-nin o illərdə xoreqarafı Kamal Həsənov gürcülərlə dava edib ki, rəqsin adını niyə dəyişmsiniz. Bunun adı "Şələ qoy"dur. Gürcülər bu günə qədər də Şalaxo sözünün mənası ilə bağlı bir elmi fakt və sübut ortaya qoya bilməyiblər.

**- Bəs ermənilər oğurluqlarına nə "don" geyindirdilər?**

-Ermənilər isə lap irəli gedərək saxta bir məlumat yayırlar ki, guya bu mahnı erməni Nikoqayus Tiqranyan 1895-ci ildə bəstələyib. Halbuki ilkin orta əsr və orta əsr qaynaqlarında bu mahnının Azərbaycanda ifa edildiyi barədə kifayət qədər qeydlər var.

Bu ermənilər o qədər hətta irəli gedib Azərbaycan rəqsi, "Basqalını" erməni Şalaxosu (Somxuri Şalaxo) kimi qələmə verirlər.

Məşhur musiqişünas A.Koroşşenko özünün "Şərq, daha çox Qafqaz musiqisi üzərində müşahidələr" əsərində yazırdı: "...ermənilərin özlərinin xalq musiqisi yoxdur"

Lakin həm gürcü, həm də ermənilər yaxşı bilirlər ki, bu xalq rəqsini Səid Rüstəmov 1937-ci ildə nota köçürüb və bütün SSRİ-bu rəqsin Azərbaycana aid olduğunu təsdiq edib.

Bu gün Gürcülər və Ermənilər bu mahnının onlara məxsus olduğunu iddia edirlər. Lakin ən azından ritmə və musiqinin ifa tərzinə baxanda burda nə gürcü və nə də erməni elemenləri görmək olar.

**-Yeri gəlmişkən, ermənilər hətta tanınmış bəstəkar Fikrət Əmirovun əsərini də öz adlarına çıxıblar.**

- Hə yaxşı xatırlatdınız... 2017-ci il idi... Masazır qəsəbəsi 3 saylı tam orta məktəbdə Bilik Günü Fikrət Əmirovun "Qarabağ inciləri" ifası səsləndirilində sosial şəbəkələrdə müzakirələr başladı ki, guya bu mahnı erməni bəstəkarı Ara Gevorqyanın "Artsax" kompozisiyasıdır. bu mahnının müəllifinin F.Əmirov olması Müəllif Hüquqları Agentliyində 1954-cü ildə qeydiyyata alınıb. Bu barədə rəsmi sənəd də var. Fikrət Əmirovun oğlu Cəmil Əmirov da deyir ki, bu, atama aid deyil.

Bəziləri iddia edir ki, bu musiqi Azərbaycan musiqisinə intonasiya cəhətdən bənzəyir və əlavə edir ki, xalqlar yüz illərdir qonşudurlar, musiqinin bir-birinə oxşaması təbiidir. Belələrinə deməki istəyirəm ki, imkan olsa, erməni bəstəkarlarının əsərlərinə baxsınlar. Azərbaycanda musiqi sənətinin banisi Üzeyir bəy Hacıbəyli belə ermənilərin tarixən Azərbaycan, türk və gürcü mahnılarını öz adlarına çıxdığını deyir.

**- Geniş müsahibəyə görə təşəkkür edirik...**

**Əntiqə Rəşid**

# ANCA-dan etiraz kampaniyası: "ABŞ "Boeing"ləri Azərbaycana satmasın!"

**Xəbər verdiyimiz kimi, Xəzər və Mərkəzi Asiya regionunun aparıcı yük aviaşirkəti olan Silk Way West Airlines müasir və ekoloji cəhətdən təmiz donanmanın yenilənməsi öhdəliyinə sadiq qalaraq, 2025-ci ildə təhvil verilməsi planlaşdırılan əlavə Boeing 777 Freighter yük təyyarəsinin alınması üçün Boeing ilə mövcud olan müqaviləyə əlavə razılaşma imzalayıb.**

Adalet.az xəbər verir ki, bu məlumat erməniləri ABŞ-da yaşayan ermənilərin bərk xətrinə dəyib. Beləki, Amerika Ermənilərı Milli Komitəsi (ANCA) ABŞ İxrac-İdxal Bankını (EXIM) Azərbaycanın "Silk Way Airlines" aviaşirkətinə "Boeing" yük təyyarələrinin alınması üçün 100 milyon dollarlıq maliyyə zəmanətindən imtina etməyə çağıran panmüstəmləkə kampaniyasına başlayıb. Komissiyanın fikrincə, bu maliyyə Azərbaycana




ikili təyinatlı təyyarələr əldə etməyə imkan verəcək, guya Azərbaycana qeyri-qanuni silah tədarükünü asanlaşdıracaq. Azərbaycan haqqında ağlına gələn hədyanlarla çıxış edən ANCA bildirir ki, belə təyyarələrin Azərbaycana verilməsi Amerika qanunvericiliyini, o cümlədən ikili təyinatlı məhsulların ixracını pozur, regional sülh səylərinə zərbə vurur və Azərbaycana əlavə hərbi üstünlük verir. 2025 EXIM Bank yanvarın 10-da Boeing-in 100 milyon dollardan çox yekun kredit öhdəliyi üçün təklifini aldığını elan etdi. Fevralın 7-də, bundan sonra EXIM-in Direktorlar Şurası təklifin təmin edilməsi üçün ərizəyə baxacaq.

Qeyd edək ki, ermənilərin məkrli planına tuş gələn Silk Way West Airlines-in yaydığı məlumatda bildirilir ki, bu saziş 2021-ci ilin aprelində imzalanmış əsas müqaviləyə əlavədir və Silk Way West Airlines-in hava yük daşınması sənayesində davamlılığa sadiqliyini bir daha nümayiş etdirir.

Əsas müqaviləyə istinadən Silk Way West Airlines beş ən müasir Boeing 777 Freighter təyyarəsi əldə edir, onlardan ikisi artıq Bakıya çatdırılıb, digərlərinin çatdırılması isə 2027-ci ilin sonunadək gözlənilir.

**Xatırladaq ki, ABŞ-da Azərbaycan əleyhinə yönəlmiş bütün addımların arxasında mütləq erməni lobbisinin və diaspor təşkilatlarının durur. Bu təşkilatlardan ən böyüyü 1918-ci ildə əsası qoyulmuş Amerikanın Erməni Milli Komitəsidir ki, "907-ci düzəliş"ində ( 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayan düzəlişdir) bu təşkilatın fəaliyyəti böyük olub. Daha dəqiq desək, hazırda qondarma erməni soyqırımının ABŞ-ın 50 ştatında tanınmasında və prezident Co Bayden tərəfindən "soyqırım" olaraq təsdid edilməsində bu təşkilatın işi ermənilər üçün "misilsiz xidmət" kimi qiymətləndirilir.**

**Ə. Aslan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Hələ zamanımız var...

## Vahidi oxuyub düşünmək üçün

Hərdən ötən günlərə, xüsusilə özəl həyatımla bağlı məqamlara üz tuturam. Bu da iki səbəbdən qaynaqlanır. Birincisi, yaşla bağlıdır. Artıq mən də təsdiq edirəm ki, 60-ı haqlayandan sonra arxaya baxmaq, keçmişin kitabını vərəqləmək, bir növ adətə çevrilir. Sanki bununla dünəni özünə qaytarmaq, dünəndən qopub ayrılmaq istəmirsən. İkincisi isə, dünəndəki elə məqamlar var ki, o insanın həyatınının mənasına çevrilir. Onu yaşadan, ona stimul verən güc olur, mənbə olur.

Bax, bu iki məqam, yəni mənim özüm üçün çıxartdığım nəticə , tez-tez arxaya baxmağıma başlıca səbəbdir. Elə bu gün də arxaya baxıram. Çünki onu unutduğum, onu yadımdan çıxartdığım gün yoxdu. Və nə qədər ki, varam, inanmıram ki, elə bir gün olsun. Bu adam mənim üçün olduğu parametrlərdə, ölçüdə, çəkidə, fiziki və həm də mənəvi tutumda TƏK idi. Mən onun ikinci oxşarını, bənzərini, bu günə qədər görməmişəm. Heç filmdə də, ədəbiyyatda da rast gəlməyib mənə.

Elə bil ki, Allah onu hamıdan fərqli yaratmışdı. Və hamıdan da fərqli ürək vermişdi ona. Bir az kötöy, bir az həlim, bir az həssas, bir az ölçüsüz, biçisiz, bir az sevgi dolu, bir az da istedad və ilham ünvanlı...

Ona görə də onu tanımayanlar ilk kəlməsindən bəzən təəccüblənirdilər. İnanmırdılar ki, oxuduqları şeirin müəllifi bu adamdı. Elə ki, mövzu çözülürdü, söhbət uzanırdı, onda ayrılıb getmək istəmirdilər. Onun məntiqi, onun zamana, sözə və ən vacibi adam balası adama özəl baxışı var idi. Bu baxış müzakirə mövzusu da olurdu bəzən. Amma onun əhvalına da təsir etmirdi. Çünki o, dəstəyə qoşulan deyildi. Və bir də o, heç kimi yamsılamırdı. Ona görə də öz məntiqində, öz baxışında o, özünü rahat hiss edirdi. Bircə nüansdan başqa...

Əlimdə bir kitab var. Bu onun sonuncu kitabıdı. Elə burdaca qeyd edim ki, bu dünyaya vaxtından tez (əgər sağ olsaydı, bu sözümə görə mütləq sərt bir şəkildə deyəcəkdi... - qağa, sən vaxtın tez olduğunu hardan bilirsən. Allahın bacısı oğlusan?! - Ə.M.) vida etmiş Vahid Əlifoğlu adlı bir şair vardı. Elə indi də var ədəbiyyatımızda. Ədəbiyyat olduqca o da olacaq və əlimdəki kitab da onun bu dünyada sözə, böyük ədəbiyyata hədiyyəsidir. Allah ona,dörd kitabı bizlərə bağışlayıb getmək imkanı verdi. Bax, indi sizə təqdim etdiyim kitabın adı "Görənlərdən xahiş olunur ki..." adlanır. Yenə burda əlavə edim ki, Vahid Əlifoğlunun üç kitabına ön söz yazmışam. Bütün yaradıcılığını sözbə söz, nöqtə vergülünə qədər oxumuşam, öyrənmişəm. Üstəlik, çap olunmayan yazılarını da görüşlərimizdə, telefon əlaqələrimizdə müzakirə etmişik. Bir az böyük çıxmasın, amma inanın ki, mən onu sevdiyim qədər, dəyər verdiyim qədər o da mənə həmən münasibəti göstərirdi və bu doğmalıq ailələrimizə də hopmuşdu. Hətta mənə yazdığı məktubların birində vurğulamışdı ki, "sənin nə ölümün var Bakıda, ay Mədət kişinin oğlu. Niyə qıçını qatlayıb oturmursan yanımda bu qaçqın qəsəbəsində?".

Beləcə ərkli, beləcə səmimi və təbiidir Vahid Əlifoğlu. Bakıdan üzü Füzuliyə yola düşəndə öncə ona zəng edirdim. İnanın ki, gedib onun yaşadığı qaçqın şəhərciyinə çatanda şəhərciyin yolunun üstündəki təpədə söyüd ağacının dibində oturub məni gözlədiyini görürdüm. Çatan kimi də möhkəmcə qucaqlayıb "ə, gəl çıx da, gözləməkdən canımda taqət də qalmadı, acından, susundan öldüm" - deyirdi. Və sonra başlayırdı söhbətlərimiz, yeni yazılar, yeni mövzular. O mənim yaxşı tənqidçim idi. Birbaşa tənqidçim! Güzəşt yox idi onda. Və yazılarını da mənə etibar edirdi. Mən də güzəşt etmirdim ona. Arada zarafata salıb deyirdi ki, düzü, burda qalmağın lap çox istəyirəm. Amma sən Bakıda mənim səfirimsən...

İndi əlimdəki kitabı vərəqləyirəm. Kitabı professor, şair, AYB-nin Qarabağ bölməsinin sədri Elçin İsgəndərzadənin "VEKTOR" nəşrlər evi çap edib. Redaktoru da elə Elçin bəydi. Korrektor Fəridə Rəhimli olan kitabın ön sözündə yazmışam:

"Əzizim Vahid!

Sənə ünvanladığım bu kəlmələr bəlkə də qəribə səslənəcək. Oxucu fikirləşəcək ki, cismən dünyasını dəyişənə Allah bəndəsinin məktub yazmağının nə anlamı var. Onsuz da o, bu məktubu nə ala, nə də oxuya biləcək.

Amma yox, mən bu məktubu, daha doğrusu, bu məktub ovqatlı yazını həm özünə, həm ruhuna ünvanlayıram. Bilirəm ki, sən də məni çox istəyirsən. Həmişə də çox istəmisən. Heç bir sifarişim, heç bir sözüm havada qalmayıb... Sən təpədən-dırnağa əsl insan idin! Əsl kişi idin! Əsl ata idin! Əsl şair idin! Sən şeiri də, publisistik yazılarını da, hətta üç-dörd sətirlik çızma qaranı da çörəyi qazandığın kimi - alın təri ilə, zəhmətlə, qanınla, canınla yazırdın..."

Mən kitabın ön sözündən gətirdiyim bu iqtibasla tanımayanlara Vahidi tanıtmaq istədim, tanıyanlara isə bir daha xatırlatdım və istədim ki, kitabda müəllifin sağlığında bu kitab üçün yazdığı beş-altı müəllif cümləsini də diqqətə çatdırım.

"Bu kitab Qarabağ faciəsindən doğulmuş hələ ki, taleyimizə "çadır şəhərcikləri" adlanan milli xəcaləti yazmış heç də başucalığı gətirməyən hadisələrdən danışan dördüncü və sonuncu kitabdır. Mən son nöqtəni qoydum. Bəs millət və tarix necə? Və ümumiyyətlə, bu son nöqtədirmi?

...Hələ ki, pambıq əkilir, kətan toxunur, çadır tikilir. Hələ ki, dünyada ermənilər var..."

Yəqin ki, çox kiçik bir hissəsini təqdim etdiyim müəllif sözü sizi düşünməyə və 2020-ci ilin 27 sentyabrında başlanan azadlıq müharibəmizə qədər olan zamanı gözümüzün önündən keçirməyə kökləd. Və burda mən xatırladım ki, bu kitab 2013-cü ildə işıq üzü görüb. Vahid Əlifoğlunun ölümündən təqribən 40 gün keçəndən sonra. Amma onun müəllif sözündəki o böyük məna, o fikir tutumu və həm də o böyük ümid açıq-aşkar görünür. Və adamı düşündürür, həm də inandırır ki, Vahid böyük qələbəmizə ümidli idi, inanırdı. Vahid yazırdı ki:



*sonumuz eynidi, bu sən, bu da mən,*
*baltama, dəhrəmə sap istəyirəm.*
*bayquşlar ulayan xaraba kənddən,*
*gözümə soxmağa çöp istəyirəm...*

*çox sirri açmıram, demirəm hələ,*
*olub-olacağı zaman ələyir.*
*onsuz da bu xəlbir yüz ildi belə,*
*itirir buğdanı, saman ələyir...*

*...imzasız gileyim itsin, çatmasın,*
*qananın qanmaza hesabı nədi?*
*bir məktub yazacam getsin, çatmasın,*
*indidən bilirəm cavabı nədi...*

Və yaxud:

*bizdən betər imiş bizə gülən də*
*vallah, yalan bölür dərdi bölən də.*
*bezib dimdiyindən ağacdələn də,*
*döyür dimdiyini kar ağacına...*

*axtaran deyiləm itiklərimi,*
*əyilib qazandım yediklərimi.*
*söyüd ağacına dediklərimi*
*gərək ağlayaydım nar ağacına...*

Müəyyən hissələrini təqdim etdiyim bu şeirlərin fikir yükü adamı dərindən düşündürür. Hətta adamın içində bir təlatüm yaradır. Sanki silkələyir, oyatmaq istəyir, düşündürmək istəyir. Etdiklərimizi, edəcəklərimizi qarşımıza qoyub nəticə çıxarmağa, dürüst yol seçməyə istiqamətləndirir bizi. Ona görə də Vahid Əlifoğlunun şeirlərini bir-birinin ardınca oxumaq mənim qəbul etmədiyim bir yanaşmadır.

Yəni mən bilirəm və əminəm ki, onun kitabını əlinə götürən oxucu bir şeirdən digər şeirə keçəndə mütləq özünü toparlamağa gücü çatmayan bir bəndə durumuna düşəcək.

Ona görə ki, şeirin fikir yükü çox çəkilidi, adamın çiyinlərindən üzü aşağı basır, otuzdurur yerində. Deməli, bu duruma düşməmək üçün Vahidin şeirlərini fasilə ilə, ara verməklə oxumaq lazımdır. Əgər şair deyirsə ki:

*ay dəli, qardaş dəlisi,*
*torpaq, ağac, daş dəlisi,*
*dəlilərin baş dəlisi -*
*səni seçiblər, ay dəli.*

*oyanmır, yatıb, üstündən*
*yorğanı atıb üstündən.*
*hər şeyi satıb, üstündən -*
*su da içiblər, ay dəli.*

*çək köçünü yad düzlərə,*
*dərdi sərsəm, şad düzlərə.*
*buz dağlardan od düzlərə,*
*kefə köçüblər, ay dəli...*

*çox da axır gözdən uzaq,*
*çeviriblər varaq-varaq..*
*bu çayı da səndən qabaq,*
*yüz yol keçiblər, ay dəli...*

Bəli, bu şeirdəki zaman, mühit, özü-özlüyündə şairin gerçəkliyi söz qatlarında, fikir qatlarında necə incələdiyi və o incəlikləri bizə necə məharətlə çatdırdığını təsdiq edir. Bir oxucu kimi mən bu şeirin aurasında, iç dünyasında dünənimi görürəm.

Dünən yaşadıqlarımızı, dünən qarşılaşdıqlarımızı təkrar xatırlayıram, təkrar yaşayıram. Deməli, sözün qüdrəti də, o qüdrətli sözün sahibinin məntiqi də burda üzə çıxır, burda oxucu müəllifin nə demək istədiyini öz dərketmə meydançasına buraxır.

O meydançada oxucu ilə müəllif, daha doğrusu onun şeiri müzakirə aparır.

Nəticədə SÖZ gücünü, təsirini, həm də haqqını təsdiqləyir.

Mən Vahid Əlifoğlu haqqında növbəti bir yazımı da onun payıza həsr etdiyim bir şeirindən nümunə gətirməklə bitirirəm.Həmin şeirdə də Vahid öz durduğu yerdədi və həmin yerdən də bizə baxır:

*Bu dünyanın nədi dərdi, azarı*
*Ha gözlədim, bağlanmadı bazarı*
*Qazılıymış son gümanın məzarı*
*O da öldü, sağ qalmadı payıza.*

*Yaman gündə tapılmadı, dost hanı*
*Çox oxuduq torpaq adlı dastanı...*
*Kim əkmişdi yol ağzında bostanı,*
*Dərilməmiş tağ qalmadı payıza.*

*Söz meyvədi, qulaqlarda hallanıb,*
*Sarı yarpaq budaqlarda ballanıb.*
*Ağaclar da adamlar tək allanıb,*
*Duz yandırdı, bağ qalmadı payıza.*

*Karıxmışam ayım, ilim hansıdı,*
*Heç bilmirəm dirim, ölüm hansıdı.*
*Güvəndiyim hardan bilim, hansıdı,*
*Qar basmamış dağ qalmadı payıza.*

Bəli, hələlik bura qədər. Hələlik Vahid Əlifoğlunu oxumaq və düşünmək üçün dayanırıq. Sizə də zaman ayrılır. İstəsəniz oxuyun və düşünün.

***P.S.*** *Dəyərli oxucum, kimsə Vahid Əlifoğlunu oxumaq istəsə, ona yardımçı ola bilərəm.*

## Nazirlikdən plastik cərrahlara xəbərdarlıq

**Səhiyyə Nazirliyi plastik cərrahlara müraciət edib.**

Bu barədə Adalet.az-a nazirlikdən bildirilib.

Müraciətdə deyilir:

"Azərbaycan Respublikası səhiyyə nazirinin müvafiq əmri ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.

Azərbaycan Respublikasının ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahlar peşə fəaliyyətinin qanunauyğunluğunu təsdiq edən sənədlərinin notariat qaydasında təsdiq edilmiş surətlərini (baza ali tibb təhsili, diplomdansonrakı təhsilə aid bütün sənədlər, əmək kitabçası, tibbi fəaliyyət ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə, sertifikasiya şəhadətnaməsi və s.) 2025-ci il 31 yanvar tarixinədək Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə şəxsən təqdim etməlidirlər.

Mütəxəssis tərəfindən sənədlər tələb olunan qaydada və tarixədək təqdim edilmədiyi təqdirdə, bu hal onun praktik tibb fəaliyyəti ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə və ya sertifikasiya şəhadətnaməsinin ləğvi üçün əsas olacaq".

## Epilepsiyanın beyin sağlamlığını necə məhv etdiyi müəyyən olunub

**Çinin Sindao Universitetinin xəstəxanasının alimləri müəyyən ediblər ki, epilepsiya nevroloji xəstəliklər və psixi pozğunluqların inkişaf riskini artırır, beyin fəaliyyətinə mənfi təsir göstərir.**

Adalet.az-ın məlumatına görə, tədqiqatın nəticələri "Journal of Translational Medicine" (JTM) jurnalında dərc olunub.

Tədqiqat Britaniya Biobankının (böyük bioloji nümunələr deposu) 426 527 iştirakçısının məlumatlarına əsaslanıb.

Həmçinin, əvvəllər epilepsiya diaqnozu qoyulmuş 3 251 könüllü haqqında məlumatlar da araşdırmaya daxil edilib.

Nəticələr göstərib ki, epilepsiya koqnitiv və hərəkət funksiyalarına mənfi təsir göstərir, həmçinin depressiya kimi psixi pozuntuların riskini əhəmiyyətli dərəcədə artırır. 17 illik müşahidəyə əsaslanan uzunmüddətli analiz göstərib ki, epilipsiyası olan insanlar parkinson xəstəliyi kimi müxtəlif nevroloji xəstəliklərə tutulmağa meyllidirlər.



*Adilə Nəzərova*
*Filologiya üzrə fəlsəfə doktoru*

# ƏDƏBİYYATDAN KİNOYA

## Xalq Yazıçısı Elçinin bir neçə ssenarisi əsasında

**Dünyada yeddinci sənət olaraq qəbul edilən kino öz dilini yaradaraq bütün sənətlərdən bəhrələnir, amma ən çox ədəbiyyatdan bəhrələnir. Ədəbiyyat və kino arasındakı əlaqə bölünməz bir bütünün hissələri kimidir. Çox bəyəndiyimiz, oxuyarkən hadisələri və personajları zehnimizdə canlandırdığımız kitabların kino halına gətirildiyini öyrəndikdə inanılmaz dərəcədə maraqla qarşılayır və ən qısa zamanda izləməyə tələsirik. Təbiidir ki, bəzən məyus oluruq, ekranda gözlədiyimizi tapa bilmirik, bəzən də əksinə, ədəbiyyatdan kinoya köçən əsərlər bizə daha çox şey söyləyir, daha çox təsiredici olur. Elə olur ki, kinoteatrlardan və ya televizor qarşısından heyrətlə ayrılıb günlərlə kinonun üstündən keçə bilmir, təhlil edir, müzakirələr aparırıq.**

Azərbaycan kinosunda ədəbiyyatdan uyğunlaşdırılmış əsərlərin sayı kifayət qədər çoxdur, lakin ötən illərdə, yəni Sovet dövründə ədəbiyyat adamları ilə kino arasında əlaqələr o qədər də güclü deyildi. Aktyor, rejissor və texniki heyət baxımından çox şanslı və zəngin olan ”Azərbaycanfilm” kinostudiyasının ən mühüm problemi sovet rəhbərlərinin Azərbaycanda belə demək olarsa, ”xoşuna gələn” ssenaristlərin olmaması idi. Olanlar milli dəyərlərə önəm verdikləri üçün çox vaxt əsərdə ssenari arasında xeyli fərqlər yaranırdı. Bəzən ssenaristlərin sifarişlə yazdığı ssenarilər də olurdu təbii ki, ancaq onlar bir müddət sonra təkrarlanan kütləvi istehsala çevrilirdi.

Əlbəttə ki, kinoya dəstək verən, ssenarilər yazan yazıçılardan barmaqla sayılan ədəbi simalar arasında Xalq yazıçısı Elçinin xüsusi-əhəmiyyətli yeri var.

SSRİ dövründə ümumittifaq ədəbi prosesdə seçilən, yazıçı, tənqidçi kimi tanınan yazıçısının özünün yaradıcılığı də tədqiqat obyektinə çevrilmiş, xalqın taleyini, tarixini fərqli şəkildə əks etdirən əsərlərinin əsasında ssenarilər yazılmışdı.

Bu məqalədə isə müəllifin kinoya uyğunlaşdırılmış ədəbi əsərlərinin bir hissəsindən bəhs edəcəyik.

Az-az da olsa, həm kinomuzun ədəbi simaları, həm də ədəbiyyat sahəsində əsərlər yaradan kino xadimləri haqqında zaman-zaman yazılar oxuyuruq. Xalq yazıçısı Elçin də o önəmli və dəyərli ədəbiyyat xadimlərimizdir ki, onun əsərlərinin tamamını təşkil edən ssenarilərə kinolar çəkilmişdir.

Ssenarisi əsasında 1974-cü ildə çəkilən ilk film süjet xətti təzadlar üzərində qurulan ”Əllər və rənglər” sənədli filmidir. Filmdə rəssam Toğrul Nərimanbəyovun rəngkarlıq əsərləri, Kamil Nəcəfzadənin və Tahir Salahovun sənəti təbliğ edən portret əsərləri, xalça toxuyan qızın əlləri xronikal kadrlarla əvəzlənərək nümayiş olunur. Eyni zamanda alman faşistlərinin insanları qətl etməsi, Vyetnam müharibəsinin bombardmanı ilə yaşlı, uşaq, qadın olmaqla insanların öldürülməsi və cəlladların qana batan əlləri gözəllik yaradan sənətlə təzad yaradır. Burada ssenarist insan kimi yaşayıb, gözəlliklər yaratmağın həyatı nə qədər gözəlləşdirdiyini xatırlatmaq istəyir. Bu ilk uğurlu filmdən sonra dəyərli nəsr əsərləri yaradan və ədəbiyyatda iz buraxan yazıçılar - Anar, İsmayıl Şıxlı, İsa Hüseynov, İlyas Əfəndiyev, Yusif Səmədoğlu ilə yanaşı Elçinin ssenariləri əsasında da ard-arda filmlər çəkilməyə başlanır.

Eyni ildə çəkilən ”Ömrün səhifələri” (3 hissəli kinoalmanaxdan ibarət film - ”Rəqiblər”, ”Baladadaşın ilk məhəbbəti” və ”Nəğmə dərsi”dir. Novellalardan biri - ”Baladadaşın ilk məhəbbəti” Elçinindir) və 1976-cı ildə çəkilən ”Alıcının sərgüzəşti” filmləri o illərdə ”Azərbaycanfilm”in mövcud imkanları (və ya imkansızlıqları) daxilində, həm də ideologiyadan uzaq, fərqli və yaxşı kino çəkilə biləcəyini göstərdi.

1977-ci ildə çəkilən və əlli ilə yaxındır ekranlardan düşməyən ”Arxadan vurulan zərbə” bədii filmi bugün də, sabah da vətənpərvərlik hissləri oyadan və aşılayan filmlər sırasındadır. Vətən sevgisinin həqiqiliyinin sübutu olaraq, cinayətkarı tapmaq üçün müstəntiqin insan iradəsinin sərhədlərini zorlayan fəaliyyəti kinonun bütün dövrlərdə zirvədə qalmasını təmin edir. Elçinin ”Ox kimi bıçaq” povestinin əsasında çəkilən və tamaşaçıların ixtiyarına verilən bu bədii film bir ədəbiyyat adamının kino sahəsindəki fəaliyyəti ilə yanaşı, kinonun ədəbi qaynaqlardan necə və nə qədər bəhrələndiyini sübut edir.



Həm ”Ox kimi bıçaq”, həm də ”Arxadan vurulan zərbə” ad olaraq çoxmənalıdır. Bu, təkcə bıçaqla vurulan zərbə deyil, eyni zamanda şübhədən, xəyanətdən, inam və etibardan sui istifadədən irəli gələn mənəvi zərbədir.

Azərbaycan ədəbiyyatının həm də modernist yazıçısı deyə biləcəyimiz Elçini bu əsərdə tarixi və dedektiv janrında yazan müəllif olaraq görürük. ”Ox kimi bıçaq” əsəri əlbəttə ki, ssenari kimi daha çox tanınmağa başladı. Filmdə hadisələr bir neçə xətt üzrə cərəyan edir. Saf görüntü sərgiləyən, bir az da sevgiyə meyilli xəttdə Ziba obrazıdır ki, əvvəl qətlə yetirilən adamın saatının onun tərəfindən satılması ilə şübhə doğurur, sonra sakitcə milis maşınına oturub getməsi isə incə yumor fərqləri ilə hadisələrə yüngüllük gətirirsə, qatı cinayətkar, qatil Fəttah kişi - Qurd Cəbrayıl intriqanı, Əhməd Qəmərli, İmaş, Cəbi və b. hadisələrin gedişatını gücləndirən hərəkətverici quvvə kimi ortaya çıxır. Hadisələrin köklərinin keçmişə bağlanması filmin tarixi əhəmiyyətini artırır. Film bütün zamanların ən yaxşı Azərbaycan filmləri siyahısında ön yerlərdən birini tutur. Həm əsərin müəllifi, həm də rejissor burada insan iradəsinin gücünü, haqq-ədalətin qələbəsini və vətən məhəbbətinin üstünlüyünü diqqətə çatdırmaq istəmiş və buna uğurla nail olmuşlar. Araşdırmalar göstərir ki, kino nə qədər kitaba sadiq qalırsa bir o qədər keyfiyyətli iş ortaya çıxır. Bu filmdə rejissor kitabı tam olaraq filmə uyğunlaşdırmışdır,- desək yanılmarıq. Filmdə də romandakı kimi hadisələrin ardıcıllığı qorunmuş, rejissor uyğun hekayə üslubunu tam mənimsəyərək hadisələri şüurlu şəkildə öz filminə köçürmüşdür.

Şərq ədəbiyyatının humanistliyini, milli, mədəni dəyərlərini, xüsusilə dini mənsubiyyətin ayırımcılığı üzündən sevginin uğursuzluğunu gətirən ənənəsini ələ alan ”Mahmud və Məryəm” filmi müəllifin eyni adlı romanı əsasında çəkilib. Roman isə ”Əsli və Kərəm” dastanının müəyyən qədər pozulmuş - tezis, antitezis (tarixi hadisələrdə haqq-ədalətin, ənənələrin qorunmasında, xeyir və şər qüvvələrin qarşılaşdırılmasında və s.), sintez və kompozisiyasının qovşağının əsasında yazılıb. Belə ki, əsər müsəlman Mahmudun xristian Məryəmlə olan sevgi hekayəsini təqdim etsə də, hekayəyə xeyli əlavə süjetlər daxil olub. Xüsusilə əsərin sonlarına yaxın Ərzurum hakimi Süleyman paşanın Mahmudu xilas edərək sarayına gətirməsi, Məryəmi tapıb onunla evləndirmək istəməsi mərhələsində Mahmuda öyüd-nəsihəti - ”... Bütün dünyanın türkləri sifət quruluşlarından, adətlərindən asılı olmayaraq birləşməlidir!”- deyə bütün türkləri birliyə səsləməsi səbəbilə bugün də aktuallığını qoruyur, bu məqam müasir oxucunun (izləyicinin) diqqətini cəlb edir.

Romana yön verən dastan janrının tarixi hərəkatlar və sevgi mövzusuna da daxil olması, iki dağ arasındakı körpünün qırılması, işıqlı dünyadan qaranlıq dünyaya qapının açılması onu göstərir ki, əsərdə dastanların ən qədim formaları ən son formaları ilə qarışıb.

Azərbaycanda türklərlə birgə müxtəlif etnosların, xüsusilə etnik-mədəniyyətin, xristian dininin fəal daşıyıcılarının mövcudluğu, VIII-IX əsrlərdən yayılmağa başlayan, sözügedən dövrdə artıq yerli mədəniyyət sayılan islam dininin xristian dininə nisbətən mənfi münasibəti, Azərbaycan türklərinin mədəni-mənəvi üstünlüyünün yerli etnos xalqlar tərəfindən qəbul edilməməsi, öz dini, mənəvi, hətta mifoloji baxışlarını, təfəkkür mədəniyyətlərini yaşatmaları, bəzi hallarda gizli və ya açıq müxalifətə girmələri bu əsərdə də (daha çox romanda) görülür. Film boyunca davam edən qarşıdurmalar, xəyanətlər, ölüm və həyat arasındakı xaos, hadisələr arasında əlaqə yaradan mediator qurd və s. mətnə mifoloji mənalar qazandırır. Həm Mahmudun, həm də Məryəmin ailəsində olan münasibətlər yerli və etnik qruplar arasındakı xaotik durumu bildirir. Məryəmin anası ölüb, amma onun vəsiyyəti olaraq (guya) qızı müqəddəs məbədə aparmalıdırlar. Bu isə Məryəmi Mahmuddan uzaqlaşdırmağın bir yolu kimi görülür, qızla atası arasındakı doğmalığ əlaqələrini, ailə bağını qoparır. Xristian qızın müsəlman oğlana vurulması - sevgi ayrı dinin daşıyıcılarının xaotik durumdan çıxışı kimi irəli sürülür, lakin qızını onunla getməyə məcbur edən, bəzən yolboyu sürüyən ata buna mane olur. Mahmudun atası (XVI əsrin əvvəllərində Gəncə hakimi) Ziyad Xan isə oğlunu yerini bilmədən Məryəmi axtarmağa yollayır. Kinoda bu hadisə nağıllardakı ”çətin səfər” motivi ilə eyniləşir. Mahmuda çətin səfərdə yoldaşlıq edən Sofu vəzifəsinin öhdəsindən gələ bilmir, daş-qaşı götürərək gedir. Sonda ”Mahmud və Məryəm” ”nağılı”nı yenə Sofunun dilindən dinləyirik.

Filmin sonunda Mahmudun od tutub yanması hər insanın taleyinin bilavasitə doğulduğu dövr və ailəsi ilə bağlı olması həqiqətini, həm də bu odun ilk olaraq qılınc tutmaq istəməyən əllərindən başlaması isə əl içi xətlərinin tale və ömür yolunu bəlli etməsi inancını təsdiqləyir. Haqqında söhbət gedən əsərə görünür, məzmununu götürdüyü Azərbaycan-türk eposunun bu qədər çox təsiri olmuş ki, zərdüştlük ideyaları - ”Avesta” təsir göstərmiş ki, işığa, oda-atəşə qədim türklərin tarixi inamı olan atəşpərəstliyin idrakı-estetik mövqe qazanmasının sübutu kimi üzə çıxır.

”Əsli və Kərəm” dastanının davamı kimi qəbul edə biləcəyimiz ”Mahmud və Məryəm”də də qəhrəmanın odda yanması eyni zamanda eşqin oduna yanma olaraq özünü biruzə verir ki, burada hər iki variantda odun bir növ müqəddəsləşmə işarədir. Ədəbiyyatdan bəyaz pərdələrə köçən bu əsərdə hər iki tərəfin öz dini-mifoloji inancları, idealları naminə atəşə verdikləri sevginin uğursuzluğu tarixi aspektə əsaslandığı üçün, sonrakı nəsillərin gözündə uğur qazanır. Sevgililərin birgə yanması tamaşaçının yaddaşında xeyirin şər üzərindəki qələbəsi kimi iz buraxır.

Elçinin ”Toyuğun diri qalması” povestinin motivləri əsasında ekranlaşdırılan ”Sahilsiz gecə” filmi insanın həyatın bütün çətinliklərinə dözərək ləyaqətlə yaşaması fikrini ötürmək məqsədi daşıyır. Təbii ki, əsər daha çox sovet dövrünün ictimai-siyasi ideyalarını əks etdirir. 1989-cu ildə çəkilən filmdə baş rollardan biri olan Zübeydənin dövrün tələbindən kənara çıxan, milli-mənəvi, mədəni-əxlaqi dəyərləri heçə sayması, əxlaqa zidd hərəkətlər etməsi - siqaret çəkməsi, əsəbləşəndə ətəyini qaldırması və s. əlbəttə ki, o zamanın tamaşaçısı tərəfindən birmənalı qarşılanmamışdı. Bu səbəbdən yazıldığı və ekranlaşdırıldığı dövrdə müəyyən qədər etirazlara da səbəb olmuşdu. Lakin indi oxuduqca (izlədikcə) hiss olunur ki, əsər müəllifin tanıdığı adamlar və bildiyi yerlər əsasında yazılıb. Beləliklə, sosial fobiya pozğunluğu olan məşhur personaj Zübeydə ortaya çıxıb. Hadisələr sovet dövrünün dağılması ərəfəsində cərəyan edir. Zübeydənin əhvalının dəyişməsi onun şəxsi problemləri ilə paralel gedir. Cəmiyyət tərəfindən amansızcasına kənarlaşdırılan Zübeydə obrazı impulslarına, maddiyata və sevgi aclığına qarşı dura bilməyərək öz qaçılmaz sonunu hazırlayır.

Elçinin hazırda sonuncu olaraq, ”Gül dedi bülbülə” hekayəsinin ssenarisi əsasında iki il öncə - 2022-ci ildə, yeni il bayramı ilə əlaqəli ”Sabah” Yaradıcılıq Studiyası tərəfindən çəkilən ”Televizor” filmidir. İlboyu televizor almaq üçün pul toplayan ailənin başçısı Əlipaşa təsadüfi bir hadisəyə qarışır və bununla da televizorun pulunu xərcləmiş olur. Ailəsinə sədaqətli, qızlarına bağlı ata bir mətbuat orqanında redaktordur. Yeni ilə üç gün qalmış Əlipaşa işdən icazə alıb uşaqlarına söz verdiyi kimi, televizor almağa gedir, qapıdan çıxanda tanıdığı bir şairlə görüşür və şair onu yeni il qabağı toplaşdıqları məclisə dəvət edir. Məclis qızışır, Əlipaşa da məclis əhlinə qarışıb içki içir, rəqs edir, nəhayətində arvadı da ərinin arxasınca həmin məclisə gəlib çıxır. Ərinin sınmasına könlü razı olmayan qadın hesabı ödəməsinə razılıq verir və beləcə televizor almaq onlar üçün bir xülya olur. Amma yeni il gecəsi möcüzə baş verir, qapı döyülür, iki nəfər içəri girir, təsadüf nəticəsində, özlərinin də unutduğu, televizor satılan bir mağazada oynadıqları lotoreya bileti vasitəsilə udduqları televizoru gətirdiklərini bildirir. Beləliklə, film sürpriz sonluqla bitir və tamaşaçını təəccübləndirir. Əsərin izləyiciyə ötürdüyü mesaj budur: Həyata xoş bax, xoşgörülü ol, qismətində olan bir gün mütləq gəlib səni tapacaqdır. Burada tamaşaçının gəldiyi nəticə bir də budur ki, əsər müəllifin internet əsrində televiziyanın ikinci plana keçməsini önləmək səyidir. Keçmişə bağlılıq, nostalgiyaya sadiqlik bu əsərlə yazıçının ədəbi qayəsini bir daha diqqətə çatdırır. Filmi çəkərkən rejissor Sirac Mustafayev baş rol - Əlipaşanın, onun ailəsinin və şair dostlarının durumunu diqqətə çatdırmaq məqsədilə, qəsdən sadə mühitdən, tanınan məkanlardan, həmçinin az çarxdan istifadə etməyi seçmişdir.

**Ədəbiyyat və kino sənətin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki qoludur. Bu qarşılıqlı əlaqə əsasən uyğunlaşma konsepsiyasına əsaslanır. Yazıçı-dramaturq Elçinin ədəbiyyatdan kinoya uzanan ssenarilərində uyğunlaşma anlayışı qarşılıqlı əlaqənin mərkəz nöqtəsini təşkil edir, çünki həmişə olduğu kimi bu əsərlərdə də vizual mətn olan kino öz əsasını bədii mətn olan ssenaridən alır. Araşdırmalar göstərir ki, incəsənətin bu iki qolu bütün sənət sahələri kimi məlumatlandırmaq, əyləndirmək, yeni perspektivlər təqdim etmək, estetik zövq yaratmaq kimi funksiyalara malikdir.**

## *”Ermənistan hamının gözü qarşısında uçuruma yuvarlanır”*



**”Bir vaxtlar Rusiyanın dostu olan Ermənistan hamının gözü qarşısında uçuruma yuvarlanır”**

Adalet.az xəbər verir ki, bu sözləri Rusiyanın hərbi eksperti Yuri Kotenok deyib:” Təəssüf ki, Ermənistan bu gün son dərəcə zəif vəziyyətdədir. Sonuncunun Dağlıq Qarabağı döyüşsüz Azərbaycana təslim etdiyini və bununla da beynəlxalq siyasətdə subyekt statusunu itirdiyini söyləmək olar. Hazırda Ermənistana qonşu ”akula” ölkələri olan Azərbaycan və Türkiyə açıq-aşkar Ermənistan ərazisindən yeni parçalar qoparmağı planlaşdırır.

Hazırda onlar əldə olunmuş razılaşmalara əsasən, Rusiya da daxil olmaqla, bir sıra dövlətlərin nəzarəti altında qalmalı olan ”Zəngəzur dəhlizini” almaq istəyirlər. Paşinyan nümayişkaranə şəkildə Moskvanın köməyindən imtina etdi və indi sadəcə olaraq kənardan ona öz iradələrini diktə edirlər”

Ekspert əlavə edir ki, Ermənistanın Bakının təcavüzünə müqavimət göstərmək üçün heç bir kozu yoxdur. ”Hazırda Ermənistan Müdafiə Nazirliyinə ordudan uzaq adamlar təyin olunur. Ermənistan Silahlı Qüvvələrinin rəhbərliyindən isə təcrübəli şəxsi əsgərlər uzaqlaşdırılır. Ermənistan ordusu getdikcə müdafiəsizləşir və onu muzdlularla gücləndirmək cəhdləri adekvat deyil. Azərbaycan yeni hərbi təcavüzə başlasa, İrəvan heç bir şəkildə müqavimət göstərə bilməyəcək. Sadə erməni xalqı sadəcə olaraq belə ssenariyə hazır deyil və bu, onlar üçün şok ola bilər və ölkə xaosa qərq ola bilər”.

Bütün bunların fonunda rusiyalı ekspert Paşinyanın Rusiyadan uzaqlaşmasını son dərəcə qəribə hesab edir. O qeyd edir ki, Paşinyanın Aİ-yə üzvlüklə bağlı referendum keçirməklə bağlı bəyanatları absurd səslənir və Rusiyanın Ukraynada ”həddən artıq işğalı”nı nəzərə alsaq, İrəvanın ehtiyac yaranarsa kimə arxalana biləcəyi qeyri-müəyyən olaraq qalır. ”Ermənistan əsrlərdir erməniləri məhv etməyə çalışan ”Osmanlı dünyası” təhlükəsi ilə üz-üzədir. Paşinyan isə bəzi Avropa dəyərlərinə sadiqlikdən danışır. Bu, yalnız Qərb oyunçularına faydalı olan çirkin duruşun ən yüksək nöqtəsidir. Təəssüf ki, Ermənistanda gedən proseslər geridönməzdir”.

**Əntiqə Rəşid**

# Bir qom çiçəklə söhbət

## Sabir Abdinin iki şeiri ətrafında düşündüklərim

**İstedad Allah vergisidi. Mənim inancıma görə, yer üzündəki bəndələrin hamısında Allah payı olan istedad var. Amma onun dərəcəsi, ölçüsü fərqlidi və bir də istedadın üzə çıxması üçün Allahın insana verdiyi ağıldan düzgün istifadə olunmalıdı. Yəni ağıl istedadı özünə çəkməli, özünün bir hissəsinə çevirməlidi ki, onlar da çiyin-çiyinə addımlayaraq daxili potensialı gerçəkləşdirsin. Bunu elə-belə sözgəlişi xatırlatsam da və bilgisayara diktə etsəm də, burda həqiqətən işıq ucu var. O işıq ucundan da həyata, ətrafa, xüsusilə, insanlara diqqət, sevgi və sayqı ilə baxanlar, yanaşanlar yararlanırlar. Nəticədə işıq ucu tonqala, alova çevrilir, ətrafı sarır. Və...**

Bir dəfə yazmışam, yenə təkrar xatırladıram. Sabir Abdinlə hələ tələbəlik illərindən isti münasibətimiz olub. Universitet qəzeti, universitet mühiti bizi bir-birimizə yaxınlaşdırıb. Baxmayaraq ki, o, hüquq fakültəsində təhsil alırdı. Elə o sahə üzrə də çalışıb və bu gün də çalışır. Ancaq içindəki söz yaratmaq, söz misralamaq həvəsi, istəyi onun əvvəldə vurğuladığım kimi, hər kəsdə olan özəl istedadını yavaş-yavaş cücərdirdi, böyüdürdü. O cücərən, böyüyən misralar da şeirə çevrilirdi. Və günlərin birində də o şeirlər bir çoxu populyar nəğmələrə çevrildi, dillər əzbəri oldu. Azərbaycanın sayılan, seçilən müğənniləri o nəğmələri ifa etdilər və bu gün də ifa edirlər. Təkcə "Mənə dəniz verin" nəğməsi Eyyub Yaqubovun ifasında həmin sözlərin müəllifi olan Sabir Abdini də Azərbaycana tanıtdı... Bu gün hardansa içimdən qəribə bir hiss gəlib keçdi. Yəqin ki, bunun səbəbi elə sübh çağı radio dalğaların birində dinlədiyim "Mənə dəniz verin" oldu. Həmin ovqatla iş otağıma gəldim və kitab rəfimdən Sabir Abdinin "Adını sən seç..." kitabını götürdüm.

İlk oxuduğum şeir, necə deyərlər, ovqatıma ovqat qatdı və Sabir Abdinlə olan, birgə keçən günlərimizi, söhbətlərimizi, xatirələrimizi içimdən təzələyə-təzələyə bir də gördüm ki, artıq onun şeirinin qoxusunu da hiss edirəm. Çünki bu şeir çiçəklərdən idi. O çiçəklərdən ki, onları təkcə özümüz yox, doğmalarımız yox, ətrafımız yox, həm də sevdiyimizlə bağlı xatirələrimiz də bizə sevdirir. Axı ilk sevgilər, ilk görüşlər özü də bir çiçəkdi, tər, pak, adamın ağlını başdan, ürəyini sinədən alıb aparan çiçək!.. Bax, o çiçəklərin ləçəkləri bənzərində idi Sabir Abdinin misraları. Sabir Abdin yazmışdı ki:

*Əllərim titrədi, soldu çiçəklər,*
*Baxıb gözlərimə doldu çiçəklər.*
*Görüş yerimizdə qaldı çiçəklər,*
*Sənə deyəcəyim sözüm qalmadı.*

*Günəşin üzünü örtdü buludlar,*
*Yalqız çiçəkləri gördü buludlar,*
*Qaldırdı çiyninə dərdi buludlar,*
*Sənə deyəcəyim sözüm qalmadı.*

*Üşüdü çiçəklər, küsdü çiçəklər,*
*Həsrətdən, kədərdən əsdi çiçəklər.*
*Ayaqlar altında gəzdi çiçəklər,*
*Sənə deyəcəyim sözüm qalmadı.*

*Çiçəklər həsrətli yoldu, cığırdı,*
*Nəmli gözlərindən yağış yağırdı,*
*Çiçəklər qəfildən məni çağırdı...*
*Sənə deyəcəyim sözüm qalmadı.*



*Günahsız çiçəklər günaha batdı,*
*Qəlbimdə kədəri, qəmi oyatdı,*
*Çiçəklər alışıb bir ocaq çatdı,*
*Sənə deyəcəyim sözüm qalmadı.*

Bu şeirin hər bəndində hisslər, yaşanmış anlar, deyilən və deyilməyən sözlər bir qom çiçəyə çevrilib və o bir qom çiçək indi mənim əlimdə, gözüm isə yoldadı. Səni gözləyirəm.

Sənə təşnə olan ürəyimlə səbirsiz bir şəkildə bu çiçəyin sən çiçəyə təqdim olunacağı məqam üçün hər şeydən keçməyə hazıram indi. Qorxuram ki, gecikəsən, yubanasan, ləngiyəsən.

Qorxuram ki, "evdən çıxmağa bəhanə tapa bilmədim, anam icazə vermədi, nənəm buraxmadı gəlim" - deyəsən, yazasan telefonuma. Amma şeirin ovqatı o qədər təbii və safdı ki, bunun içərisində o çiçəyin ətrindən və özündən başqa ikinci olan və mənimlə az qala göz-gözə dayanan sənsən. Deməli, bu istedadın, bu şair qəlbinin bütün gücü ilə vulkan şəklində qoparaq sözlərə hopub danışan, göstərən, inandıran sevgisidir. Bax, bu istedadla ağılın, məntiqin hissləri şeirə çevirən gücüdür.

Ona görə də şeiri oxuyursan və özünü həmin şeirin içində görürsən. Eləcə də duyğuların saflığı səni özünə içdən baxmağa, həm də içindəkini görməyə məcbur edir.

Tam əlini ürəyinin üstünə qoyub arxayınlıqla deyə bilirsən ki, mən sənə olan bütün sözlərimi bir qom çiçək etmişəm, ürəyimdə sən çiçəkdən başqa heç nə yoxdur, heç kim yoxdur!..

Hər birimizin yaddaşında, elə həyatında da bir məqam bu və ya başqa formada olur və yaşayır. Xüsusilə, bölgələrdə yaşayan gənclər sevgi məktublarının və yaxud hədiyyə etdikləri kitabların arasına bir çiçək qoyardılar.

O çiçəklər də o sevgi qədər pak və müqəddəs idi. Qalırdı vərəqlərin arasında.

Açıb baxırdıq, gözlərimizlə öpürdük və təkrar əl vurmadan qatlayıb o kitabı hər kəsdən uzaq bir yerə qoyurduq. Çünki onun içərisində çiçək əmanəti var idi.

İndi Sabir Abdinin "Məni bağışla" şeirini oxuyuram:

*Dəftər arasında qalan çiçəyim,*
*Quruyan çiçəyim, solan çiçəyim,*
*İndi gözlərimtək dolan çiçəyim,*
*Bağışla, nə olar, məni bağışla.*

*Dağlardan ömrümə gələn çiçəyim,*
*Həmişə sevinən, gülən çiçəyim,*
*İndi göz yaşıma bələn, çiçəyim,*
*Bağışla, nə olar, məni bağışla.*

*Əllərdən əllərə gəzən çiçəyim,*
*Həmişə tələsən, əsən çiçəyim.*
*İndi kədərimlə bəzən, çiçəyim,*
*Bağışla, nə olar, məni bağışla.*

*Görüşə quş kimi uçan çiçəyim,*
*Könlümü, ruhumu açan çiçəyim,*
*Dönüb ürəyimi qucan çiçəyim,*
*Bağışla, nə olar, məni bağışla.*

Və yəqin siz də oxuyacaqsınız yazının içərisində həmin şeiri. Mən bəri başdan deyim ki, çox doğma bir hissdi, yaşanmış bir hissdi. Ona görə də Sabir Abdinin çiçəyə olan bu etirafı, bu üzrxahlığı anlaşılır və qəbul edilir.

Axı o çiçək heç bir çiçəyə bənzəmir. Axı o çiçəyin arxa planında dayanan həm də sənsən. Deməli, təbiət və insan ikisi bir sevginin çiçəyinə çevrilib.

Onu şehdən də, mehdən də, küləkdən də, bir sözlə, qorunması və zəruri olan hər şeydən yalnız ürək qoruya bilər. Şair də elə o ürəklə üz tutur çiçəyə, o ürəklə danışır çiçəklə, onu vəsf edir, onu dilə tutub bağışlanmasını istəyir. Məncə, bu, həm də əbədi sevginin qarşısında etirafdı. Mən belə başa düşürəm və belə qəbul edirəm. Doğrudu, şeirin mövzusunda, yəni daxili quruluşunda şair oxucunu müəyyən məqamlarla qarşılaşdırır. Çiçəyin ünvanlarını, harda böyüyüb, haralara üz tutmağını, kimlərin əlində, kimlərin sinəsində, kimlərin görüşündə hansı ovqatda olmalarını söyləsə də, özünə aid çiçəyi bütün çiçəklərin tacı görür, tacı bilir. Və ondan bağışlanmasını istəyir. Çünki o çiçək bir dəftər arasında qalmaqla yanaşı, həm də bir ürəkdə yaşayır, o solmur. O solmayan çiçəyin adı Sevgidir!

**Bəli, "Mənə dəniz verin" nəğməsinin yaratdığı ovqatla Sabir Abdinin iki şeiri arasında bir xəyal körpüsü qurdum. Bir ağ cığır açmağa çalışdım. İstədim ki, o körpüdən əlimdən bir dəstə çiçək keçməklə, sən çiçəyin ayağına gəlim... İSTƏDİM...**

Əbülfət MƏDƏTOĞLU

# İRƏVANA GEDİRİK???

## (Bir filmin izi ilə)



Fidan Abdurəhmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Əslində bu sual söhbət açacağım filmdə bircə dəfə səslənir - İrəvana gedirik?! Bu sual o qədər təəccüb və sevinclə səslənir ki, yalnız mənim deyil, dövrümün bütün uşaqlarında İrəvanı tanımaq arzusu olub.**

"Sehirli xalat" filmini - "Arşın mal alan" (1945, M.Dadaşovla birgə), "O olmasın, bu olsun" (1956) filmlərinin quruluşçu operatoru olmuş, kino-operator, rejissor və rəssam Əlisəttar Atakişiyev çəkmişdir. Onun uşaqlar üçün çəkdiyi ilk filmi "Bir qalanın sirri" (1959-cu il) olmuşdur. Onu da qeyd edək ki, bu il "Sehirli xalat" filminin 60 yaşı tamam olur (1969-2024).

Uşaqlar üçün yazmaq nə qədər çətindirsə, film çəkmək daha artıq zəhmət və məsuliyyət tələb edir. Bu filmlərdə hər bir uşaq özünə xas xüsusiyyətləri görməli, özünü tərbiyə etməlidir. Belə filmlərin senarilərində təhsilin uşaqların həyatında rolundan, ailə dəyərlərinin qorunmasından və dövlətin tarixi yaddaşından bəhs olunaraq gələcəyə ümidinin artmasına təkan verən xüsusiyyətlər öz əksini tapmalıdır. Ulu öndər Heydər Əliyev Azərbaycan yazıçılarının V qurultayındakı nitqində (1972-ci il) diqqət çəkən: "Bizim zəmanəmiz və müasirlərimiz haqqında gözəl əsərlər yaratmaq Azərbaycan yazıçılarının əsas qayğısı olmalıdır" ideyası idi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu gün uşaqlar üçün əsərlər az yazıla da, film çəkilişlərinə o qədər də yer verilmir.

"Sehirli xalat" filmi pionerlərin 40 illik yubiley tədbiri ilə başlayır. Vladimir İliç Leninin şəkli vurulan səhnənin qarşısında gur nağara, zərif tar və kövrək kamança sədaları ilə pionerlər əzmlə milli rəqs edirdilər. İndi isə filmdəki bəzi məqamlara diqqət yetirək.

Filmdə sehirli xalat vasitəsi ilə keçmişə və gələcəyə səyahət edən pionerlərin şən həyatı və həmin dövrün tarixi prosesləri incə bir xətlə keçir. Xüsusilə kinonun adının götürüldüyü sehirli xalatın rəngləri diqqət çəkir. Belə ki, keçmişə gedən yolu yaşıl rəngdə, gələcəyə gedən yolu isə qırmızı rəngdə geyinməyi uşaqlara tövsiyə olunur. Bu rənglər həm də bayrağımızın rəngləridir. Burada gələcəyə getmək üçün sehirli xalatın qırmızı rəng tərəfini geyinmək, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, keçmişə getmək üçün isə yaşıl tərəfini geyinmək tövsiyə olunur ki, yaşıl rəng - İslam sivilizasiyasına mənsubluğumuzu ifadə edir.

Keçmişə çatan uşağın eşitdikləri əslində Azərbaycan tarixindən mesajlar verir. Vaxtilə Azərbaycan ilə ticarət əlaqələri yaratmaq üçün xana at hədiyyə edən və yalvararaq icazə istəyən Xarəzm tərəfindən gələn tacirlər də bu filmdə yer almışdır. Maraqlıdır ki, 1225-ci ildə Azərbaycana daxil olan Xarəzm dövləti 1231-ci ildə süqut etmişdir. Lakin xalatı geyinən xanın sualı maraq doğurur: İrəvana gedirik? Buradan da belə aydın olur ki, hələ o zamanlarda İrəvan vardı. Filmin 1964-cü ildə çəkildiyini düşünəndə (artıq o ilə qədər Azərbaycan xalqı soyqırım və didərginliyə məruz qalmışdı) rejissor və senarist Əlisəttar Atakişiyevin ustalıqla fikrini çatdırması tarixi bir prosesə aydınlıq gətirmiş olur.

Prezident İlham Əliyev Dünya azərbaycanlılarının III qurultayında (2011-ci il) nitqindəki xüsusilə bu fikri uşaqlara aşılamaq hər birimizin borcudur: "Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi idda etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır".

Tarixə nəzər yetirəndə aydın olur ki, Çuxursəəd bəylərbəyliyi ərazisində Nadir şahın ölümündən sonra yaranan iki xanlıqdan biri olan (Naxçıvan və İrəvan) İrəvan xanlığı Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. Qaraqoyunlu şahı Cahanşah kiçik Asiyada tarixi vilayət olan Kilikyadan Üçkilsə monastırının köçürülməsinə icazə vermişdir. Buradan da aydın olur ki, 1441- ilə qədər, yəni Katolikosluğun köçürülməsinə qədər ermənilərə aid burada yaşayış məntəqəsi olmamışdır. Tarixə bələd olanlara məlumdur ki, Cahanşah hakimiyyət illəri 1436-1467 olsa, 1447 illərdə Teymuri Şahruxun ölümünə qədər, ondan asılı vəziyyətdə idarə ettmişdir. Ölümündən sonra 1458-ci ildə Herata daxil olub Teymurilərin taxtına əyləşən Cahanşah əslində yaxşı təhsil görmüş bacarıqlı siyasətçi olsa da ən böyük səhvi bu kilsələrə Azərbaycanda yer verməsi idi. Məhz bu hadisədən sonra ermənilər Qərbi Azərbaycana ayaq açmışdılar. Qeyd edək ki, ikinci bir səhv 1918-ci ildə müstəqil Azərbaycanın yaradıldığı bir dövrdə baş vermişdi.

Film - münəccimlərin sarayın, xanın təhlükədə olduğunu bildirməsi və əslində çox məsələdən agah olmasından xəbər verməsi ilə davam edir. Xan və onun ətrafı ilk baxışda pioneri cin kimi görür. Pionerin xana - donuzun biri donuz deməsi də təsadüfi deyil, əslində rusların sevimli heyvanının adını çəkib, bəlkə də, təhqir deyil. Sonra Vəzirin şaha verdiyi açıqlama isə daha maraqlıdır: "Bu pioner istəsə cin kimi adamı, itə, eşşəyə, kərtənkələyə döndərə bilər. O zaman biz neynəyərik?" Xan isə Allahın sevmədiyi heyvanın, donuzun adını çəkməyi qadağan edir. Xan yenə də ehtiyatını görərək, biz bilmərik bu pioner bura hansı məqsədlə gəlib, artıq əksik söz danışmamağı tapşırır. O isə mən cin deyiləm, pionerəm deyir. Filmdə ağıldankəm kimi verilən Azərbaycan xanı və onun ətrafı pioner haqqında: "bu yaramaz uşağın böyüyüb kim olacağını düşünəndə, adamın tükləri biz-biz olur", fikrinə xan - yox, o böyüməyəcək - deyir. Və həqiqətən də, böyümədi...

Beləliklə xan pionerin dediyini təkrarlayır "çitrakuta" sözü ilə öz dövründən sovet dövrünə düşür. Müasir dövrdə sarayındakı dəyişikliklərdən hiddətlənərək: "yığışdırın bu əski-üskünü: deyərək, sovet şüarlarını çıxarıb atır.

Daha sonra xan pionerlərə üz tutub, onu bura gətirən Rəşidə deyir: "Sən o qədər yalan palan danışdın ki, gopçular müsabiqəsi keçirilsəydi sən şübhəsiz qalib gələrdin və səni sarayın baş təlxəyi təyin edərdim" deyir. "Sənin kimilərə zamanəmizdə yer yoxdur" fikrinə isə xan lənətə gəlsin sizin zəmənəniz cavabını verir.

Xanı itirən uşaqların peşiman vəziyyətdə olduğunu görən İyokiyo baba Rəşidə maraqlı sual verir: "Xanı niyə gətirmisiz, sarayı ona qaytarmaq üçün?" Əslində bu sual özü də bir mesaj idi. Sarayların tarixi olduğunu və bir vaxt bu tarixi yerlərə qayıdacağımızı.

Sovet idealogiyasına görə istənilən gələcək zaman kəsiyində pionerə rast gəlmək olacaqdı. Sehirli xalatın qırmızı rəngli tərəfini geyinən pioner gələcəyə, daha müasir zamana yolçuluq edir.

Gələcəkdə muzeydə təqdim olan "pionerlərin XX əsrdəki geyimləri" isə elə həmin əsrin eksponatı kimi də qaldı. XX əsrin son on ilində sovet hökuməti dağıldı, pioner, komsomol anlayışı və geyimləri ləğv olundu.

Uşaqlar axtardıqları xanı gələcəkdə tapdılar. Əslində bu gün bu məsələ heç də təsadüfi deyil, bu gün biz məhz həmin gələcəyi yaşayırıq. Bu muzeydə orta əsrlərin (III-X əsrlər) feodal xanı kimi təqdim olunurdu. O bir avtomat oyuncaq xarekteri daşısa da, şüşənin altında qırıq-qırıq səsi ilə məğribdən məşribə qədər yol gəldiyini və zəmanəsinin böyük hökmdarı kimi tamaşaçılarına səslənirdi.

Sonda yenə həmin suala qayıtmaq istərdim: İrəvana gedirik?

**Bəli, əziz uşaqlar İrəvana gedirik. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qayıdış konsepsiyasına" əsasən öz tarixi torpaqlarımıza geri dönürük, İrəvana gedirik!**

# "Xatirələr adamı" idi Nemət Veysəlli

**İnsanı yaşadan bir çox zəruri şərtlər var. Söhbət mənən yaşamaqdan gedir. Adi bir sıradan insan olub "səhər naxıra, axşam axıra" prinsipi ilə yaşayanları bu mövzuya daxil etmirəm. Söhbət düşünmək, mühakimə yürütmək, fikir bildirmək və ən vacibi niyə yaşadığını, niyə sevdiyini dərk edən adamlardan gedir. Bax, həmin adamların yaşam prinsipinin bir nüansı da doğulduğu torpağa, ocağa, elə, obaya, aid olduğu camiəyə bağlılığı, sayqısıdı. O adamlar da harda olmalarından asılı olmayaraq, o soy-kökə bağlılığı unutmurlar, qırıb atmırlar. Ona görə də onların yaşamı maraqlı olduğu qədər də çətin olur. Deməli, insanın yaşam prinsipinin bir ştrixi onu xatirələrə elə bağlayır ki, o xatirələr onunla hər yerə gedir, hər yeri gəzib dolaşır. Bax, bu mənada mən özümü və çevrəmdə özümə yaxın bildiyim adamları hər zaman həmin o xatirələr orbitində görmüşəm. Gördüyüm o adamlardan biri də Azərbaycan publisistikasında, Azərbaycan mətbuatında və ədəbiyyatında xüsusi yeri, çəkisi olan yazıçı-publisist Nemət Veysəllidir.**

Mən Nemət Veysəlli ilə tanış olanda yenicə Sovet ordusundan təxris olunmuşdum. Amma ona qədər "Ulduz" jurnalında imzasını görüb yazılarını oxumuşdum. Xüsusilə, onun "Veysəlli" imzası mənim diqqətimi çəkmişdi. Hardasa içimdə bir yerlipərəst həvəsi, marağı Nemət müəllimi mənə yaxınlaşdırmışdı. Sonra Bakı həyatımda onunla üzbəüz görüşdük və söhbətimiz alındı. Amma Nemət Veysəllini mən sözün bütün mənalarında vətəndaş, yazıçı-publisist və qarabağlı kimi ilk dəfə 1988-ci ilin fevralında kəşf etdim. Məlum Qarabağ hadisələri başlayanda mən onu Füzulidən olan ziyalıların yaratdığı cəmiyyətin öncüllərindən biri kimi gördüm. Sonra birlikdə Qarabağ səfərlərimiz, ermənilər yaşayan kəndlərə birgə yol-yoldaşlığımız, sonra onun hərbi jurnalist kimi fəaliyyəti sonra onunla ailəvi tanışlığımız, bir-birimizin bütün tərəflərini öyrənməyimiz Nemət Veysəllini mənim üçün, eləcə də ailəm üçün əziz insanlardan birinə çevirdi və...

Burda bir xatirə yadıma düşür:

- 1990-cı ilin yayında Nemət müəllimin istəyi ilə onu doğulduğum Tuğ kəndinə apardım. Bəlli olduğu kimi, o vaxtlar Tuğ beynəlmiləl kənd sayılırdı və burda ermənilərlə birgə yaşayış nümunə sayılırdı. Hadisələr başlayanda isə həmin o Sovet təbliğatı sabun köpüyü kimi çəkilib getdi və ermənilərin iç üzü ortaya çıxdı. Bax, həmin o erməniləri görmək istəyirdi Nemət Veysəlli. Onlardan müsahibə götürmək istəyirdi və mən də onun istəyinə etiraz etmədim. Getdik Tuğa. Adəti üzrə öncə mənim ata evimdə duz-çörək daddıq, hətta adama bir az da Tuğun məşhur tut arağından içdik. Bunu da ona görə etdik ki, erməni həyasızlığının qarşısında bir az "içkili" kimi görünək. Və bizi içkili sayıb açıq söhbətdən ürəklərində olanları deməkdən çəkinməsinlər. Axı həmin vaxt hələ Sovetlər birliyi qalırdı və bəzi ermənilər bizim jurnalistlərə müsahibə verəndə öz tülkü xislətlərini işə salırdılar. İkibaşlı danışırdılar... Nə isə... Yeməkdən sonra çıxdıq kəndin mərkəzinə. Qarşımıza çıxan ilk erməni bu kənddə zamanında rəhbər vəzifələrdə işləmişdi. Azərbaycan dilini də mükəmməl bilirdi. Mən yavaşca Nemətə pıçıldadım ki, buyur, bu da sənin üçün zəhərli ilan, danışdır. Və Nemət onu sorğu-suala çəkdi... İllər sonra həmin müsahibəni xatırlayan Nemət Veysəlli mənə bir məqamı da özünəməxsus şəkildə söylədi:

- Bax, biz onda Tuğa getməsəydik, onda Mədət kişi də həyətindəki qoyunlardan birini kəsməyəcəkdi. Həmən qoyun da qalacaqdı erməniyə. Biz getdik, erməniyə sizin 20 yox, 19 qoyununuz qaldı... Və sonra da gülürdü. Bu, hardasa əsəb gülüşü idi, daxili etirazın gülüşü idi və bir də qisasın gülüşü idi...

Ümumiyyətlə, Nemət Veysəlli mənə görə bu zamanın adamı deyildi. O qədər sadəlövh, o qədər sakit, mülayim, hətta danışanda da o qədər asta danışırdı ki, onu dinləmək üçün fikrini cəm etməli idin, diqqətini ona yönəltməli idin. Üstəlik, Nemət Veysəlli qəbul etmədiyi, gerçək bilmədiyi heç nəyə nəyinsə xatirinə "hə" deməzdi. Dərhal sərt mövqeyini qoyardı ortaya. Və burda yenə bir nüansı qeyd edim. Nemət Veysəlli yaşadığı həyatı hər gün xatirəyə çevirirdi. Çünki o, xatirələr adamı idi. Yaşadığı yetimliyi də, əzablı həyatını da, qaçqınlıq illərini də, 60 yaşın-



da geyindiyi əsgər geyimini də, olduğu səngərləri də, tanıdığı adamları da, bir sözlə, hər şeyi qısa zamanda xatirə kimi danışırdı. Ona görə də hərdən mən Nemət müəllimdən dünənlə bağlı nəyisə soruşanda o, sanki xatirə danışırdı şirin, həzin səslə mənə. Həm də nöqtəsini, vergülünü vurğulamaqla. Arada telefonuma zəng edirdi. Bilirdim ki, yenə nəsə deyəcək, nəsə soruşacaq. Belə də olurdu... Və Nemət Veysəlli telefonun o biri başında həmişəki təmkinlə:

**- Əbülfət, yadındadı "Qırmızı bazar" əməliyyatı?**

Cavabımı gözləmədən də sualını davam etdirirdi Nemət Veysəlli. Orda, yəni taxıl zəmisində baş verən hadisələrdə şəhid olanların neçəsinin cəsədi sonradan ermənilərdən alındı?

Mən susurdum, Nemət Veysəlli isə özü bildiyi faktı təkrar mənə dedirtmək istəyirdi. Dərhal anlayırdım ki, o nəsə yazır, nəyisə sonuncu dəfə dəqiqləşdirmək istəyir... İndi əlimdə bir kitab var. Müəllifi Nemət Veysəllidir. "Geriyə yol varmı?" adlanır bu kitab. İki gündür ki, təkrar oxuyuram bu kitabı. Bu kitab mənim üçün Nemət Veysəllinin xatirələri kimi dipdiridi. Çünki burdakı bütün xatirə hekayələr, hətta elegiya o qədər tanış, o qədər doğmadır ki, mən onları oxuduqca sanki Nemət müəllimin səsini də eşidirəm. Elə bilirəm ki, yenə üzbəüz oturmuşuq, qarşımızdakı çay da stəkanda soyuyub və Nemət Veysəlli də uşaqlıq illərindən danışır. Martuni qəsəbəsində oxuduğu internat məktəbindən danışır rəhmətlik, unudulmaz yazıçı-publisist, əməkdar jurnalist , tələbə yoldaşı Ziyəddin Sultanova və mənə.... Quzu otarmağından, təpəl camışdan söhbət edir. Evlərinin rəsmini çəkir gözümün qabağında və dünyada ən çox qorxduğu şeyi söyləyir bizə. İlk dəfə onun ən çox qorxduğunun nə olduğu barədə danışanda mən ağlımdan başqa şeylər keçirmişdim. Düşünmüşdüm ki, kənd uşağı itdən, pişikdən qorxan deyil. Ayıdan, canavardan, ilandan, ya da hansısa bir ağır xəstəlikdən qorxa bilər. Amma Nemət Veysəlli ən çox evlərinin yanmasından qorxurmuş. Çünki anası ilə birlikdə yaşadıqları bu evin damı samandan düzəlmişdi. Evin içərisini isidən sobadan bir çınqı düşsə həmin ev bütünlüklə yana bilərdi. Və Nemət də özünü dərk etdiyi günə qədər, yəni o evdə olduğu bütün zamanlarda vaxtından, fəslindən asılı olmayaraq ən çox yanğından qorxmuşdu.

Ermənilər Yuxarı Veysəlli kəndini işğal edəndə, evləri yandıranda Nemətin həmin o qorxusu yadıma düşdü. Və onda mən də anladım ki, yandırmaq bəlkə də ən asan işdi. Amma yananın yuva olduğu, ocaq olduğu, ev olduğu bilinirsə, yaşanırsa, duyulursa, deməli onda ürək də yanır, duyğular da yanır, xatirələr də yanır. O evlə bağlı olan hər şey külə dönür. Bircə insan ömründə, insan taleyindəki izlərdən başqa...

Xatırlayıram, 2018-ci ildə işıq üzü görmüş bu kitabı mənə bağışlayanda Nemət Veysəllinin üzündə, gözlərində çox qəribə, həm də kövrək bir kədər var idi. Adətən, müəllifin yeni kitabı işıq üzü görəndə onun sevinci, onun şadyanalığı tamam fərqli olur. Nemət Veysəllidə isə qəmli, nisgilli bir duyğu hakim idi. Mən kitabı alıb ilk səhifəsini açanda qarşılaşdığım bir cümlə dərhal mənə anlatdı Nemət Veysəllinin durumunu. Həmin vərəqdə yazılmışdı:

**- Anam Nənəxanımın əziz xatirəsinə.**

Kitabdakı bütün fikirlər, hisslər, duyğular Yuxarı Veysəlli kəndi ilə bağlı idi... Nemət müəllimin evi ilə, ocağı ilə, anası ilə bağlı idi. .. Və mən onda bir daha öz-özümə dedim ki, həqiqətən Nemət Veysəlli xatirələr adamıdı, xatirələrdən gələn adamdı... Və orda onu da xatırladım ki, müharibənin birinci mərhələsində Nemət Veysəlli "yaman gün" üçün yığdığı pulunu verib kubik daşlarını daşıtdırıb tökmüşdü doğulduğu evin həyətinə. Orda daha geniş və dam örtüyü də hər kəsin diqqətini çəkə biləcək ən yaxşı materialdan olan ev tikmək istəyirdi. Qəribə və həm də çox maraqlı idi ki, adamların yurdunu, Qarabağı tərk etdiyi bir vaxtda Nemət Veysəlli ev tikmək istəyirdi...

**Bəli, mən yazının əvvəlində vurğuladım ki, insanı yaşadan, həyata bağlayan tellər var. Bax, Nemət Veysəllini də böyük Zəfərimizə qədər yaşadan da həmin o xatirə bağı idi. Amma neyləmək olar ki, qələbəni görsə də, Yuxarı Veysəllidə yenidən ev tikə bilmədi Nemət Veysəlli. Ruhu şad olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

# İşıqlı adam

**Hərə bir cür qurbanı olur ölümün. Kimi ağlaya-ağlaya, kimi isə gülə-gülə, işıq saça-saça. Sən də işıqlıydın, qardaş ! Özün boyda, özündən böyük bir işıq. Həmişə işıq, nur saçırdı üzün, gözün. Yaxınlara, doğmalara, yadlara işıq səpələnirdi nurlu gözlərindən. Adam sənin yanında olanda ölüm adlı qara qüvvənin, kabusun mövcudluğunu unudardı.**

Yaşamaq eşqi böyük idi ürəyində. Daima deyər, gülər, nikbinlik aşılayardı başqalarına. Heç kimə pis gün arzulamazdın. Heç kəsi darda qoymazdın. Hamı sağlığında darıxardı səndən ötrü. Səni görmək istəyərdilər. Şirin dilin, qılığın çoxlarını valeh edərdi. Yanından, sən olan yerdən ölüm yan keçər, başqa səmtə gedərdi. Amma bu mənfur qüvvə sənə də yaxın düşə bildi. Gözlənilmədən, heç kimin ağlına gəlmədiyi bir zaman kəsdi başının üstünü. İndi kim söndürəcək yaxınlarının təpəsindən çıxan tüstünü.

Vallah qəribədir, qəribədən də qəribədir bu gidi dünya. Çəlimli-gedimli desək də, mən bu dünyanın işlərindən, gedişatından baş açа bilmirəm. Çox fikirlərə qərq oluram. Amma bu düşüncələrin içindən məntiqli bir fikir, məna tapa bilmirəm. Yeni bir gün bizi istəyənləri dərdə, kədərə yıxıb, bir göz qırpımında dünyanı tələsə-tələsə tərk edəcəyiksə, daha dünyaya niyə gəlirik?! Axı biz gedəndə qəm, qüssə, kədər dolu bir daşa çevrilib asılırıq doğmalarımızın ürəyindən. Ölümün isə acgöz gözü doymur. Onun heç xəbəri olmur adamın ömründən, yaşından. Elə bir ucdan biçir bizi... Min illərdir ölüm düşüb insan oğlunun dalınca. Gözü doymur, hamının ömrün qırıb, nəfəsin alınca.

Nə bilim, bizim bu dünyada sona qədər qavrayıb, başa düşmədiyimiz hələ çox şeylər var. Nə qədər düşüncəli, dərrakəli olsa da insan oğlu hələ bir çox məqamı olduğu kimi qavrayıb, məntiqli, məna çıxarmaq qabiliyyətində deyil. Bəlkə də, biz hər şeyi olduğu kimi anlayıb, qavrasaq həyat sıxıcı, darıxdırıcı, mənasız olardı. Ömür, gün gözümüzdən düşərdi. Xoş günün adı çəkiləndə vücudumuz ürpəşərdi. Ola bilər, odur ki, insan gərək Tanrının bəxş etdiyi ömrü tamahsız yaşaya. Gözü tox ola, nəfsini boğa bilə, adam çox yerdə. Şükür edəsən Yaradana onun bizi yetişdirdiyi hər günə, saata... Ölüm nədir deyib çox fikirləşmə. Çox zaman ölüm elə bizim içimizdə, aramızda olur. Ölüm doğmalarının sənə yad, ögey münasibət bəsləməsidir. Ölüm dalınca edilən, qırılan qeybətdir. Ölüm sənin sağlığını istəməyən bədheybətdir. Ölüm qardaşının sənə qarşı soyuq münasibəti, qohum-



larının biganə, tikanlı baxışlarıdır. Ölüm ən yaxınlarının sənə vurduğu zərbənin alnındakı qırışlarıdır.Ölüm sənsən, odur, bizik. Çox zaman ətrafımızdakılara qarşı qəddar , insafsız, etinadsız, laqeyid, biganə, diqqətsiz olan bizlərik. Adamlar danışığına bir az xoş anlar qatsa, baxışlarının tikanını çıxartsa, bir qədər də qayğıkeş, diqqətli olsa, adamlar uzun ömür sürər, xoş gün görər.

... İnana bilmədim bu qara xəbərə. Ölümünü bizlərdən ayrıldığını dedilər. İnana bilmədim ki, ölüm sənə, Nəsibə necə qıydı. Səni özünə nəsib etdi. İnana bilmədim...

Yandım, qovruldum, alışdım bu xəbərin odundan, alovundan. Tüstüm təpəmdən çıxdı. İlahi, bu nə işdi, ölüm Nəsibi necə yıxdı?!

Son zamanlar təsadüfən tez-tez görüşərdik. Elə telefonsuz, zəngsiz qarşı-qarşıya gəlirdik. Ən son görüşümüzdə gözlərinin altının boz rəngi və talxıması heç xoşuma gəlmədi. Mən qocalmazdım Nəsib, amma qocalıram artıq. Təbiətin bu mənfi qanunu ilə bacara bilmirəm. Qocalıram. Deyəsən sən də artıq qocalırsan, dedim. Yox qocalmıram, dərdim çoxdur deyə cavab verdin. İndi anladım ki, ölüm artıq sənin yanında imiş. Gözlərinin altında özünə yuva qurubmuş, ürəyinin başında olduğu kimi. Və bir də anladım ki, təbiət bizə verdiklərini son damlasına qədər geri almayınca rahat olmur. Dərdlərini bir dost, qardaş kimi həmişə mənə deyərdi. Sözünü kəsməz, sona qədər dinləyərdim. Sənə mənəvi dayaq olub, dərdlərini dağıda bilməsəm də, diqqətlə dinləyirdim səni. İstəyirdim ki, bir az da olsa fikrin dağılsın, qəlbin avasızın, dərdin azalsın. Və belə anlarda hər şeyə qadir insanın nə qədər gücsüz, imkansız olması məni dərindən yandırırdı. İnanmadım ölmünə, ta sizə, kənddəki ata evinə çatana qədər. Çatdım evin dəhlizində dərdin yerə yıxıb, üstünə çıxdığı, rahat otura bilməyib tavana və qarşıdakı divara baxa-baxa, için-için ağlayan Pənahı gördüm. Bənizi qaçan, heykələ dönən Səyavuşun dilinin quruması dedi öldüyünü. Elşənin qızarmış, qanlı gözləri ölüm xəbərini təsdiqlədi.Bacılarının saçlarını yolub, üzlərini şırım-şırım şumlaması, həyat yoldaşının ürəkləri deşən naləsi artıq bizləri tərk etdiyini söylədi. Atanın adını qoyduğun, oğlun, balaca Eldarın vicudunu qucaqlayıb yana-yana ağlaması, ürəkləri dağlaması dünyadan köç etdiyini xəbər verdi.

... Biri dünyasını dəyişəndə mən təsəlli verə bilmirəm. Ağlama, son qəmin olsun deyə bilmirəm. Məncə belə demək, doğması üçün ağlayana belə təsəlli vermək, ən azı insafsızlıqdır. Bu məncə öləni artıq unut, yaddan çıxart deməkdir...

Təsəlli verə bilmədiyim yaxınlarına, qardaşım Nəsib ! Təsəlli verməmdim ki, unudulmayacaqsan. Sən həmişə beynimizin dərin qatında, ürəyimizin başında olacaqsan. Sən həmişə bizimləsən. Rahat uyu, yat məzarında. Bu dünyada çox əzablar çəkdin, çox arzuların gözündə qaldı. İndi isə soyuq məzar, isti yuvan oldu.

**Təsəlli verə bilmədin heç kimə, axı inana bilmirəm getdiyinə...**

**Adil Misirli**

# "GECƏ KEÇİR" ROMANINDA GECƏNİN KEÇDİYİ MƏQAM

## (Məşhur Azərbaycan yazıçısı İsmayıl Qarayevin "Gecə keçir" romanı haqqında düşüncələr)



*İsgəndər Səklikov*
*Əməkdar müəllimi*

**İnsan zamanın və yaşadığı cəmiyyətin şah əsəridir. O, zamana bənzəyir, yaşadığı cəmiyyətə oxşayır.Hər bir bədii əsər öz müəllifinə bənzəyir, onun xarakterini ifadə edir.**

Söz önü: İsmayıl Qarayevin yaradıcılığı milli adət-ənənələrimizlə, dilimizin təbii ifadələri, rəngarəng bədii təsvir vasitələri ilə zəngin, gözlənilməz hadisələrlə, oxucu hisslərini qəfil sürprizlərlə təlatümə gətirən, tamamilə müxtəlif zövq və dünyagörüşə malik oxucu auditoriyasının bədii tələbatını təmin etmək qüdrətinə malik ədəbiyyat nümunələrindən təşkil olunmuşdur.İsmayıl Qarayev janrından asılı olmayaraq öz yaradıcılığında öz yaradıcılıq ənənəsinə, öz yazı üslubuna, öz məntiqi deyim tərzinə sadiq qalan yazıçıdır.

Yaradıcılıq məhsulunun ona məxsus olduğunu oxucu ilk sətirlərindən, ilk misralarından tanıyır. İsmayıl Qarayevin yaradıcılıq dili el dilinin saflığından qurulmuşdur. Yazıçı bədii dili el dili ilə naxışlanmış şəkildə təqdim edir.

Qısa tanışlıq: Azərbaycanlı yazıçı, şair, publisist, SSRİ Yazıçılar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin üzvüİsmayıl Abuzər oğlu Qarayev 1927-ci ildə Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olmuşdur.

Əvvəlcə tibb təhsili alsa da Sonra BDU-nun filologiya fakültəsini bitirmişdir. Həkimlik və filoloqluq onun həyatında paralel olaraq inkişaf etmişdir. Bədii yaradıcılığa isə ötən əsrin əllinci illərində hekayə, oçerk, povest, roman və digər ədəbi janrlarda yazdığı əsərlərlə gəlmişdir.

Fəaliyyəti tibb və bədii yaradıcılıqla məhdudlaşmır. İsmayıl Qarayev yazıçı, publisist, müəllim, redaktor, tərcüməçi, şair kimi çoxşaxəli yaradıcılıq imkanlarına malikdir.

Ədəbi aləmə 1964-cü ilə çapdan çıxmış ”O və mənim anam” kitabı ilə qədəm qoyan yazıçının doxsana yaxın kitabı nəşr olunmuşdur. Yazıçı Azərbaycan ədəbiyyatında mikroromanların ustad yaradıcısı kimi tanınır.

Ömrünün müəyyən dövründə repressiyaya məruz qalan yazıçının yaradıcılığının həmin mərhələsi də yaradıcılıq baxımından zəngin olmuşdur. Onun zindan həyatını əks etdirən xeyli romanları çap olunmuşdur. Bu əsərlərdən biri olan ”Sxodka” romanı kriminal aləmə həsr olunmuş ən qiymətli əsərlərdən biri hesab olunur. Yazıçı 9 oktyabr 1989-cu ildə vəfat etmiş, Goranboy rayonunun Tap Qaraqoyunlu kənd məzarlığında dəfn olunmuşdur.

Yazıçının ”Gecə keçir” romanında ötən əsrin otuzuncu illərində sinfi ziddiyyətlər fonunda Azərbaycanda cərəyan edən hadisələr faktların və bədii təsvir vasitələrinin dili ilə təqdim olunur.

Əsərin süjet xəttini əri öldürülmüş, oğlunun həyatına qəsd hazırlanan, öz ailəsinin, qohumlarının, kəndinin, elinin, obasının qeyrətini çəkən qadın, ana qohum, nəhayət, qeyrətli vətəndaş Bəstinin hadisələrə münasibətini əks etdirən epizodlar təşkil edir.

Əsər bu cümə ilə başlanır: ” Ayı biləkli, kəl sinəli Alazan ağa mağarın baş tərəfində oturub mütəkkəyə dirsəklənmişdi...

Buxara papağının dalını qaldırıb üzünə kölgə salmışdı. Qartal baxışları ilə mağarın o başında bir-birinə qısılmış yaşmaqlı zənənləri süzür, gözləri ilə doyub toxtayandan sonra lopa bığlarını tumarlayır, fil sümüyündən olan təsbehini şaqqıldadırdı...”



İpucu: Qonşu kəndin sahibi olan Alazan ağa toya Bəstinin qardaşı Sarışın həyat yoldaşı Güldəstəyə görə gəlmişdir.

O, vaxtı ilə Bəstinin ərini öldürtmüşdü. Bütün bunları bilən Bəsti Alazan ağadan alacağı qisasın məqamını gözlədiyi üçün mağarın bir küncündə dayanıb onu müşahidə edir... Bəsti bilir ki, bu kəndin ağası Xatınoğlu Alazan ağaya vasitəçilik edir...

Bəsti Alazan ağanı da, Xatınoğlunu da nəzarətdə saxlayır, onların hər addımını izləyir intiqam məqamını gözləyir.

Eyni zamanda düşmənləri də Bəstidən ehtiyat edir, onunla qarşılaşmaq istəmir, lakin onun aradan götürülməsi üçün tədbirlər tökür, yollar arayırlar.

Yazıçı əsər boyu Bəsti ilə Alazan ağanı və Xatınoğlunu dəfələrlə gecə, gündüz, aydınlıq, dumanlıq, çiskin, hətta tufanlı zülmət gecələrdə, dərədə, təpədə, qayalıqda, meşədə və digər kriminal şəraitlərdə qarşılaşdırır.

Yazıçı Bəsti ilə qan düşmənlərini dəfələrlə zülmət gecələrdə ərinin miras libasında qara köhlən üstündə üzbəüz gətirir.

Qısa dialoq, zəhimli duruş, kəskin baxışlar ustad yazıçı qələminin qüdrəti ilə bədii boyalarla təsvir olunur. Hadisələrin bu cür təsviri, situasiyaların qoyuluşu ən soyuqqanlı oxucunun belə intizarda qalmasına, ürək çırpıntılarına, həyacanına səbəb olur.

Belə dialoqlar üçün yazıçı çox zaman şiddətlə yağan yağışlar, qəzəblə çaxan ildırımlar, tufanlarla yüklənmiş zülmət gecələri seçir. Və... hər dəfə də də qələbə Bəstiyə nəsib olur.

Müəllif Bəsti timsalında həqiqətin, ədalətin, qeyrətin, namusun, ağlın, insanlığın qələbəsini təsvir və təqdim edir. Əsər el dilində, el arasında işlənən frazeoloji sözlərlə naxışlanmış, bədii boyalarla bəzədilmiş, sadə, oxunaqlı bir üslubda təqdim olunduğu üçün ən tələbkar oxucu zövqünü belə təmin edir, ən zövqlü oxucu ruhunu nəvazişlə oxşayır. Yeri gəlmişkən onu da deyim ki, el dilində, atalar sözlərindən, zərbi-məsəllərdən, sətiraltı eyhamlardan, məntiqi dialoqlardan istifadə etməklə fikir ifadə etmək İsmayıl Qarayev yaradıcılığının xarakterik, xoşagələn, zövq oxşayan məziyyətlərindəndir. Əsərin hər səhifəsi,




hətta hər cümləsi belə incə bədii təsvirlərlə doludur. Yazıçı fikirlərini eyhamlarla təqdim etməklə oxucunu məntiqlə düşünməyə sövq edir. Bu üslub İsmayıl Qarayev yaradıcılığından ana xətt kimi keçir. Oxucu onun təbiət təsvirlərini, ümumiyyətlə, hadisələrin və epizodların təsvirini oxuduqca özünü təbiətin qoynunda və hadisələrin içərisində hiss edir.

Əziz oxucum, söhbət ”Gecə keçir” əsərindən getdiyi üçün mən burada İsmayıl Qarayev yaradıcılığını bütünlüklə təhlil etmək, digər Azərbaycan və dünya yazıçılarının yaradıcılığı ilə müqayisə etmək fikrində deyiləm.

Hazırda ədəbi tənqidlə məşğul olanlar çox zaman dünya ədəbiyyatından çoxu nümunələr gətirməklə fikirləri əsas məqsəddən uzaqlaşdırırlar.

Bəzən mənə elə gəlir ki, onlar fərqinə varmadan etdikləri mütaliənin miqyasını nümayiş etdirməklə, oxuduqları müəlliflərin və onların əsərlərinin adlarını sadalmaqla müəyyən bir əsərin təhlilindən diqqəti yayındırırlar.

Azərbaycan ədəbiyyatında elə yazıçılarımız var ki, onların əsərləri dünya ədəbiyyatının ən məşhur əsərləri ilə yanaşı dayanmaq qabiliyyətinə malikdir.

Bir oxucu olaraq İsmayıl Qarayevi də bu yazarlardan, onun əsərlərini də həmin əsərlərdən hesab edirəm. Yazıçının əsərlərini oxuduqca oxucu qəlbinə bir doğmalıq axır.

Ədəbi tənqid, ədəbi prosesin, bədii əsərlərin izahına, təhlilinə, qiymətləndirilməsinə, həmçinin yaradıcılıq prinsiplərinin müəyyənləşdirilməsinə və təsdiqinə həsr edilən ədəbi-bədii yaradıcılıq növü kimi ədəbiyyatşünaslığın əsas sahələrindən biri hesab olunur. Ədəbi tənqidin vəzifəsi müasir ədəbi prosesi, yeni yaradılan əsərləri, habelə keçmiş irsi müasir ictimai və ədəbi-estetik tələblər baxımından dəyərləndirməkdir.

Lakin təəssüf ki, indi bəzi tənqidçilərinfikirlərində qərəzçilik və subyektivlik çalarları qabarıq şəkildə özünü göstərir. Arzu edərdim ki, İsmayıl Qarayevin əsərləri külliyyatı yenidən müasir əlifbamızla dövlət sifarişi ilə nəşr olunsun və ədalətli, obyektiv ədəbi tənqidlə təhlil olunsun.

Xatırlatma: ”Gecə keçir” romanı ilk dəfə 1973-cü ildə ”Gənclik” nəşriyyatında iyirmi min tirajla çap olunmuşdur. Əsər diqqətli senzura, tələbkar, ustad redaktorlar, korrektorlar tərəfindən ərsəyə gətirilmişdir.

Əziz oxucum, bu, müasir dövrdə eyni statuslu çap məhsulundan on dəfə artıqdır.

Əsərdə baş verən hadisələr dağətəyi bir regionda, tərəkəmə həyatı keçirən bir obada baş verir. Əsəri oxumağa başlayan hər bir oxucunun gözləri önündə onun öz eli-obası, öz doğma kəndi, kəndinin adamları canlanır. Oxucuya elə gəlir ki, hadisələr onun kəndində baş verir. Əsərin qəhrəmanları və personajları onun tanıdığı adamlardır. Qışlaq onların qışlağı, yaylaq onların yaylağıdır. Arandan yaylağa, yaylaqdan arana gedən yolun hər qarışı ona tanışdır. Sanki müəllif həmin yerlərin xəritəsini çəkmiş, eskizini cızmışdır.

Ədəbiyyatımızda dara düşəndə, elindən, obasından qaçmağa məcbur olanda düşmənin öz ailəsini dostuna deyil, ən qatı, lakin mərd düşməninə etibar etməsini əks etdirən bir çox epizodlar yer almışdır. ”Gecə keçir” romanında İsmayıl Qarayev oxucu ruhunu məşhərə çəkən dialoq fonunda qatı düşmən olan Alazan ağa ərini öldürdüyü, özünün və qardaşının ailəsinin namusuna tamah saldığı, dəfələrlə öldürülməsinə göstəriş verdiyi, lakin buna nail ola bilmədiyi Bəstiyə etibar edir.

Əsərdən:...Alazan qalxdı, Bəstinin yanından irəli keçdi, belini çəkə-çəkə addımladı. Yeriyəndə yeri titrədən kişi indi beli əzilmiş ilan kimi sürünürdü...

Dikdirdə dayandı, yolun çökəyinə baxa-baxa danışdı:

- Şərabanını sənə tapşırıram, Bəsti bacı... O nə günahın yiyəsidir ki?..

Bəsti Şərabanı xanımı ən qiymətli əmanət kimi bir çox təhlükələrdən qoruyur, ona ev tikir, onu məişət avadanlığı və qida ilə təmin edir. Onun şəxsiyyətini, sağlamlığını, yeməyini diqqətdə saxlayır, namusunu öz namusu kimi hifz edir.

**Söz sonu: İsmayıl Qarayev ”Gecə keçir” romanında Azərbaycan ədəbiyyatına Bəsti xanım timsalında tipik milli Azərbaycan qadını obrazını təqdim etmişdir. Bəsti bir çox epizodlarda İsmayıl Şıxlının ”Dəli kür” romanında yaratdığı Cahandar ağadan da üstün kişi xasiyyətlərinə malikdir.**

**Goranboy rayonu,**
**Səfikürd kəndi**

## *Nazirlik: Bu dərmanların molekulyar tərkibi dəyişməyib*



**İxtioz və bullyoz epidermoliz xəstəliklərinin müalicəsində istifadə olunan dərman preparatlarının molekulyar tərkibi dəyişməyib.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyindən uşaqlara verilən bahalı dərmanların ucuz və keyfiyyətsiz tərkibdə dəyişdirilməsi iddiaları ilə bağlı sorğuya cavabında bildirilib.

Qeyd olunub ki, bu səbəbdən həmin dərmanların uşaqlara mənfi təsiri istisnadır:

”Səhiyyə Nazirliyinin mütəxəssisləri dəfələrlə valideyinlərlə bu barədə söhbətlər aparıb və onlara dərmanların tərkibinin dəyişməməsini təsdiq edən beynəlxalq standartlara əsasən klinik protokollar barəsində məlumatlar veriblər. Zəruri dərman preparatları və ləvazimatları alınaraq, davamlı olaraq TƏBİB-in istifadəsinə verilir”.

Məlumata görə, hazırda xəstələrin reyestri yaradılıb, TƏBİB-in tabeliyində olan Uşaq Dəri-Zöhrəvi Dispanseri və Respublika Dəri-Zöhrəvi Mərkəzində qeydiyyatda olan xəstələrin dispanserizasiyası keçirilib.

Bildirilib ki, dispanserizasiyadan keçən xəstələrə reseptlər yazılıb və imtiyazlı qaydada TƏBİB-in tabeliyində olan 9 nömrəli şəhər poliklinikasının aptekindən təminatı həyata keçirilir:

”Proqrama əsasən Komissiya bu xəstəliklərin müalicəsi və profilaktikası işinin təşkili məqsədilə dərman preparatlarının tərkibi, illik miqdarı, habelə istifadəsi barədə hər ilin sonunda Səhiyyə Nazirliyinə hesabat təqdim edilir. Nazirliyə müvafiq tədbirlər proqramında nəzərdə tutulan işlərin həyata keçirilməsinin yalnız əlaqələndirilməsi və icra vəziyyəti barədə ildə bir dəfə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılıb”.

**Xatırladaq ki, bir qrup valideyn bu gün Səhiyyə Nazirliyinin binasının qarşısında yuxarıda qeyd olunan xəstəlikdən əziyyət çəkən uşaqlara verilən bahalı və keyfiyyətli dərmanların dəyişdirilərək daha ucuzları ilə əvəz olunmasına görə etiraz edib.**

Azad Müzəffərli



# Suallar labirintində gərdiş

## (Nicat Həşimzadənin "Sərhədsiz yazılar" kitabı barədə qeydlər)

**Yazıçı Nicat Həşimzadənin "Sərhədsiz yazılar" kitabının bu günlərdə keçirilən təqdimat mərasimi ilk növbədə olduqca səmimi abı-havası ilə yadda qaldı. Həmin əsər "Qarışqa" nəşriyyatının ilk məhsuludur. Müəllif kitabı bu dünyadan vaxtsız köçən şair dostu Rauf Ranın əziz xatirəsinə həsr edib. Əsərdə mərhumun yaradıcılığına və şəxsi insani keyfiyyətlərinə geniş yer verilib. Cəmi 166 səhifəlik bu kitabda umman mətləblər yer alıb. Vətən, Millət, həqiqi bəşəri və milli-mənəvi dəyərlər, insanın daim axtarışda olmasının vacibliyi, eləcə də, bu səpgili çoxsaylı fəlsəfi və həyati mahiyyət kəsb edən məsələlər hərtərəfli idrak süzgəcindən keçirilib, Azərbaycan və dünya ədəbiyyatı arasında çoxşaxəli paralellər aparılıb, fərqli cəhətlər geniş təhlil olunub.**

"Sərhədsiz yazılar" kitabı milli mənliyə sahib çıxmağa çağırış, hayqırtı xarakteri daşıyır. Müəllifin təvazökarlığı, mərifəti, çöhrəsi və gözlərindəki nur əsərdəki esselərdən də aydınca süzülür. Kitabdakı həqiqətən sərhəd tanımayan yazılar zəngin dünyagörüşü, əsl vətəndaşlıq mövqeyi və çox dəyərli digər insani keyfiyyətlərə dəlalət edir. Əksər esselər əsasən cəmi 3-4 səhifə həcmindədir. Yəqinki, bu da indiki oxucuların səbir kasasının məhdudluğundan qaynaqlanır. Nicat Həşimzadə daim suallar labirintində vargəl edən qələm əhlindəndir. O, sanki sayagəlməz həyati suallarla amansız döyüşdədir. Özü də bu sualların xeylisi şəxsi icadıdır. Düşünüb-daşınmaq qanında, canındadır. Müəllif öz yazıları ilə soydaşlarını Vətən və Millət naminə şam kimi yanmağa haraylayır.

Nicat Həşimzadənin ədəbiyyata bütün varlığı ilə bağlılığı və yaşantıları insanı heyrətə gətirir. Qənaətimi elə yenicə təqdimatı keçirilən kitabdan bircə əyani misalla təsdiqləmək istərdim. O, İspaniya yazarı Migel de Unamunonun "İki ana" hekayəsini oxuyarkən çox sarsıldığını və əsəb sisteminin pozulduğunu bildirir. Həmin məqamda hekayədəki qadın surətlərdən Raşeli saçlarından tutaraq Nizami küçəsi boyunca yerlə sürümək istədiyini səmim etiraf edir. Açığı, buna lap məəttəl qaldım.

Nicat Həşimzadənin bir sıra esseləri kağız kitablara indiki soyuq münasibətə qarşı Koroğlu sayağı nərəsi, hayqırtısıdır. O da elektron kitablara keçidi tam həzm edə bilmir. Həqiqətən, mütaliə etdiyin kitabı təkcə gözlərinlə deyil, əllərinlə, bütün vücudunla hiss etmək sözlə ölçüyəgəlməz başqa bir aləmdir. Belədə, əsl ədəbiyyat nümunələrini sanki doğmalarını bağrına basmış kimi duyursan, mahiyyətinə bütün varlığınla nüfuz edirsən.

Kitabdakı esselərin əhatə dairəsi ucsuz-bucaqsızdır. Mütaliənin miqyasına ən azı həsəd aparmalı olursan. Özü də onun oxuduğu kitabları necə zərgərdəqiqliyi ilə seçməsi də diqqəti çəkir. Azərbaycan ədəbiyyatına hərtərəfli bələd olab soydaşımız dünya ədəbiyyatından da kifayət qədər baş çıxarır. Volter, Jan-Jak Russo, Viktor Hüqo, Pol Oster, İvan Qonçarov, Milan Kundera, Con Faulz, Stendal, Rabindranat Taqor, Ceyms Coys, Orxan Pamuk, Qabriel Qarsia Markes, Henri Miller, Migel de Unamuno, Kobe Abe, Alfons de Lamartin, İrvinq Stoun və digər çoxsaylı dünya şöhrətli ədiblər və tanınmış simalar barədə esselər çox əhatəlidir, olduqca vacib məsələlərə toxunulub. Rabindranat Taqora istinadən müəllif bildirir ki, ədəbiyyat dünyanı insan qəlbinin işığı ilə nurlandırır. Məncə, elə insanın qəlbinin tükənməz nura boyanmasında, təfəkkür və təxəyyülünün tumurcuqlamasında ədəbiyyatın da əvəzsiz rolu danılmazdır.

Nicat Həşimzadənin yazıları yeniyetmə və gənclər üçün də çox vacibdir. Əslində bu kitabdakı əsərlər faydalı ədəbiyyat nümunələri seçimi baxımından da dolğun bələdçi rolunu oynaya bilər. Həmin esselər məhz ilk növbədə yeniyetmə və gənclər üçün çox faydalıdır, onları intellektual və fəlsəfi dünyaya, daim canlı olmağa, həyata diri gözlə baxmağa, milli mənliyə həssas münasibətə səsləyir. Kitabın təqdimetmə mərasimində Nicat Həşimzadənin müəllimi olduğu Azərbaycan Dillər Universitetinin xeyli tələbəsinin iştirakı da tədbirə əvəzsiz ovqat qatdı. İş orasındadır ki, həmin təhsil ocağında reallaşdırılan məqsədyönlü və konkret tədbirlər sayəsində tələ-




bələr hərtərəfli mütaliəyə kökləniblər. Universitetin rektoru, tanınmış yazıçı, alim və ictimai xadim Kamal Abdullanın təşəbbüsü ilə bu ali təhsil müəssisəsinin tələbələrinin şəxsi kitabxanasının formalaşması və dünyagörüşlərinin genişləndirilməsi məqsədilə təşkil olunan pulsuz kitab layihəsi təqdirəlayiqdir. Yeri gəlmişkən, zənnimcə, həmin layihənin respublikamızda geniş tətbiqi istiqamətində ali təhsil ocaqlarında və müxtəlif qurumlarda konkret iş aparılmasının artıq məqamı yetişib və bu ədəbiyyat aləminə mühüm töhfə olardı.

Yeni kitab müəllifin ədəbiyyatşünaslığa kifayət qədər dərindən bələd olmasına, ədəbi cərəyanları, ədəbi prosesləri nə qədər yaxından izləməsinə və bu baxımdan şəxsi töhfələrini vermək üçün səyini əsirgəməməsinə dəlalət edir. Nicat Həşimzadənin fəlsəfə ilə doğmalığı da diqqətdən yayınmır, onun fəlsəfi düşüncə tərzi ən azı rəğbət doğurur. Kitabdakı esselər həm də onun eqoizmə yaxasını verməməsinə səni əmin edir. Qismən, qədərincə eqo anlaşılandır və bu da vacibdir. O, öz təbirincə desək sərhədsiz yazılarında Azərbaycan ədəbiyyatının dünya çapında kifayət qədər potensiala malik olduğunu, bu istiqamətdə istər dövlət, istərsə də imkanı çatan şəxslər səviyyəsində ardıcıl iş aparılmasının zəruriliyini daim təbliğ edir. Kitabda Azərbaycan və Türkiyə tarixi, incəsənəti, fəlsəfəsi, musiqisi və ədəbiyyatında mühüm xidmətləri olan Mustafa Kamal Atatürk, Mirzə Fətəli Axundov, Üzeyir Hacıbəyli, Mirzə Cəlil, Mövlanə Cəlaləddin Rumi, Mirzə Fətəli Axundov, Əhməd bəy Ağaoğlu və digərləri barədə də ətraflı esselər yer alıb. Müasir yazıçı və şairlərin yaradıcılığına da geniş yer verilən bu kitab hərtərəfliliyi ilə diqqəti çəkir.

Düzdü, kitabdakı bəzi esselərdə mövzu sanki çırmaqlanıb, tamlıq təsiri bağışlamır. Amma, di gəl, bununla belə köklü mövzular yenə də səni düşündürür, daşındırır, esselərdə qoyulan başlıca suallara öz cavablarını sıralamağa yönəldir, təfəkkür və təxəyyülünə güc gəlməli olursan. Belədə, düşünürsən ki, bəlkə, bu da müəllifin məqsədyönlü şəkildə ustalıqla ötürməsi xarakteri daşıyır. Məsələn, Gilqameş dastanına istinadən müəllif diqqətə çatdırır ki, "Tanrılar insanı yaradanda ona ölümü paylaşmaq hüququ verirlər" kəlamı görəsən hansı anlam daşıyır.

Nicat Haşımzadə bu barədə öz mülahizəsini irəli sürsə də, sualın cavabını açıq saxlayır. Şəxsən mənim qənaətimcə, burada söhbət insanın nəsil artırması hesabına ölümü paylaşdığından gedir, yəni hamı bu dünyadan köçsə də, gələcək nəsillərinin şəxsində ölümün qapısını daim açıq qoyur.

**Nicat Həşimzadənin hayqırtı xarakterində başlıca suallarından biri də indiki oxucu qıtlığını aradan qaldırmağın mümkün yolları ilə bağlıdır. Məncə, bizdə kitablar ona görə oxunmur ki, ölkəmizdə əsl anlamında bazar iqtisadiyyatı yoxdur. Yəni keyfiyyət həlləki tam başlıca meyar deyil. Biz müstəqilliyin ilk illərində kortəbii şəkildə bazar iqtisadiyyatına "keçdik". Əslində, subyektiv səbəblərlə yanaşı bunun obyektiv səbəbləri də var idi. Əsrlər boyunca(23 ayı çıxmaq şərtilə) başqalarının əsarəti altında yaşayanların birdən-birə əsl bazar iqtisadiyyatı qurması sadəcə nağıldır, axı, biz təkamül yolu ilə öz iqtisadiyyatımızı qurmamışdıq, özümüzə məxsus iqdisadi təfəkkürümüz yox idi. Digər tərəfdən müstəqilliyin bərpasından sonrakı ilk illərdə cəmi bir neçə milyard manatlıq büdcəsi olan ölkədə kamil bazar iqtisadiyyatının əsaslarını yaratmaq mümkün idimi?!. İnanın, haçan bizim ölkəmizdə, cəmiyyətimizdə subyektivliyi keyfiyyət əvəzləyəcəksə, əsl rəqabət mühiti yaranacaqsa, elə ilkin mənəvi ehtiyaclardan biri də məhz ədəbiyyata olacaq, özü də kütləvi şəkildə. İnşallah, həmin dövrlərdə qələm əhli də alın təri əvəzində layiqincə haqqını alacaq, peşəkarların əsərlərindən ötəri nəşriyyatlar vur-çatlasında olacaq. Qardaş Türkiyənin timsalında buna əmin ola bilərsiniz. İndiki Türkiyənin istər siyasi, istər iqtisadi və mənəvi gücünün dayağı rəqabətədavamlı milli bazar iqtisadiyyatıdır!!! Ona görə də qardaş ölkədə istər ədəbiyyat, istərsə də sənət adamları qədərincə haqqına çatdırılır və dünya çapında özünütəsdiq istiqamətində konkret sözlərini deyirlər. Əgər, fikir versəniz, dünyanın inkişaf etmiş ölkələrində ədəbiyyata mənəvi ehtiyac qətiyyən səngimir, ona görə ki, fərdlərin rəqabətədavamlı və geniş dünyagörüşlü olmasında ədəbiyyatın özünəməxsus və əvəzolunmaz yeri var. Bu baxımdan nəinki gələcək, elə indiki qələm əhlinə də arzusunda olduğumuz bu səadəti də bölüşməyin qismət olması diləyi ilə dostum Nicat Həşimzadəni bir daha təbrik edir, ən ümdə arzuların çin olsun deyirəm!**

---



Sahibə YUSİF

### Ən yaxşı hakim vicdandir

Ən yaxşı hakimdir qana bilənə
Özünün içindən boylanan səsi.
Düşünə bilənə, duya bilənə,
Ən ağır ləkədi vicdan ləkəsi.

Tükənmiş birini anlamaq üçün,
Onun özü kimi yanasa gərək.
Kim bilir bəlkədə qəhramalıqdır,
Onun həyatını yaşaya bilmək.

Əlbəttəçoxxoşbəxolardıinsan,
Tutsamövqeyini,tapsayerini.
Özünügöylərədartıb, çəkənlər,
Anlayardayazı,bilməzdərini.

Mən də az görmədim, az rast gəlmədim,
Toplumun əlində yox olanlara.
İnanın?Tanrının mükafatı var,
Gözüdə, könlüdə tox olanlara.

***

Tanrı fərmanını heçə sayanlar,
Tanrı öz hökmün də yanıla bilməz.
Taleyin yazısın yazan ələmin
Qüdrəti tükənib,danıla bilməz.

Niyə kimliyini danırsan,insan,
Təkəbbür de niyə içinə dolur?
Nə yerə, nə göyə sığırsan, insan,
Torpaqdan yaranan Allahmı olur?

Aldığın nəfəsin qiymətini bil,
Hər nəfəs saçının sanı qədərdir.
Qismətin açarı onun əlində,
Artıq arzu etsən bil ki,hədərdir.

Səmanın altında, torpağın üstə
Yaşamaq özüdə böyük hikmətdir.
Dünyanın hecliyin duyub,anlasan,
Görərsən axirət əbədiyyətdir.

### Qapım üzünə açıqdır

Hansı ürəkdə azmısan,
Yo tapıb çıxa bilmirsən?
Bu tilsimnecətilsimki,
Gücgəlibyıxabilmirsən?

Bəlkə tor qurub hörümçək,
Sənin qismət pətəyinə?
Tanrı bilib yapışmısan,
Biri blisin ətəyinə?

O səadət nədir məgər,
Bəxtimə yaza bilmirsən?
Nəsgördüyüm bir yuxunu,
İllərdir yoza bilmirsən...

Görmürsənmi məhəbbətim,
Yoluna düzülüb gəlir?
Göz yaşlarım muncuq kimi,
Gözümdən süzülüb gəlir.

Mənim pərvanə ürəyim,
Dərdi hardan qanır axı.
Harda eşitsəm adını,
Od, alovsuz yanır axı.

Onsuzözündəbilirsən,
Ruhumsənəalaçıqdır.
Nəvaxtdönsənmənə sarı,
Qapımüzünəaçıqdır

### İlahi

Nə çətinmiş İlahi,
İsbat və razı salmaq.
Məchul bir nöqtə kimi,
Gözlərdən düşüb qalmaq.

İnandığın duanın ...
dönüb batil olmağı,
Aldığın nəfəsinin,
Sənə qatil olmağı.

Günah etdikdən sonra,
Əfv yolunu gözləmək.
Dilindəki tövbəni,
Gözlərində gizləmək.

O "Baqi"zənn etdiyin
həyata birdə baxmaq,
Göylərə gözün dikib,
torpaq üçün darıxmaq...
Nə çətinmiş İlahi ...!

### Mənə yüksəkdən baxma

Mənə yüksəkdən baxma!
En, yanıma gəl hərdən.
Təkliyin rəsmin çəkən
İkicəcik rəssam var,
Biri sənsən, birimən.

Mənə yüksəkdən baxma!
Səni görə bilməkçün,
Məndə azıram orda,
Bədənim yerdə qalır,
Ruhumsa buludlarda.

Mənə yüksəkdən baxma!
Səni yaxşı görmürəm.
Gözlərim bulanıqdı,
Düş otur ürəyimdə,
Qəlbim sənə qayıqdı.

Mənə yüksəkdən baxma!
Gəl toxun saçlarıma.
Titrət könül varımı,
Sənə etiqad edim,
Silim yazdıqlarımı.

Mənəyüksəkdənbaxma!
Görümki, yanımdasan.
Gəlib çatıb gümanım,
Bu günə xoşbəxt olub,
Keçən dünəni danım.

Mənə yüksəkdən mbaxma!
Axı kimlər biləcək,
Guyaki, məndə olsan?
Dünyamı dağılacaq,
Bircə gün bəndə olsan?...

### Geri dönməz

Duyğularım pərən-pərən,
Fikirlərim bir az dalğın.
Çiyinimdə həsrət yükünü,
Daşıyıram yorğun-yorğun.

Göz yaşlarım yollarıma,
Səpilib yuyur izimi.
Qoymur dərdimi aşmağa,
İnadla bükür dizimi.

Yaradanın nəzərinə,
Ruhum qalıbdı tamarzı.
Xoşbəxtliyə çatmır əlim,
Bəxtimdən özüm narazı.

İçimdə yanan ocağın,
Neyləsəm də, odu sönməz.
Ömürdən gedən gəncliyim,
Yalvarsam da, geridönməz.



# BAYAT



№ 32 (892)



*Nəbi Xəzri*

## *Dəniz, göy, məhəbbət*

I

- Dənizi hədiyyə verirəm sənə
Mən dedim, sən baxdın, sən gülümsədin.
Göylərin şəfəqi düşdü üzünə.
- Mən isə... göyləri verirəm, - dedin...

Ayrıldıq qəribə hədiyyələrlə,
Göylər eşqim kimi mənə əzizdir.
Ayrıldıq dənizlə, ağ ləpələrlə,
Necə aparasan? Dəniz dənizdir.

Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyim sahilə gələsən bir də.
Məni görməyəndə o mənəm - deyə,
Mənimlə danışıb, güləsən bir də.

- Əgər görüşməsək, bizə dağ olar,
Dedim, neçə dəfə belə dedim mən.
Dəniz sahilinə qayıtmaq olar,
Göylərin sahili varmı, gedim mən?!

Düşündüm, ayrıldıq gələndən bəri,
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdinmi mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?!

II

Mən bir dənizəm ki, eşqim səhərdir,
Səni düşünürəm, əzizim, yenə.
Mənim dalğalarım xatirələrdir,
Qoy çatsın qəlbinin
sahillərinə.

Əsl məhəbbət ki, böyük hünərdir,
Coşar ümman kimi təzə arzular.
Mənim dalğalarım
xatirələrdir,
Orda tufan da var, burulğan da var.

Dənizəm, eşqimdən qaçmaq hədərdir,
Mən ki, adlayıram çölü, çəməni.
Mənim dalğalarım,
xatirələrdir,
Gecə də, gündüz də tapacaq səni.

III

İstəsən yuxuna gələrəm sənin,
gələrəm dəniz kimi.
Üzünə incilər çilərəm sənin,
çilərəm dəniz kimi.
Yoluna şəfəqlər səpərəm hərdən
səpərəm dəniz kimi.
İstəsən üzündən öpərəm hərdən,
öpərəm dəniz kimi.
Adını qəlbinin sahillərinə
yazaram dəniz kimi,
"Sevirəm" söyləsən bir axşam mənə,
Susaram dəniz kimi,
Susaram dəniz kimi.

IV

Dünyada sakitlik aramadım mən,
Günəş kimi parla,
səhər kimi gəl.
Göylərtək yuxuma gəlmək istəsən,
Sən aylı, ulduzlu göylər kimi gəl.

Adla qucağından gur tufanların,
Mən baxım axşamdan səhərə kimi.
Adla ağ yoluyla kəhkəşanların,
Parlasın hər ulduz xatirə kimi.

Gəl, qış gecəsində,
yaz səhərində,
Dənizi göylərdən ayırmaq olmaz!
Sonsuz kainatın üfüqlərində,
Sən görüş vaxtını şimşəklərlə yaz!
Mən gərək nəğmətək səni dinləyəm,
Sən mənim eşqimlə, ürəyimləsən.

Nə qədər göylər var, mən səninləyəm,
Nə qədər dəniz var, sən mənimləsən.

## *İkilikdə*

Gəl bölək dünyanı ikilikdə biz
Dərə mənə düşsün
Dağı sən götür.
Qalsın yer üzündə qoşa izimiz
Qara mənə düşsün
Ağı sən götür.

İlin evladıyıq yayla qış kimi
Fəsillər yaşasın yanaşı məndə
Birgə bir yerdəyik gözlə qaş kimi
Gözlər səndə qalsın
Göz yaşı məndə.

Gündüzü, gecəni əziz saxlayaq
Günəş sənə düşsün
Ay mənə qalsın
Coşğun sellər kimi birgə şağlayaq
Dəniz sənin olsun çay mənə qalsın.

Bizik bu dünyadan sənilə şərik
Bizsiz nə qış gülər, nədəki bahar
Həyatda hər şeyi bölə bilərik
Amma bölünməyən:
Bir sevgimiz var...

## *Ay ürək*

Yaralar qövr edir təzədən ürək,
Niyə könül verdin ona sən ürək,

O səni sevmədi, sən niyə sevdin!
Səni sevməyəni sən niyə sevdin!

Eşqinə mən qurban gedim ay ürək,
Dedim, neçə dəfə dedim ay ürək,

Sevməyir o səni, niyə sevirsən,
Səni sevməyəni niyə sevirsən,

Sözümə baxmadın, indi yan ürək,
Yan ey mənim tək peşman ürək,

Sevmirdi o səni, niyə sevirdin!
Səni sevməyəni niyə sevirdin!..

## *Söylə, bəs hardaydın?*

Sən gəldin,
Zülmətdən gün çıxdı birdən,
Nə qədər ecazkar göründü cahan?
Səni gözləmişdim ömrüm boyu mən,
Söylə, bəs hardaydın sən bu vaxtacan?

Keçib göy dərəni,
yaşıl çəməni,
Elə yaxın gəldin, elə uzaqdan!
Bəlkə min il əvvəl görmüşdüm səni,
Sərin su içəndə sən buz bulaqdan!

Elə bil üzləşdim
ilahi sirlə,
Bu nə möcüzədir, bu nə heyrətdir?!
Məhəbbət ölçülmür illə, əsrlə,
Məhəbbət ölçüsü əbədiyyətdir.

Zöhrə ulduzu tək
yanıb obaşdan,
Üfüqlər aşırdın xəyallarımda.
Sən hələ dünyaya göz açmamışdan,
Küsüb-barışırdın xəyallarımda.

Sən gəldin ömrümün
qarlı qışında,
Ruhumda ehtiras, ürəyimdə qəm.
Cənnət qapısının elçi daşında,
Hazırdım min il də səni gözləyəm.

O nəydi?
Zülmətdən gün çıxdı birdən,
Nə qədər ecazkar göründü cahan!
Səni axtarırdım ömrüm boyu mən,
Söylə bəs hardaydın sən bu vaxtacan?

## *Şeir mənim üçün bir kainatdır*

Şeir mənim üçün bir kainatdır,
Onun ulduzları, Günəşləri var.
Şeir mənim üçün sirli həyatdır,
Onun öz sevinci, öz kədəri var.

Şeir də yaşayır öz baharıyla,
Ona yol da verir sonsuz asiman.
O keçir təbii addımlarıyla,
Süni peyklərin aşdığı yoldan.

Keçir addım-addım kənddən, şəhərdən,
Ulduzlar üstünün naxışı kimi.
O keçir başına yağsa da hərdən,
Tənqidlər meteor yağışı kimi.

Sözüm də gücünü ellərdən alıb,
Qoy uçsun göylərə, o, birnəfəsə.
Qalın qatlardakı yanan peyk olub,
Nə qəm, neçə şeirim geri dönməsə.

Nə qədər qol-qanad, açsa da ilham,
Mən ana torpağın sinəsindəyəm.
Nə qədər göylərə uçsa da ilham,
Mən yerin cazibə qüvvəsindəyəm.

Yenə düşüncələr aparır məni,
Deyirəm: susmaram boran-qar olsun.
Gəzirəm sevdiyim ana Vətəni,
Misralar gəzirəm, misralar olsun.

Şeirə vurulduğum, de, aymı, ilmi?
Qəlbim arzularda, diləklərdədir.
Ən böyük kainat sənət deyilmi,
Sənət kainatı ürəklərdədir.

Hər kəs xoşbəxt olar öz diyarında,
Əzizdir əzəldən öz yerim dedim.
Kaş xalq ürəyinin fəzalarında,
Dünyalar dolaşa bir şeirim dedim.

Baxıram göylərə qəlbimdə şeir,
Ulduzlar uzaqdan göz vurur mənə.
Kainat sirrini açsa da bir-bir,
Sənət kainatı sirlidir yenə.

Bəli, şeir mənə bir kainatdır,
Sözlü, soraqlıdır bir kitab kimi.
Bəli, şeir mənə sirli həyatdır,
Açsam da, bağlıdır bir kitab kimi.

## *Qadınsız ev*

Çiyinlərdə yerin-göyün qəmidir,
Ah çəkirsən asimana yetişir.
Qadınsız ev -
tufandakı gəmidir,
O nə batır, nə limana yetişir.

Ağır dərdlər faciənin gücüdür,
Nə sevinib, nə də gülə bilirsən.
Qadınsız ev -
xəstəxana küncüdür,
Nə dirilir, nə də ölə bilirsən.

Fələkdə neçə-neçə sirr yatır,
Səni yıxır, polad kimi o sınmır.
Qadınsız ev -
günəşsiz bir dünyadır,
Nə od yansa, qızınmır ki, qızınmır.

Sən bir quşsan, ruhun sınmış qanaddır,
Heç baxma ki, külək sərin, meh ılıq...
Qadınsız ev -
ulduzsuz kainatdır,
Həmdəmindir sükut ilə qaranlıq.

Ey kişilər!
Sevginizi əzizləyin cahanda,
Qadınlığın sədaqətdir ilk adı.
Vay o gündən -
ömrün axır anında,
Gözünüzü qapayan da olmadı!

## *Şəklinə baxıram*

(Mərhum ömür yoldaşım Gülarə üçün)

Sən getdin cahanın
Dərdli çağında.
Bir çaya döndüm ki, sısqa axıram.
...Sənsiz bir otağın tənhalığında
Şəklinə baxıram...
Yenə baxıram.

Əsir pəncərədən
Yel incə-incə,
Sanki isti nəfəs üzümə dəyir.
- Gecən xeyrə qalsın - söylərəm gecə,
Səhər də söylərəm: sabahın xeyir!

Ürəyim narahat,
Qulağım səsdə
Dövrün haqsızlığı titrədir məni.
Çevrilib mələyə başımın üstdə,
Ruhun gecə-gündüz hifz edir məni.

Axı, səninlədir hər anım mənim,
Sən mənim nisgilim, pərişanımsan.
Gündüz şəkillərdə susanım mənim,
Gecə yuxularda danışanımsan;
- Ay Nəbi, özündən muğayat ol sən,
Bil, daha dünənki cavan deyilsən.
- Əlbəttə, mən səni itirən gündən,
Həyatım dəyişdi tamam kökündən.

Qar əskik olmayır doğma dağımdan
Bir gündə asılıb hər ayağımdan.
Bəzən yersiz düşdük haya, haraya,
Axı pis də gedir, yaxşı da qalmır.
Sən məni qısqandın bütün dünyaya,

İndi dünya məni heç saya salmır.
Tanrım bağışlasın,
Günah varsa da,
Günah xoşbəxtlikdən pay alan deyil.
- Gənclik günahları yuyulsa da,
Qocalıq günahı yuyulan deyil!

Gec duydum həyatın
Mən sirlərini,
Zaman pərişandır, ömür pərişan.
Mən öz günahımın zəncirlərini
Çoxdan parçalayıb, çoxdan qırmışam.

Səni yana-yana səsləyirəm ki,
Eşitsin sözümü sevdiyim mələk.
Dünyada o günü gözləyirəm ki,
Gülarə adında nəvəm gələcək.

Şəklinə baxıram,
Baxıram yenə,
Sanıram çiynimə yumşaq əl dəyir.
- Gecən xeyrə qalsın - deyirəm sənə
Səhər deyəcəyəm:
- Sabahın xeyir!

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 2 (2425) 17 yanvar 2025-ci il



**Azərbaycan yeganə ölkədir ki, 30 illik ağır müharibədən sonra özünün sosial-iqtisadi problemlərini və işğaldan azad olunmuş əraziləri yenidən bərpa etməsi onu deməyə əsas verir ki, ölkəmiz həqiqətən də çox zəngin və iqtisadi inkişaf mərhələsini keçib. Təbii ki, 44 günlük İkinci Qarabağ savaşından sonra işğaldan azad olunmuş bütün rayonlarda bərpa, quruculuq və yeni infrastruktur tikilməklə yanaşı bayaq dediyimiz kimi, bütün regionlarda möhtəşəm quruculuq işləri də səngimək bilməyib.**

# İMİŞLİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ




Hansı ki, müharibədən çıxmış ölkələrə həmişə həm beynəlxalq təşkilatlar, həm də inkişaf etmiş ölkələr bərpa işləri üçün külli miqdarda vəsait ayırırlar. Bununla yanaşı, beynəlxalq qurumlar özləri də həmin işlərin həyata keçirilməsində bilavasitə iştirak edirlər. İştirak edirlər ki, müharibənin həmin ölkəyə vurduğu iqtisadi-sosial problemlər qısa zaman kəsiyində həll olunsun. Amma biz bunu qardaş Türkiyədən savayı digər ölkələrin heç birindən görmədik. Demokratiyadan və insan hüquqlarından dəm vuran Avropa ölkələri və eləcə də ABŞ Azərbaycana heç bir dəstək olmadı, Olmamaqları bir yana, onlar Azərbaycanın sürətli iqtisadi inkişafını və 44 günlük möhtəşəm qələbəsini həzm edə bilmədilər.

Amma bunlara baxmayaraq, Azərbaycan öz daxili imkanları hesabına həm işğaldan azad olunmuş ərazilərdə, həm də bütün regionlarda sosial-iqtisadi inkişafa dair dövlət proqramını uğurla həyata keçirməyə başladı. Bu gün hansı rayona getsən, hansı regiona ayaq bassan orda çox möhtəşəm abadlıq-quruculuq və tikinti işlərinin şahidi olarsan. Şahidi olarsan ki, Azərbaycanın ən ucqar dağlıq rayonlarında belə böyük tikinti işləri həyata keçirilib. Bir-birindən gözəl sosial obyektlər, məktəblər, xəstəxanalar, parklar və xiyabanlar inşa edilib. Belə gözəl və möhtəşəm abadlıq işləri İmişli rayonundan da yan keçməyib.

İmişli həm iqtisadi, həm də sosial cəhətdən respublikamızın önəmli əhəmiyyət kəsb edən rayonlarındandır. Başqa sözlə demiş olsaq, İmişlidə həm Sovet dönəmində, həm də müstəqillik illərində iqtisadiyyatda, tikintidə, sosial sahələrdə və mədəniyyətdə böyük inkişaf və irəliləyiş olub. Demək olar ki, rayonun mərkəzi sayılan İmişli şəhərində bir-birindən gözəl parklar, xiyabanlar, sosial obyektlər, xəstəxanalar, məktəblər, uşaq bağçaları həddindən artıq çoxdur. Təbii ki, bunları birdən-birə həyata keçirmək mümkün olmayıb. Çünki hər bir tikilinin, hər bir yeni layihənin həyata kesməsi üçün, daha doğrusu, inşa edilməsi üçün aylar və illər lazımdır. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə və eləcə də prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 ildən çox müddətdə İmişliyə həmişə diqqət və qayğı göstərilib. Burda demək olar ki, Heydər Əliyev adına çox möhtəşəm park inşa edilib. Bu parkın gözəlliyi, qeyri-adiliyi ondan ibarətdir ki, burda hər şey bənzərsiz və orijinaldır. Həm memarlıq, həm də inşa baxımından Heydər Əliyev Parkı çox unikal bir görkəmə malikdir. Çünki parkda bir-birindən gözəl ağaclar, güllər, çiçəklər və yaşıllıqlar zolağı salınıb. Bütün bunları həyata keçirmək elə də asan məsələ deyildir. Əlbəttə, çətin işlərdi, amma Ulu Öndər Heydər Əliyevin və prezident İlham Əliyevin köməkliyi nəticəsində İmişlidə bunlar hamısı reallığa çevrilib. Onları tikmək, qurmaq nə qədər çətindirsə, mühafizə etmək və qorumaq da bir o qədər çətin işdir. İmişli isti rayon olduğuna görə yay aylarında bu yaşıllıqlara qulluq etmək hər bir kommunal işçisindən zəhmət tələb edir. Üstəlik də hər fəsilə uyğun olaraq o yaşıllıqlara, o ağaclara və o güllərə aqrotexniki xidmət göstərilir. İsti yay günlərində səhər və axşam saatlarında davamlı olaraq bu gözəlliklərə və yaşıllıqlara su verilir. Əgər onlara bir gün, bir həftə qulluq göstərilməsə birmənalı olaraq həmin yaşıllıqlar istidən yanıb külə dönər.

İmişli camaatı həm də çox zəhmətkeş, halal və çörəyə sədaqətli insanlardı. Onlar 1993-cü ilin avqustun 23-də yurd-yuvasından didərgin düşmüş Füzulinin məcburi köçkünlərinə və qaçqınlarına qucaq açdılar. Onlara ata qədər, qardaş qədər doğma oldular. İmişlilər deyirlər ki, Böyük Vətən Müharibəsində Füzuli rayonunun taxılı, unu, çörəyi ilə biz aclıqdan xilas olmuşuq və onlara bizim bir borcumuz vardı. Füzulililər də bizim rayona gələndə bax, həmin o yaxşılıqları qaytarmağa çalışdıq. Elə Füzuli camaatı da imişlilərin ağır gündə onlara arxa durmasından çox böyük razılıq edirlər. O vaxtlar mənim onlarla qohumum məcburi köçkünlük dövründə İmişliyə sığındılar və onlardan mehribanlıq və səmimiyyət gördülər.

Bu gün İmişlidə tək abadlıq, quruculuq işləri rayon mərkəzində deyil, qəsəbələrdə, kəndlərdə geniş vüsət alıb. Ən ucqar kəndlərdə belə yeni məktəblər, bağçalar, xəstəxanalar inşa edilib. Və həmin yerlərdə çoxlu sayda insanlar çalışırlar. Onu da qeyd edək ki, bu gün İmişlidə neçə-neçə istehsalat sahəsi və eləcə də digər sahələr fəaliyyət göstərir. Xüsusən də kənd təsərrüfatı sahəsində fermerlər və heyvandarlar yeni texnika və texnologiyaları tətbiq edərək yüksək məhsuldarlığa nail olurlar. İmişlinin sakinlərindən biri sayılan Qəşəm Hacıyev deyir ki, müstəqillik dövründən sonra İmişli tanınmaz dərəcədə abad olub, yenidən tikilib və bizim istifadəmizə verilib. Əvvəllər İmişlidə isti yay günlərində durmaq mümkün deyildi, amma son 20 ildə rayon mərkəzində və qəsəbələrdə o qədər yeni ağaclar, yaşıllıqlar salınıb ki, istər-istəməz bu yaşıllıqlar həm şəhərimizə, həm də qəsəbələrimizə bir sərinlik gətirir.

**Qəşəm kişi dedi ki, ən yaxşı günlərimizi yaşayırıq və tez-tez də Heydər parkında oluruq. Mənim kimi təqaüdçülərin ən yaxşı istirahət yeri bax, bu parkdır. Xüsusən də isti yay günlərində axşamüstü burda istirahət etməyin və dincəlməyin özgə bir yeri var. Buna görə biz Ulu Öndər Heydər Əliyevə və prezident İlham Əliyevə minnətdarıq. Ona görə minnətdarıq ki, rayonumuzda çox gözəl parklar, xiyabanlar, istirahət yerləri, yeni infratstruktur var. Buna görə də bu gün İmişlidə yaşamaq və işləmək bizim üçün çox xoşdu!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Bizans, Roma və Osmanlı sivilizasiyalarını özündə yaşadan qədim Göynük

**Türkiyənin hər daşı bir tarixdir. Öz qədimliyi və mədəniyyət ənənələri ilə dünyaya səs salan Türkiyədə öz memarlıq abidələrinin zənginliyi ilə seçilən bir bölgə var. Bura Boludur. Əslində Bolunun bütün ərazisi tarixi abidələrlə zəngin olsa da, turistlərin daha çox axın etdiyi Göynük haqqında sizə məlumat verəcəyik. Göynük 2017-ci ildə ”Yavaş Şəhər - Cittaslow” elan edilib.**

Göynükün tarixi olduqca qədimdir. Tarixçilər qeyd edir ki, Roma Hərbi Yolu indiki Göynükdən, ”Dədəstan” adı ilə məşhur olan ərazidən keçib. Göynükün məlum olan ən qədim adı ”Koinon Gallicanon”dur. Bu qədim ərazi türk bəyliklərinin, Bizans, Roma və Osmanlı sivilizasiyalarının məskunlaşdığı ərazidədir. Susuz, Kilciler, Narzanlar, Boyacılar kəndlərində və bu kəndlərin ətrafında Bizans dövrünə aid yazılı əsərlər tapılmışdır. Kilcilər kəndində kilsə xarabalıqları da var. Şəhərdə bu günə qədər gəlib çatmış tarixi əsərlər və tikililər var.

Göynük həm də qədimdən bir tayvanın yaşadığı bir ərazidir. Göynük kəndi Azərbaycanda da var. Şəkinin Göynük kəndi ilə Türkiyədəki Göynüklüləri birləşdirəm həm də danışıq şivələrinin müəyyən qədər oxşarlığıdır. Oxşar olan əslində danışıq şivəsi deyil. Demək olar ki, bu iki Göynükün bütün adət ənənələri və mətbəxi müəyyən mənada eynilik təşkil edir. Göynükdə olmaqla siz tarixə səyahət edə, bugünkü irs binalarını, türbə və məscidləri, mülki memarlıq nümunələrini ziyarət edə bilərsiniz.



Göynükün ən gəzməli və görməli yerlərini sizə təqdim edirik.

### 1. Qələbə Qülləsi

Göynükün mərkəzində yerləşən Zəfər Qülləsinə qalxan kimi bütün Göynük ayağınızın altında qalacaq. Qalanın əsas hissəsi daşdan, qüllə isə taxta materiallardan altıbucaqlı formada tikilib. Məlumdur ki, 1923-1924-cü illər arasında mahalın ilk mahal valisi Hurşiy bəyin tikdirdiyi Zəfər qalası bu günə qədər bir neçə dəfə bərpa olunub.

Qurtuluş Döyüşünün mübarizliyini və zəfərini simvolizə etmək üçün inşa edilib.

### 2. Qazi Süleyman Paşa məscidi

1331-1335-ci illər arasında Orxan Qazinin oğlu Qazi Süleyman Paşa tərəfindən inşa edilən məscid Qazi Süleyman Paşanın adına tikilən ilk məscid kimi də tanınır. Həyətində Fateh Mehmetin ağası Akşəmsəddinin türbəsinin olduğu Qazi Süleyman Paşa məscidi Bolunun ən tanınmış tarixi məscidlərindən biridir və eyvanlı, tək minarəli və günbəzli tikilmişdir. Məscid Göynükün mərkəzində yerləşir.

### 3. Qazi Süleyman Paşa hamamı

1331-1335-ci illər arasında inşa edilən hamam Qazi Süleyman Paşa məscidi ilə eyni tarixlər arasında tikilib. Bölgənin ən qədim və ən böyük hamamı olan Qazi Süleyman Paşa hamamının Övliya Çələbinin yazdığı Səyahətnamə qeydlərində adı keçir. Övliya Çələbi ”İstanbulda belə gözəl və böyük hamam yoxdur” deyir.

Hamam kişilər və qadınlar üçün iki fərqli bölmədən ibarət olduğu halda, hər iki hissədə soyuq, isti və istilik üçün ayrı bölmələr var. Hamamın tikintisində yonma daşlardan istifadə edildiyi halda, 1950-ci ildən sonra hamamda ətraflı bərpa işləri aparılmışdır. Keçmişdən bu günə dağılmadan gəlib çatan bu hamam memarlıq baxımından keçmişin izlərini daşıdığı üçün Göynük səfəriniz zamanı ziyarət etməli olduğunuz yerlər sırasındadır.

### 4. Həzrəti Akşəmsəddin türbəsi

Böyük alim və eyni zamanda Fateh Sultan Mehmetin müəllimi kimi tanınan Akşəmsəddinin 1459-cu ildə vəfatından sonra (hicri 864 / m. 1464) onun türbəsi tələbəsi Fateh Sultan Mehmet tərəfindən tikilmişdir. Altıbucaqlı kəsilmiş daşlarla tikilmiş türbə günbəzlə örtülmüşdür. Əsas divarın hər tərəfində uclu tağvari taxçalarda düzbucaqlı pəncərələr vardır. Türbənin şimal-şərq küncündə uclu tağ yuvasında tikinti yazısı olan giriş qapısı var.

Türbədə Akşəmsəddin və oğullarının sarkofaqları yerləşir. Akşəmsəddinin sarkofaqı qoz üzərində relyef yazısı ilə bəzədilib. Bu, Osmanlı dövrü ağac emalının ən yaxşı nümunələrindən biri kimi önə çıxır.

# Qarabağa «Artsax» dedi, haylara 6 milyon dollar «atdı»: Hiyləgər Snub Doqqun «sevgisi»

**Ötən il xəbər vermişdik ki, amerikalı repçi, dünyanın ən məşhur ulduzlarından biri Snup Doqq Ermənistana ”atıb”.**

Xatırlayırsınızsa, məsələ belə olmuşdu:

Hələ 2023-cü ilin yayından repçinin Ermənistana gəlməsi ilə bağlı məlumat yayılsa da, indiyənə qədər onun İrəvana səfəri və ya konserti baş tutmayıb. Konsertin 2023-cü ilin sentyabrında baş tutacağı ilə bağlı xəbər tirajlayan erməni mediası onu da qeyd etmişdilər ki, repçiyə 2,3 milyard dram ( 6 milyon ABŞ dolları) ödənilib. Sonra məlum oldu ki, Snup Doggun konserti ”artsax”da baş verən hadisələrlə əlaqədar baş tutmayıb, lakin bütün qonorar repçiyə çatsa da, Doqq pulu hələ də qaytarmayıb.Erməni mediası narahatlıqla Təhsil və Mədəniyyət Nazirliyindən konsertin olub-olmayacağı, dövlət büdcəsindən konsert üçün ödənilən pulların qaytarılıb-qaytarılmayacağı ilə bağlı sorğu-sual edib və cavab belə olub: ”2024-cü il fevralın 15-də Ermənistan Hökuməti Fevralın 19-da Təhsil və Mədəniyyət Nazirliyi ilə ”Doping Space” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında dünya ulduzu Snup Doqun konsertinin 218 nömrəli qərarı əsasında təxirə salınması ilə bağlı müqavilə imzalanıb. Hazırda ”Doping Space” MMC konsertin tarixlərini dəqiqləşdirmək üçün müğənni ilə danışıqlar aparır”. Hətta ötən il (2023) ”Doping Space” şirkətinin həmtəsisçisi, prodüser Makar Petrosyan ictimaiyyətə kədərlə bildirmişdi ki, Snup Doqqun pulu qaytarmaq fikri yoxdur.




Hazırda məsələ yenə gündəmə gəlib.

Adalet.az xəbər verir ki, Ermənistan təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan jurnalistlərə açıqlama verib.

O bildirib ki, siz Jurnalistlər hər dəfə məndən Snup Doqq haqqında soruşduqda, mən o vaxt təşkilatçı şirkətdən əldə etdiyimiz məlumatları ötürürəm:” ”Bilirəm ki, onlar il boyu konsertin baş tutması üçün danışıqlar aparıblar və müxtəlif vaxtlarda müəyyən ilkin razılıqlar olub, nədənsə baş tutmayıb. Bu isə o deməkdir ki, müqavilənin müddəaları yerinə yetirilməlidir ki, konsert baş tutmadığından biz artıq planlaşdırıldığı kimi bütün pulları dövlət büdcəsinə qaytarmaq üçün təşkilata yazmışıq”, - deyə Janna Andreasyan bildirib.

Yeri gəlmişkən, bilirsiniz ermənilər S.Doqu okeanın o tayından İrəvana niyə dəvət edibər? Guya başqa müğənni və ya məşhur yox idi ABŞ-da ? Vardı! Amma S. Doq ona görə seçildi ki, Qarabağda 2020-ci ildən sonrakı hadisələr zamanı öz sosial şəbəkə hesabında- İnstaqramda Azərbaycanın ərazisi olan Qarabağı Ermənistan ərazisi kimi təqdim edib və onu ”artsax” adlandırıb. Daha sonra paylaşıma belə bir şərh yazıb:

”Əziz erməni xalqı, mən sizi düşünürəm və Ermənistanda, ”artsax”da və bütün dünyada yaşayan ermənilərə öz sevgimi göndərirəm. Hər kəsə sevgi, sülh və möhkəm olmağı arzulayıram. Sentyabrın 23-də gələcəyəm”.

***P.S.** Malesef gələ bilmədi... Avantürist!!*

**Əntiqə Rəşid**

## Xalq artisti: “Bəstəkarın adını niyə çəkmirlər”?!



**Xalq artisti Aygün Səmədzadə müğənnilərdən giley edib.**

Adalet.az xəbər verir ki, bəstəkar, mahnı ifa edərkən bəstəkarın adını çəkməyən müğənniləri qınayıb:

”Mənə çox maraqlıdır niyə mahnı müəlliflərinin adını çəkmirlər. Bəstəkarlara diqqətsizlik göstərirlər. Axı istənilən müğənnini tamaşaçıya sevdirən bəstəkarın mahnılarıdır. Nəzərə almaq lazımdır ki, insan diqqət göstərmədən diqqət hörmət görə bilməz”.

## Kərim: “Onun haqqında danışsam, gərək ölkədən çıxıb getsin”



**Uzun zamandır Kərim Abbasovla Zamiq arasında yaşanan qalmaqal bitmək bilmir.**

Adalet.az xəbər verir ki, Kərim şou proqramların birində Zamiq haqda kəskin danışıb:

”Onun şəklini mənə göstərməyin. Əhvalıma pis təsir edir. Onu görəndə əsəbləşirəm. Bir adamla əlaqəm yoxdursa, münasibətlərim 0-a enibsə onun şəklinə baxmaq məcburiyyətindəyəm? Deyirsiniz ki, onu tərifləyə bilərəm. Xeyr, əlsa! Bu addımım ona çox olar axı. Bayaq iki üzlü insanlardan danışdıq. Amma bələləri min üzlüdür. Bilmirsən sabah necə olacaqlar. Onun şəklin cırıb atın. Görmək istəmədiyim insandır. Haqqımda xoşagəlməz sözlər danışıb. Mən onun haqqında danışsam, gərək ölkədən çıxsın”.

## Müğənni: “...bu yerlərə özüm tək gücümlə gəlmişəm”



**Müğənni Şəbnəm Qəhrəmanova ona irad bildirənlərə cavab verib.**

Adalet.az bildrir ki, müğənni sənətdə heç kəsdən dəstək görmədiyini qeyd edib:

”İlk onu qeyd edəm ki, bu yerlərə özüm tək gücümlə gəlmişəm. Mən sənətə kiməsə görə gəlməmişəm. Yıxıla- yıxıla, qalxa- qalxa Şəbnəm Qəhrəmanova olmuşam. Kimsə hansısa gündə yanımda ola bilər. O bir dstəkdir. Ama kimsə kiminsə sayəsində adam olmayıb. Hər kəs öz zəhməti ilə qazanır”

**Əntiqə**

## “Bavariya”dan “Real”a



**”Real” heyətini yeni futbolçu ilə gücləndirəcək. QOL.az xəbər verir ki, bu barədə ”Marca” məlumat yayıb. Madrid təmsilçisi ”Bavariya”nın müdafiəçisi Alfonso Deyvislə anlaşıb. 24 yaşlı müdafiəçi ”Real”a azad agent kimi keçəcək.**

Qeyd olunur ki, kanadalı futbolçu ilə yaxın vaxtlarda transfer müqaviləsinin bağlanacağı gözlənilir.

Qeyd edək ki, Deyvisin ”Bavariya” ilə hazırkı müqaviləsi 2025-ci il iyunun 30-a qədərdir. O, cari mövsümdə 23 matça çıxıb, 1 qol vurub və 3 qolun ötürməsini verib. Futbolçunun təxmini transfer dəyəri 50 milyon avrodur.

**Daşdəmirov Şöhrət Qüdrət oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 213
Çapa imzalanmışdır: 16.01.2025